*AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI*

*FOLKLOR İNSTİTUTU*

**Prof. Dr. Sədnik Paşa Pirsultanlı**

# *AZƏRBAYCAN TÜRKLƏRİNİN XALQ RƏVAYƏTLƏRİ*

***Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.***

**Bakı – 2011**

*Toplayanı və tərtib edəni:*
***Sədnik Paşa Pirsultanlı,***
*professor, filologiya elmləri doktoru*

***RƏYÇİ: Məhərrəm Qasımlı,***
*filologiya elmləri doktoru, professor*

***REDAKTOR: Samirə Əjdərzadə***

***Prof. Dr. Sədnik Paşa Pirsultanlı***
***(Paşayev)***

# *Azərbaycan türklərinin xalq rəvayətləri*

***632 səh.***

*Demək olar ki, "Azərbaycan türklərinin xalq əfsanələri" kitabının davamı olan "Azərbaycan türklərinin xalq rəvayətləri" kitabı toponimləri, tarixi hadisələri, coğrafi məkanları özündə əks etdirir. Bu kitab xalqın tarixini, etnoqrafiyasını, coğrafi məkanları və başqa əlamətləri özündə yaşatmaqla tarixə şahidlik edir. Bu kitab tarixçilərin, etnoqrafların, folklorşünasların, eləcə də coğrafiyaşünasların stolüstü kitabı olacaqdır. Kitab turizmi fakültələri olan universitetlərdə müəllim və tələbələr üçün ən gözəl dərs vəsaiti olacaqdır. Əlbəttə, bu folklor qaynaqları əsasında dəyərli elmi əsərlər yazılacaqdır.*

***P*** ***4603000000*** ***qrifli nəşr***
***064-2011***

**© Pirsultanlı S.**

# Əsatir və əfsanələrdən rəvayətə doğru

Əsatir öz qəlbində qədim totemləri yaşadır. Totemlər çoxallahlıq dövrünün yadigarlarıdır. Təsəvvürlərdə yaşayan əsatirlər epikləşdikdən sonra, daha doğrusu əsatirin törəməsi olan əfsanələrə çevrildikdən sonra öz sirrini, mahiyyətini bizə danışır. Əsatirin canı təsəvvürdə və fantaziyadadır. Əfsanə yeni lokallıq, coğrafi məkana bağlılığını yaşatmaqla fantaziya həmişə onun qol-qanadı olur. Fantaziyasız əsatir və əfsanə ola bilməz. Əsatir və əfsanələrdən sonra yaradıcılıq meydanına gələn rəvayətlər daha çox tarixi hadisələrlə qovuşur, sirli-sehrli toponimləri öz örtüyü altına alır. Onu da qeyd etmək lazımdır ki, əsatir və əfsanə kimi rəvayət də, tarixə yoldaşlıq edən bu bədii hekayətlər də fantaziya ilə süslənir. Toponimlər etimologiyanın gücü ilə öz sirrini-sehrini açır. Dünya ilə yaşdaş olan dağların, qayaların, digər toponimik isimlərin məzmununu etimologiya vasitəsilə izah etmək olur. Lakin sözlərin lüğəvi mənasını, tarixi faktlarla bağlılığını, mənşəyini təkcə fantaziya ilə aşkarlamaq olmaz. Başqa sahələrdə olduğu kimi burada da elmin köməyi ilə dürüst nəticələr əldə etmək olar.

Azərbaycan əsatir, əfsanə və rəvayətlərinin toplanması, nəşri və tədqiqi mənim taleyimə yazılmışdır.

1973-cü ildə nəşr olunmuş “Yaşayan əfsanələr” kitabım Azərbaycan əsatir və əfsanələrinin ilk qaranquşudur. Bunun arxasıncan 1976-cı ildə “Yurdumuzun əfsanələri”, 1978-ci ildə “Yanardağ əfsanələri” kitablarım işıq üzü görmüşdür. Bunların əsasında tərtib olunmuş, yeni örnəklərlə zənginləşmiş “Azərbaycan xalq əfsanələri” kitabım 1985-ci ildə “Yazıçı” nəşriyyatı tərəfindən 50 min tirajla nəşr olundu. Bu yaradıcılıq yolunda daha gərgin işləyərək əfsanələrin daha əhatəli və zəngin örnəklərini “Azərbaycan türklərinin xalq əfsanələri” adı ilə 2009-cu ildə Azərbaycan türkcəsi ilə, 2010-cu ildə isə Anadolu türkcəsi ilə nəşr etdirdik.

Biz əsatir və əfsanələrlə yanaşı Azərbaycan toponimləri ilə və qeyri tarixi hadisələrlə yaşamaqda olan Azərbaycan rəvayətlərini bir an belə unutmurduq. Onları toplayıb “Azərbaycan xalq söyləmələri” (1992), “Xalqın söz mirvariləri” (1999), eləcə də “Eldən-obadan eşitdiklərimiz” (2005) kitablarına daxil edirdik. Həmçinin ayrı-ayrı bölgələrdən toplanan rəvayətləri naşiri olduğum “Pirsultan” dərgisində və “Xalq ozanı” qəzetində nəşr etdirdim. Nəhayət, kifayət qədər

toplanmış xalq rəvayətlərini bir yerə cəmləyib "Azərbaycan türklərinin xalq rəvayətləri" adı altında nəşr etdirməyi qət etdik.

Mən burada ətraflı olmasa da bəzi bölgülərə, ayrı-ayrı rəvayətlərə münasibətimi bildirmək istəyirəm.

Dünyanın yaranması, dağ və bulud, Adəm ata, Nuhun gəmisi, eləcə də insanın yaranması haqqında tarixin öz sözü, folklorun da öz sözü vardır. Folklor, eləcə də rəvayətlər tarixə yoldaşlıq etsələr də tarixin şəklini yox, məzmununu özlərində təcəssüm etdirirlər. Hər şeydən əvvəl tarixin izlərini özündə yaşatsa da rəvayətlər xalqın təxəyyülü ilə süslənmiş bədii əsərdir. Rəvayətlər tarixi hadisələrin izlərini özündə yaşatmaqla yanaşı, bədii boyalar almış fantastik bədii yaradıcılıqdır. İnsanlar müəyyən tarixi məlumatlar, toponimik izahlarla tanış olmaqla yanaşı, ondan tükənməz bədii zövq alırlar. Onu daha çox bədii əsər kimi oxuyurlar. Onun daxilindəki məna və məzmunu, elmi dəyərləri sonradan aşkarlayıb üzə çıxarırlar. Dağ, daş, qayalar haqqında elə bədii əhvalatlara, epizodlara, macəralara rast gəlirik ki, onlar bizdə, yəni zehnimizdə, mənəvi varlığımızda yeni duyğular oyadırlar. "Qızıl qaya", "Kəndin qayaları", "Pirsultan dağı", "Pirsultan ana", rəvayətləri tarixin şahidləri kimi bizə

sirli-sehrli hadisələri danışırlar. “Qara inək zağası”, “Molla qayası”, “Keyti və Mehti” dağları çox qədim görüşlərlə bağlıdır. Bunların hər biri xüsusi tədqiqata möhtacdır. “Maral qayası” ibtidai insanın inamları, totemləri ilə bağlı yaransa da sonralar epikləşərək daha məzmunlu bir əfsanəyə, bir hekayətə çevrilmişdir. Oxucu həm də bu səpkili əfsanələri bədii əsər kimi oxumaqdan da doymaz. “Laçın qayası” əfsanəsi bu baxımdan daha qiymətli və əvəzolunmaz, bitkin, bədii bir əsərdir.

Bulaq, çay və dəniz rəvayətləri içərisində “Pəri bulağı”nın xüsusi yeri vardır. “Pəri bulağı” Azərbaycan torpağının, dağlarının şəfalı otlarla, bulaqlarla zəngin olmasından xəbər verir. Pəri sağalmaz xəstəliyə mübtəla olur. Baş götürüb eldən-elatdan çıxan Pəri səfalı yaylaqlarımıza qaçır. Dağlarımızın neməti olan bitkilərdən yeyir, şəfalı sulardan içir, təbii şəkildə sağalır. Ona şəfa verən bulaq bu gün də “Pəri bulağı” adı ilə qalmaqdadır. İxtiyar bir qoca Pərini görüb sevinir və deyir ki, qızım, mən bu şəfalı bulağı illərcən axtarmışam. Bu bulağı məndən qabaq sən tapdın, adınla bulağın adını möhürlədin.

Dədə Qorqud haqqında “Aldədə” və Koroğlu haqqında bir-birindən qiymətli, tarixi rəvayət vardır. Kitabda maraqlı bölgülərdən biri

də xəlifələr, hökmdarlar və şahlar haqqında olan rəvayətlərdir. Burada İsgəndər Zülqərneyn, Bərməkili vəzir və Nadir şah haqqında xalqın xüsusi mülahizələri vardır. Kərəm və Kərəm bulağı haqqında elə ecazkar rəvayətlərə rast gəlirik ki, xalqın "Əsli və Kərəm" dastanına ayrıca deməyə sözü vardır. "Davud peyğəmbər və saz", "Comərdi qəssab və Həzrəti Əli", "Rüstəm və Zöhrab", "Nuh peyğəmbər" haqqında nadir örnəklər vardır. Toponimik rəvayətlər kitabın can özəyidir. "Abbasbəyli", "Oxçuoğlu", "Türk qızı Becan", "Həzrət baba", "Haça qaya", "Sultanbud", "Eşq Abdal" rəvayətlərinin toponimik izahları insanda maraq doğurur. Sara haqqında rəvayətlər "Apardı sellər Saranı" adlı məlum mahnıdan əlavə dəyərli faktlar meydana çıxardı. Ovçu Pirim rəvayətləri kitabda xüsusi yer tutur. Hətta Ovçu Pirim heyvanların dilini bildiyi halda qardaşı Kərəmə bütün heyvanların, quşların səsini çıxartmağı bacarır. Bu rəvayətlər tarixə şahidlik edir. Bizim üçün sehrli-sirli olan hadisələri açır. Bundan əlavə rəvayətlərdəki bədiyyatdan və fantaziyalardan doymaq olmur. Onları bir eşitdikdə bir də eşitmək istəyirsən. Kitabda eldən-elatdan gələn bənzərsiz rəvayətlərə, elin qeyrətli oğul və qızlarına, aqil babalara və nənələrə rast gəldikcən heyran qalırsan və öz-özünə deyirsən: - Mənim

xalqım zəngin, bədii cəhətdən mükəmməl, alimanə xalqdır. "İlan və bağban", "Haqq ağacı", "Qurd Zöhrə", "Qız və ilan" rəvayətlərini oxuduqda heyrət səni bürüyür. Düşünürsən bu xalqa "şair xalq", "alim xalq" demək də azdır.

Əlbəttə bir neçə səhifəlik yazıda, kitabda toplanmış rəvayətlərin mənasını və məzmununu açmaq, söyləmək olmaz. Biz qabaqcadan inanırıq ki, "Azərbaycan türklərinin xalq rəvayətləri" haqqında neçə-neçə tədqiqat əsərləri- monoqrafiyalar yazılacaqdır.

"Şuşa torpağının nəfəsi" rəvayəti torpağa bağlılığı özündə əks etdirən tarixi rəvayətdir.

Türk zabiti Nuru Paşa Şuşada imiş. Görür ki, məscidin həyətində böyük izdiham var. Bu yığıncağa maraq göstərən Nuru Paşa oraya gəlir. Baxır ki, bir din xadimi elə əzan çəkir ki, heç bir kəs elə əzan çəkə bilməz, heç bir müğənni o avazla Quran oxuya bilməz. Nuru Paşa əzançıya bir ovuc türk lirəsi hədiyə verib deyir:

- Əgər gündə İstanbulda bircə dəfə belə əzan çəksən sənə hər dəfə bir kilo altun bağışlayaram. Hər gün İstanbula minlərlə insan gəlir, iş görür, yeyib-içir, uzaq-yaxın ölkələrə gedir. Bu əzanı eşidən hər kəs dönüb müsəlman olar. Sən günü sabahdan hazırlaş İstanbula gedək.

-Yox Paşam, utanıram, gedə bilmərəm. Mənə bu səsi verən, avazı bağışlayan Şuşa torpağıdır, onun nəfəsidir.

"Tale gölü" rəvayəti mən deyərdim ki, bu bir rəvayət və yaxud hekayət deyildir. Bədii qüdrətə malik, bədii boyalarla bəzənmiş, fantaziya ilə süslənmiş ölməz bir əsərdir. Hətta onun qayəsi qeyri-adi insan ağlına sığmaz bir möcüzədir.

Sifətcə o qədər də gözəl olmayan bir qız yarlı-yaraşıqlı bir oğlana ərə gedir. Qız bir tərəfdən sevinir, bir tərəfdən də daxilən vicdan əzabı çəkir, özünü oğlana yaraşdırmır. O, belə qərara gəlir ki, özünü ya suya, ya oda atıb öldürsün, ya da bu oğlana layiq bir qız alıb onlara qulluqçuluq etsin. Kənardan bu oğlana baxmaq mənim bəsimdir.

Qız hara getdiyini bilmədən bir səhra ilə baş götürüb gedir. Nə geri qayıda bilir, nə də irəlidə nə olacağını bilir. Aclıqdan, susuzluqdan bağrı partlayır. Yuxuda bir yaşıllıq görür, özünü oraya güclə çatdırır. Dörd tərəfi qar-qamış, sahilində uca bir ağac görünür. Ağacın dibindən gözəl bir bulaq qaynayırdı. Ağacın dadlı meyvələrindən yeyir, bulağın suyundan içir və deyir:

- Deyəcəyəm, ey ağac, uca ol, ucasan. Deyəcəyəm barlı-bəhrəli ol, ləzzətli meyvələrin var, doymaq olmur. Qızın gözü qamışlıqda silkələnən

Göy göldə idi. Birdən su yarıldı, sarışın bir gözəl qız sudan çıxdı, yerə-göyə naz elədi. Qız yerindən dik atılıb ona yalvardı:

- Aman günüdür, gözəl, sənə deməli sözüm var. Mən elin igid oğlunu bədbəxt etməmək üçün ya özümü oda atıb, ya da suya atıb məhv olmalıydım.

Sudan çıxan sona deyir ki, mən çoxmu gözələm?

-Bəli, qənirsiz gözəlsən, mən indiyə qədər sənin gözəlliyinə çatacaq bir gözəl görməmişəm.

Sular sonası deyir:

- İndi ki, məndən razı qaldın, get bəylə sevinclə yaşa. Mən sənin taleyinəm, sevgilin hər sənə baxanda məni görür.

Bu rəvayər adi rəvayət deyil, bəlkə də tale haqqında rəvayətləşmiş bir abidədir. “Azərbaycan türklərinin rəvayətləri” folklor toplusunda buna bənzər qiymətli, hikmətamiz incilər çoxdur.

Əsərdə Aldədə, Dədə Günəş və Günəş Ata haqqında silsilə rəvayətlər vardır. Fərhad, Dədə Qorqud, Nuh, Adəm Ata, Xızır bunlar türkdilli xalqlarda müştərək obrazlardır. Lakin yurdumuzun şərq bölgəsində Aldədə adlanan bu obraz, yalnız və yalnız Azərbaycan türklərinə məxsus obrazdır. Bir sözlə milli zəminə, coğrafi əraziyə bağlı olan bu obraz yurdumuzda çinar kimi ucal-

mış torpağımızın hər bir guşəsinə kök atmış, kökü üstündə pöhrələri var. Sanki, o çinar deyil, yurda keşik çəkən nurani bir qocadır. Biz bunun həqiqi təsdiqini “Aldədə” və “Bəxtiyar dağı” rəvayətlərində daha dərindən duyur və hiss edirik. Bizə görə, “Bəxtiyar dağı” odlar yurdu Azərbaycanın rəmzidir. Aldədə isə onun sahibidir, hamisidir. Aldədə dünyasını dəyişərkən torpaqla, insanlarla necə vidalaşır? Ot da, su da, yer də, göy də, insanlar da, ceyranlar da, quşlar da hamısı Aldədənin pişvazına çıxmışdır. Aldədə vəsiyyət edir ki, mən ölərkən ilxımdan qəmərnişan atı tutub cənazəmi ona sarıyarsınız. Bəxtiyar dağına məni o çıxarar. Qəmərnişan at Aldədənin cənazəsini belində aparır. Yol boyunca insanlar cərgələnir, ağsaqqal da dodaqaltı pıçıldayır və deyir:

- Bizi qoruyanın qarşısında ehtiramla baş əyirik.

Qəmərnişan at bərəkətli zəmilərdən keçir. Görək nə deyir:

-Bizi qoruyanın qarşısında ehtiramla baş əyirik.

Qəmərnişan yaşıl meşələrdən, ceyranlı-cüyürlü talalardan keçir, ürkək marallar dilə gələrək deyir:

- Bizi qoruyanın qarşısında ehtiramla baş əyirik.

Qəmərnişan gəlib Kür çayının sahilində dayanır. Kür öz axarını dayandıraraq deyir:

- Məni qoruyanın qarşısında ehtiramla baş əyirəm.

Qarşıda başı buludlara dəyən dağ dilə gəlir. Vətənini, elini, obasını canından əziz bilən, onu göz-bəbəyi kimi qoruyan Aldədənin yeri mənim köksümdədir.

Bu rəvayət bizə onu deyir ki, halallıqla ona xidmət edəni vətənin rəmzi olan uca dağ da köksündə ona yer verir, əzizləyir və qoynunda bir dünyanın yatdığını ellərə nişan verir.

Məzarı Tovuz bölgəsinin Ağdam kəndi yaxınlığındakı qəbiristanlıqda uyuyan Aldədəni bəzən Koroğlunun atası hesab edirlər. Aldədənin arvadı Mahpeykəldir, mənası aybəniz deməkdir.

Mahpeykəlin bələkdə olan oğlunu qurd Ağdamın Beşikli kəndinə aparır. Böyüdükdən sonra Aldədə onu tapır və oğluna deyir:

- Sən Qor oğlusan.

Oğlan atasına deyir:

- Mən qurd oğluyam.

Burdan anlaşılır ki, Aldədə əfsanə və rəvayətləri zərdüştlüklə islam mədəniyyətinin qarşı-qarşıya dayandığı dövrdə yaranmışdır. Əlbəttə bu məqamları ciddi araşdırmalara cəlb etmədən birdən-birə hökm vermək çətindir. Burada bizi sevindirən və Koroğlunun mənşəyini araşdırmağa, axtarmağa imkan verən çox möhkəm məqamlar, zəngin materiallar vardır. Məlumdur ki, Koroğlunun iki böyük versiyası- Qafqaz və Orta Asiya versiyaları və çox sayda variantlar mövcuddur. Orta Asiya versiyasında özül olan Özbək və Türkmən variantlarıdır. Özbək variantı nağıl əsasında yaranır. "Gülüstani-İrəm", "Goroğlunun" evləndiyi div qızının məkanıdır. Qafqaz versiyası Azərbaycan variantı əsasında bərqərar olmuşdur. Bu isə ən qədim əsatir və əfsanələr əsasında yaranmış bir obrazdır. Deməli Azərbaycan türklərinin Koroğlusu əsatir, əfsanə, nağıl və rəvayət mərhələlərindən keçmiş, milli zəmində boy atmış, formalaşmış, yaranmış milli qəhrəmandır. Yazıçı Mehdi Hüseyn qeyd edir ki, Koroğlu dünyanın harasında görünür-görün-

sün onun başlanğıcı Azərbaycan torpağındadır. “Azərbaycan Koroğlusu” adlı monimental, əzəmətli bir əsərin yazılıb ortaya qoyulması üçün zəngin material vardır.

Əlbəttə bir neçə səhifəlik yazıda “Azərbaycan türklərinin xalq rəvayətləri” kitabında cəmləşmiş xalq incilərini təhlil və tədqiq etmək imkan xaricindədir. Bu kitab neçə-neçə elmi əsərlərin yaranmasına imkan verəcəkdir. Bu kitab eyni zamanda bədii bir əsər kimi xalqın zövqünü oxşayacaqdır.

***S.P.Pirsultanlı,***
***professor, filologiya elmləri doktoru***

# *DÜNYANIN YARANIŞI VƏ MÜQƏDDƏSLƏR HAQQINDA*

## *ИНСАН ВЯ ДЦНЙА*

Дейиляня эюря, Эюктанры Ъябрайылы эюндярир ки, судан инсан дцзялдиб йарымчыг дцнйаны гайдайа салсын. Lakin Ъябрайыл Танрысынын истяйини йериня йетиря билмир. Эюктанры икинъи дяфя Ъябрайылы эюндярир ки, оддан инсан йарадыб низамсыз дцнйаны бязясин. Үеня dә бир нятиъя щасил олмур. Гцдрят сащиби цчцнъц дяфя торпагдан инсан дцзялдиб дцнйаны тамамламаьы буйурур. Sudan və oddan fərqli olaraq Торпаг Эюктанрынын арзусуна гаршы чыхмыр. Onun істяйиnі гябул edир. Анъаг дяриндян ащ чякиб эюз йашлары ахыдыр. Торпаьын тялаш кечирдийини, язаб чякдийини эюрян Ъябрайыл onun бу щалынın сябяби иля марагланыр. Торпаг Ъябрайыла билдирир:

- Мян су кими, од кими Танрынын арзусуна гаршы чыхмырам. Анъаг бир мясяля вар ki, mяним эцъцм, бюйцклцйцм, варлыьым мяним тамлыьым-дадыр. Мян юзцмц инсанлара чевирсям, йаваш-йаваш йоха чыхарам. Вердийими алмаг шяртиля Танрынын буйруьуну гябул едирям. Мяним сюзцм Танрыйа да хош эяляъяк.

Торпаг неъя демишдися, еляъя дя олур. Одур ки, инсан йараныр, йашайыр və юлцр. Торпагдан йаранан илляр кечяндян сонра йенидян торпаг олур. Эюктанры бу йолла торпаьын боръуну эери гайтарыр.

## *İNSANIN YARANMASI*

Allah təala hər bir şeyi: oddan, sudan yaratdı ki, dünyaya sahib olsun. Bu yaratdığı şeylər dünyaya sahib ola bilmədi, ancaq bircə torpaqdan yaratmamışdı. Allah təala əmr elədi ey cənabi Cəbrayıl en yerdən torpaq gətir, ondan da insan yaradaq qoy dünyanı tutsun. Cənabi Cəbrayıl endi Yerdən torpaq götürə, Yer yalvardı ki, amandır məndən torpaq götürmə.

Buna görə də cənabi Cəbrayıl yerdən torpaq götürməyib, boş qayıtdı. İkinci dəfə Allah təala əmr elədi: - Ey Cənabi Əzrayıl sən get, Yerdən torpaq gətir! Yer bu dəfə də başladı cənabi Əzrayıla yalvarmağa ki, məndən torpaq götürmə. Cənabi Əzrayıl isə Yerə belə cavab verdi ki, borc alıram, qaytarıb özünə verəcəyəm. Cənabi Əzrayıl torpağı gətirdi, göyün yeddinci təbəqəsində bu torpağın üstünə 40 gün qəm yağışı, 40 gün də şadlıq yağışı yağdı. Bu torpaq

islandı, ondan sonra Allah təala əmr elədi ki, ya cənabi Cəbrayıl kukla qayır. Kuklanı qayırdıqdan sonra üz çevirib qibləyə ibadət elədilər, həmin kuklaya nəfəs və can gəldi. Bunun adını qoydular Adəmata. Bunu Allah təala əziz yaratdığına görə, behiştin tam ortasına gətirdilər. Adəmata behiştin tam ortasında gəzdi. Gecə yatdığı zaman şeytan gəlib zənən donunda yuxusuna girdi. Allah təala əmr elədi ki, ya Cənabi Cəbrayıl o, palçıqdan qalanı bir qadın düzəldin. Adəmata yuxudan oyanana qədər onun yanına qoyun, durub görsün ki, həqiqidir.

Həmin artıq qalan palçıqdan bir zənən düzəldib Adəmatanın yanına qoydular. O, yuxudan qalxanda gördü ki, yuxu deyil, həqiqidir! Bunlar hər ikisi behiştin tən ortasında gəzirdilər. Birdən onların yolu düşdü behiştin buğda ağacına tərəf. Havva nənə Adəmata ilə baxdılar gördülər ki, yaman çalqı çalırlar. Havva nənə Adəmataya dedi ki, ay Adəmata nə gözəl musiqi çalırlar, gəl biz də gedək ora. Bu çalqını şeytan təşkil eləmişdi. Adəmata ilə Havva nənəni yoldan çıxarıb cuşa gətirmək üçün. Onlar qoy cuşa gəlib oynasınlar, sonra da buğda yeyib cənnətdən çıxsınlar. Şeytan öz istəyinə çatdı.

## *МУСА ВЯ ОЗАН*

Муса Тур даьына чыхыб Аллащ-тяала иля бир нечя ваъиб кялмя кясди. Сонра хащиш етди ки, бу сирр онларын арасында галсын. Бир эцн йол иля эялирди. Эюрдц ки, бир nəfər озан бир дястя адамы башына йыьыб, Аллащла Муса пейьямбярин арасында олан кяламлары шеіря дцзцб охуйур. Муса дярщал эери гайытды, мцгяддяс Танрыйа цз тутуб деди:

- Ей мяним Аллащым, бяс биз разылашдыг ки, арамызда олан сющбятдян щеч кясин хябяри олмасын. Мян бу йюндя щеч кясля кялмя кясмямишям. Сиздян дя шцбщялянмяйя щаггым йохдуг. Йолда бир Озанын бизим сющбяти нязмя чякиб охудуьуну ешитдим. Бу неъя олан ишдиr?

Аллащ-тəала деди:

- Муса, бил вя аэащ ол. Сянин мяндян, мяним дя Озандан эизли сирримiz йохдуг.

## *АЛЛАЩ ВЯ МУСА*

Муса пейьямбяр тез-тез Тури-Сяна даьына чыхыб Аллащла кялмя кясирди. Мусанын биръя арзусу варды. Ня ола, Аллащ-тяала онун евиня тяшриф эятиря, гонаьы ола, цзбяцз отуруб бу дцнйанын ишляриндян дойунъа данышалар. Мяслящят бился, чюряйиндян бир гисмят кяся. Муса щяр дяфя Аллащ-тəалайа цз тутуб дейирди: - Йа Худавянди-alәm, биръя дяфя мяним гонаьым ол!

Nәhayәt, Аллащ-тяала Мусайа гонаг олаъаьы вахты билдириг. Пейьямбяр щямин эцн бюйцк щазырлыг эюрцб плов биширмяйя башлауыг. Рлов дямя гоуулмушду. Еля бу вахт Мусанын евиня касыб, фаьыр бир дилянчи эялди. Аллащ ризасына ондан йемяк истяди. Муса гялбиндя доландырды: «Мян газанын аьзыны Аллащым эяляндя ачаъаьам». Бу сябябдян дя аъ дилянчийя пай вермяди, онун няфсини йандырды.

Муса чох эюзляди. Аллащ-тяала вядиня ямял етмяди. О, bunun sябябини юйрянмяк цчцн Тур даьына цз тутду. Аллащ-тяалайа деди:

- Ня цчцн Пейьямбяринин сюзцнц йеря салдын, гонаьым олмадын?

Аллащ-тяала билдирди:

- Мян аъ дилянчи палтарында сянин евиня гонаг эялдим. Сянся мяня бир габ хюряк вермяйиб няфсими йандырдын. Пейьямбяр Аллащын вящйлярини дцзэцн йериня йетирмяли, варлыны касыбдан, тоху аъдан цстцн тутмамалыдыр. Инсаны мян йаратмышам. Онун гуллуьунда дурмайан Пейьямбяр эцнаща батыр. Мян эцнаща батан Мусанын неъя гонаьы ола билярдим?..

## *МУСА ВЯ ФИРОН*

Фирон щюкмдар иди. О, тез-тез Муса иля щюъятляшиб дейирди:

- Аллащ йохдур! Сянин Аллащын да, пейьямбярлийин дя уйдурмадыр. Мян Фирон, йер цзцнцн щям Аллащыйам, щям дя падшащы.

Муса йолуну азмыш Фирону сусдурмаг цчцн ахырда ону сынаьа чякмяли олду:

- Эял халг гаршысында мяръляшяк. Сцбщ тездян адамлар Нил чайынын сащилиня эялсинляр. Сян дя ямр еля, мян дя. Эюряк Нил чайы кимин сюзц иля

дайанаъагдыр. Ялбяття, мяним! Чцнки мян Аллащын варлыьыны гябул едирям.

Мяръя эирян Фирон сынаьын аьырлыьыны баша дцшцр. Билир ки, ону бу биабырчылыгдан ня щюкмц, ня дя падшащлыьы гуртара билмяз, йалныз Аллащ хилас еляйя биляр. Одур ки, бцтцн эеъяни йатмады, сящяря кими айагларындан асылды вя Аллаща йалвармаьа башлады:

-Ей Аллащ-тяала, мян сяни гябул едир вя гялбян севирям. Цздя дедикляримя мящял гойма. Мяни сян дикялдиб падшащ елямисян. Юз бюйцклцйцн хатириня мяни халг гаршысында сындырма.

Аллаща инамына vә юз пейьямбярлийиня архайын олан Муса ися дуа етмядян сящяря кими сакитъя йатды.

Сящяр ъамаат топлашды. Щяр икиси Нил чайынын сащилиня эялди. Сынаq башлады. Муса ямр еляди ки, Нил чайы дайансын. Чай дайанмады. Сонра ямри Фирон тякрар еляди. Чай о саат дайанды.

Мяръдя мяьлуб олан Муса кор-пешіман Тур даьына эялди вя цзцнц Аллащ-тяалайа тутуб деди:

- Ей адына фяда олдуьум! Мян сянин пейьямбяриням, йердя елчиням. Юзцнц

Аллащ сайан Фирон ися щяр эцн йердян эюйя ох атыр. Неъя олур ки, ону ешидирсян, мяни йох.

Аллащ-тяала билдирди:

- Йа Муса, сян дуаны унудуб, пейьямбярлийиня архайын олdyn və rahatca uzanыб йатдын. Фирон ися айаьындан асылыб ахшамдан сящяря гядяр мяня йалварыб дуа еляди. Мян бу язабы, бу фярги гиймятляндирмяйя білмяздим.

## ***QIZIL BALIQ***

Dindarlar rəvayət edirlər ki, Firon özünü Allah elan edərkən xalq ona inanırmış. Guya o xalqı inandırmaq üçün göyləri ox atəşinə tutdurarmış. Bunu Firon ona görə edərmiş ki, xalq inansın ki, sehrli göylərdə Allah mövcud deyil və əgər varsa o bu top gülləsi nəticəsində mütləq ölmüşdür. Rəvayətə görə Firon bu hərəkəti həmişə, hər gün təkrar edərmiş. Bir gün güclü yağış yağarkən o yenə göyləri top atəşinə tutdurubmuş. Bu zaman çox qəribə bir möcüzə baş verib. Göydən yağışla birlikdə qırmızı balıqlar düşməyə başlayıb. Bu qırmızı balıqlar yağış selinə qarışıb çaylara, dənizlərə axıb gedir.

Xalq bu möcüzəni gördükdən sonra “Qızıl balıq” haqqında belə bir əfsanə uydurmuşlar. Guya özünü allah kimi qələmə verən Firionun atdığı güllələrdən göylər mələyi qəzəblənmiş və bu atəşin qabağını kəsmək üçün balıqlar irəli çıxmışlar. Fironun gülləsindən qanına qəltan olmuş balıqlar beləliklə yağış selinə qarışıb yerə düşürlər. Qızıl balıqların rənginin qırmızı olmasını dindarlar bu əfsanə ilə bağlayırlar.

## *ФИРОНУН АГИБЯТИ*

Йеддинъи Фирон йухуда эюрцр ки, сабащ доьулаъаг бир ушаг бюйцйцб онун башыны кясяъяк. Йуху йозанлар мяслящят билирляр ки, щямин эцн доьулаъаг оьлан ушагларыны тяляф елясинляр. Фиронун ямри иля щямин тарихдя ня гядяр ушаг доьулурса, щамысыны юлдцрцрляр. İш еля эятирир ки, щамиля олан Фиронун арвады да щямин эцн дцнйайа бир оьлан ушаьы эятирир. Бу сиррин ичиндя оланлар Фиронун оьлуна гыймыр, ону бир маьарада эизлядирляр. Фикирляширляр ки,  бирдян Фирон ямрини эери эютцряр. Онда бир эцнащкар кими онларын da бойну

вурулар. Яэяр ушаг тяляф олаъагса, гой гурд-гуш эцнащкар сайылсын.

Фиронун оьлуна аслан аналыг едир, ону ямиздирир. Илляр кечәпдян сонра оьлан Фирону юлдцрмяк фикриня дцшцр. Бу мягсядля атасынын игамятэащына йолlanır. Йолда чямян сейриня чыхан Фирон оьлу иля гаршылашыр. Оьланы эюрян кими Фиронун ъанындан бир цшцтмя кечир. Гяфилдян ушаьа щцъум edir. Юлцм-дирим дюйцшц башланыр. Дюйцшдя Фирон аьыр йаралanaraq юлцр. Зцлмкар Фиронун йериня ядалятли оьлу щакимиййят башына эялир.

## *АЛЛАЩЫ ТАНЫЙАНЫ ОД ЙАНДЫРМАЗ*

Ибращимхялил гондарма аллащлара гаршы цсйана гаlхмышды. О, уалныз щяр шейин йарадыъысы вя идаряедиъиси olan тяк Аллащы таныйырды. Чохаллащлыlıг тяряфдарлары isə ону daim тягиб едир, инъидирдиляр. Lakin, by язаблар, ишэянъяляр Ибращимхялили йолундан дюндярә bilмирди.

Бир эцн Ибращимхялил мябядя эялир. Балта иля бцт-аллащлары доьрайыб тюкцр.

Онлардан ян ири бцтц сахлайыр. Балтаны да онун чийниня гойуб арадан чыхыр. Эуйа балаъа аллащлары бюйцк бцт-аллащ о vəziyyətə салыбмыш.

Дейирлəр йер гулаглыдыr. "Аллащ гырьыныны" Ибращимхялилин тюрятдийини билирляр. Фирон бу щадисядян хябяр тутан кими Ибращимхялили йанына чаьыртдырыр вя нийя беля елямясинин сябябини сорушур. Ибращимхялил дейир:

- Балаъа аллащлары мян йох, чийниндя балта олан о ири аллащ мящв edиб.

Ибращимхялилин сюзцндян гязяблянян Фирон ямр еляйир:

- Саъын-саъын одун йыьыб тонгал йандырын. Ибращимхялили атын о тонгала, гой ъязасыны чяксин.

Ибращимхялил щяйяъан кечирян Сарайа бахыр. Архайынлыьы иля ону сакитляшдирир. Сара Фиронун баъысы олмасына бахмайараг Ибращимхялилi севирди. Пейьямбяр гцрурла диллянир:

- Мян эюйдя гярар тутмуш тяк Аллащыма инанырам. Ону таныйаны од йандырмаз. Сизи дя вахт икян бу йола дявят едирям.

Ямр йериня йетирилир. Сара йалварыр ки, ону да Ибаримхялил иля бирликдя ода атсынлар. Дилимляри булуда дяйян даиряви бир тонгал галайырлар. Яввялъя Ибращимхялили, сонра ися Сараны тонгалын ортасына атырлар. Ибращимхялил дцшян йердя йашыл чямянлик йараныр. Саранын айаьы дяйян йердян ися булаг гайнайыр.

Мюъцзяйя щейран галан Фирон бцтлярдян цз дюндяриб эюйдя олан тяк Аллащы таныйыр.

## *NUHUN GƏMİSİ*

Bir gün Nuh Allahla danışarkən ona deyir ki, millətlər məni çox incidir. İnsanların ona qarşı inamı yoxdur. O, Allahdan xahiş edir ki, mən nə edim ki, onlar məni rahat buraxsınlar? Allah deyir ki, sən get bir böyük gəmi düzəltdir. Gəmi hazır olanda mənə xəbər ver. Nuh fikirləşir ki, bu gəmiyə çox ağac lazım olacaq. Bəs onun ağacını kim gətirəcək? Bu zaman Şeytan ona xəbər verir ki, bu işi ancaq Ujmuluğ edə bilər. Onun boyu o qədər ucadır ki, gedib göyün 7-ci qatına çatır. Şeytan ona məsləhət görür ki, onu ancaq dəniz-dərya qırağında tapmaq olar.

Nuh gedib görür ki, həmin adam dəryanın qırağındadır. Əlini salır dənizə tonlarla balıq tutur, sonra onu qaldırır günün altında bişirib 1-cə dəfəyə yeyir. Peyğəmbər ona deyir ki, sənə nə verim mənə bir gəmilik ağac gətirəsən? O deyir ki, bircə dəfə qarnımı doydur, sənə bir gəmilik ağac gətirim. Peyğəmbər razı olur. Deyir sən ağacı get gətir, mən də sənə yemək hazırlayım. Ujmuluğ meşəyə gedəndən sonra Şeytan baxır ki, Nuh ona iki dənə arpa cadı bişirir. Tez qaçır Ujmuluğun yanına. Görür ki, Ujmuluğ bütün meşəni şəllənib gəlir. Ona xəbər verir ki, sən bu qədər ağacı aparırsan, o isə sənə iki cad bişirir, iki cadla sən doymazsan. Ujmuluğ silkələnib ağacın çoxunu tökür, azını isə gətirib Nuha verir. Nuh iki arpa cadını onun qabağına qoyub deyir ki, ye. Ujmuluğ cavab verir ki, bu mənim dişimin dibində qalacaq. Nuh deyir: - Sən bismillah de, ye, sonrasına baxarıq. Ujmuluğ deyir ki, mən demirəm. Nuh soruşur ki, nəyi demirsən? Ujmuluğ deyir ki, bismillahı. Elə burada o bismillahı dilinə gətirir. Nuh deyir ki, demirsən, demə, amma çörəyini ye. O, nə qədər yeyirsə bu iki cadı qurtara bilmir. Nuh deyir doydunmu? Cavab verir ki, bəli. Elə bunların da şərti doymaq idi. Gəmi düzəldilməyə başlayır.

Həmin kənddə bir qarı var imiş. O, peyğəmbərə çox inanırmış. Onun bir inəyi də vardı. O hər gün bir kasa qatıq gətirib gəminin ustasına verərmiş. Nuh ona deyir ki, dünyanın üzünü su alacaq, mən inananları da götürüb bu gəmiyə minəcəyəm. Qarı da xahiş edir ki, məni yaddan çıxarma.

Gəmi hazır oldu. Lakin camaat bu xəbəri eşidib gəmini zibilliyə çevirdi. Peyğəmbər Allaha şikayətə getdi. Ona dedi ki, gəmiyə o qədər zir-zibil töküblər ki, onu təmizləmək mümkün deyil, mən onu necə təmizləyim? Allah cavab verir ki, sənin işin yoxdur. Mən elə edəcəyəm ki, insanlar özləri həmin gəmini təmizləsinlər. Allah həmin yerin əhalisinə bir qotur xəstəliyi verir. Hamının gözü tutulur. Bir gün bir nəfər gəmiyə zibil tökəndə sürüşüb düşür gəminin içinə, onun gözü açılır. O bu əhvalatı hamıya danışır. Hamı gedib həmin gəmidəki zibildən gözlərinə sürtürlər və sağalırlar. Onlar gəmini əvvəlki kimi təmizləyirlər. Peyğəmbər allaha xəbər verir ki, gəmi hazırdır. Allah ona tapşırır ki, get sənə inananları və bütün heyvanlardan hər iki cinsdən gətir qoy gəmiyə və onların 40 illik azuqəsini də götür. Sonra mənə yenə xəbər ver. Nuh bütün bunları eləyir, lakin qarı yaddan çıxır. Dünyanın üzünü su alır. 40 il

gəmi qalır suyun üzərində, 40 ildən sonra su çəkilir. Gəmi bu zaman Türkiyədə olan Ağrı dağına ilişib durur. Camaat gəmidən düşəndə həmin qarı əlində bir kasa qatıq böyürdən çıxıb Nuhdan xahiş edir ki, onu yaddan çıxartmasın. Peyğəmbər buna təəccüblənib deyir ki, ay qarı, bəs sən dünyada heç su-zad görmədin? O deyir ki, mən heç nə görmədim, lakin inəyim həmişə yaş gəlirdi.

Rəvayətə görə o gəmidəki heyvanlardan, qurddan, quşdan indiki bu cəmiyyət yaranmışdır. Həmin qarı da cənnətlikdir. Rəvayətə görə həmin gəminin müəyyən nişanələri Türkiyə ilə Naxçıvan arasındakı Ağrı dağındadır. Onun yanına heç nə gedə bilmir. Nə qədər gedirlərsə, axşam olur, ancaq yenə dağın ətəyindədirlər.

## *DAVUD PEYĞƏMBƏR*

Davud peyğəmbərin Əminəxatun adında gözəl bir yarı var idi. Allah-təala Davud peyğəmbərə on iki oğul vermişdir. Davud peyğəmbər oğlanları ilə fəxr edirdi. Onların evi güllü-çiçəkli dərya kənarında idi. Bu ailə xoş günlər keçirirdi. Bir gün şeytan Davud peyğəmbərlə Allahın arasına girir: “Ey Allah, məni də sən yaratmısan,

amma mənə heç nə verməmisən. Dünyada yaxşı nə varsa hamısını Davud peyğəmbərə vermisən. 12 oğlu, gözəl ailəsi, yarı, qoyun sürüsü, at ilxısı, dəvə karvanı, nə lazımdırsa hər şeyi var. Ona görə o sənə şükür edir. Onun oğlanlarını əlindən al, gör sənə şükür edirmi? – söyləyir.

Allah-təala əvvəlcə Davud peyğəmbərin oğlanlarını əlindən alır. Biri dənizdə batır, biri atdan yıxılıb ölür. Davud peyğəmbərin oğlanları üç günün içində yox olurlar. Amma Peyğəmbər Allahından dönmür. Sonra Allah onun varidatını əlindən alır. Yenə də Davud peyğəmbər "Şükür Allah" - sözünü ağzından yerə qoymur. "Şükürlər olsun Allaha, verən də özüdür, alan da özüdür" - deyir. Şeytan bu şeylərə çox sevinir. Lakin sevincini gizlədib Allaha deyir: "Allah Davud peyğəmbərin oğlanlarını əlindən aldın, amma onun hələ evi də var, arvadı da" – deyə şeytan paxıllıq edir. Davud peyğəmbərin evini külək uçurur, canına qurd düşür. Ər-arvad uçuq evin bir küncündə yaşayırlar. Sonra cəzirənin düzündə səmum yeli əsir Davud peyğəmbəri və Əminəxatunu götürüb bir neçə metrlərlə uzaqlara tullayır və onlar bəri-biyabanda əkilmiş tütün sahəsinə düşürlər. Səhər külək kəsir, günəş hər tərəfi işıqlandırır. Əminəxatun "görən peyğəmbər harada qaldı" – deyə, ərini axtarmağa başlayır. O, bir

tütünlük sahəsində Davud peyğəmbəri tapır. Əminəxatun Davud peyğəmbəri saçları ilə kürəyinə bağlayır və bir düzəngaha çıxarır. Tütünün iyinə peyğəmbərin bədənindəki qurdlar tökülmüşdü. Əminəxatun qarğıdan bir mərək düzəldir və mərəyin içərisinə ot döşəyir. Davud peyğəmbər yenə də "Allah sənə şükür", deyir. İndi yemək lazımdır. Əminəxatun yaxın kəndlərə gedir, paltar yuyur, qab yuyur, axşama bir tikə yemək gətirir. Peyğəmbər yavaş-yavaş yaxşılaşır.

Bir neçə gün Əminəxatun iş tapmır, buna görə də peyğəmbərin üzünə çıxa bilmir. O, yenə kəndə iş dalınca gedir. Yolda əlində çörək bir kişi durmuşdu. Gəlin yalvarır ki, çörəkdən bir tikə mənə ver. Həmin şəxs qarşılığında onun hörüyünün birini istəyir. Əminəxatun əlacsız qalıb hörüyünün birini qayçı ilə kəsib ona verir. Bu kişi şeytan idi. O, Əminəxatuna çörək vermir və ondan qabaq qaçıb peyğəmbərin yanına gəlir. Arvadının saçını ona göstərir. Peyğəmbər çox hirslənir. Əminəxatunun hər tərəfində səkkiz hörüyü var idi. Az sonra Əminəxatun evə qayıdır və peyğəmbərə yemək gətirir. O yemir və deyir:

- Axırıncı dəfə başını aç, qoy saçlarına baxım". Əminəxatun başını açır, onun hörüyünün birini görməyən peyğəmbər çox qəzəblənir. Əminəxatun:

- Ey göylər, ey yerlər, şahid olun, mənim günahım yoxdur - deyir. Bu zaman peyğəmbər bıçağı götürüb Əminəxatuna atır, bıçaq bir şam ağacına dəyir. Ağac yaralanır. Ağaclardakı yarıq həmin bıçağın yeridir.

Allah-təala bir gün Cəbrayıl peyğəmbəri Davud peyğəmbərlə Əminəxatunun yanına göndərir: "Get gör onlar nəyə şükür edirlər, oğlanlarını əllərindən aldım, varlarını aldım, evləri yox, eşikləri yox". Cəbrayıl Davud peyğəmbərin yanına gəlir. Onların Allahdan nə istədiyini soruşur. Onlar Cəbrayıla deyirlər ki, get sabah gəl, sənə deyərik, nə istəyirik. Onu da deyək ki, Davud peyğəmbərlə Əminə xatun artıq doxsan yaşı haqlamışlar.

Sabah açılır, Cəbrayıl gəlir və onların nə istədiyini soruşur. Onlar  deyir ki, get Allah-təalaya de ki, bizə bir oğul versin, pir oğul versin" - deyirlər.  Cəbrayıl gülür və göylərə çıxır. Allaha deyir ki, Allahım, onlar səndən bir oğul istəyirlər, pir oğul istəyirlər. Bu söz Allahın xoşuna gəlir. Deyir ki, get onlara de ki, bir oğul verdim. Pir oğul verdim. Adını Süleyman peyğəmbər qoydum və ona üç yüz il ömür verdim. Göydə quşların, yerdə heyvanların, dəryada balıqların dilini biləcək. Cəbrayıl aşağı enir, Allahın söhbətini onlara deyir. Belə baxanda görür ki, pey-

ğəmbər 19 yaşında, Əminəxatun 18 yaşında olub. Beləcə onların bir oğlu olur. Adını Süleyman peyğəmbər qoyurlar. Süleyman peyğəmbər göydə quşların, yerdə heyvanların, dəryada balıqların dilini bilirdi. Üç yüz il ömür sürür. Ata-ana ona baxıb fəxr edir. Bu dünya gəlimli-gedimli dünyadır. Atalar deyib ki, Süleyman peyğəmbərə qalmayan dünya, heç kimə qalmayacaq.

## *"AHU"- NU BALASINA YETİRƏN*

Məhəmməd Peyğəmbər məsciddə oturub nəsihət eyləyirdi. Onun yanında Həzrət Əli, Həzrət Abbas və başqaları var idi. Bu vaxt görürlər ki, 40 atlı gəlir. Atın birinə bir Ahunu (ceyran) kəndir ilə sarıyıblar.

Atlılar məscidin qapısına yaxınlaşıb deyirlər:

- Hanı o Məhəmməd, hanı o Məhəmməd? Əgər o haqq peyğəmbərdisə gəlib bu ceyranı buradan azdırsın.

Deməli, bu 40 atlı yəhudi tayfasındandır və onların fikri Məhəmməd peyğəmbəri öldürməkdir. Bu vaxt Məhəmməd peyğəmbər qabağa keçir və deyir:

- Siz o ceyranı açıb buraxın.

- Yox biz onu buraxmarıq, qaçar.

Məhəmməd Peyğəmbər deyir:

-Yox siz ahunu buraxın, əgər qaçsa mənim boynumu vurun.

Onlar elə bildilər ki, ceyranı buraxan kimi qaçacaq. Onlar da peyğəmbərin boynunu vuracaqlar. Buna görə də ceyranı açırlar. Ancaq ceyran qaçmır və dilə gəlib deyir ki, mənim balalarım var. İndi onlar acdırlar, izin verin gedib onları tapıb, əmizdirib gəlim. Məhəmməd peyğəmbər ceyrana deyir ki, gün-günorta yerinə çatanda burada ol. Demək ceyran o vaxtadək qayıtmasa peyğəmbər öldürüləcəkdi. Nəhayət ceyran gedir və balalarını tapır, əmizdirib deyir: -

-İndi siz burada durun mən peyğəmbərə söz vermişəm, sözümə yalan çıxmayım.

Ceyran qayıdıb gəlir. Ancaq bu vaxt gün azacıq günortadan keçmiş olur. Peyğəmbər əl qaldırıb deyir ki, “Ya Allah, ceyran gəlib çıxdı. Yəhudilər görürlər ki, gün həqiqətən də günorta yerindədir. Odur ki, hamısı dönüb İslam dinini qəbul edirlər.

## *MƏHƏMMƏD PEYĞƏMBƏRİN HEKAYƏTİ*

Rəvayətə görə, dünyada bir çox ədalətsizliyin şahidi olan Məhəmməd Peyğəmbər Allaha üzünü tutub deyir: - Ey qadir Allah, sən həmişə öz peyğəmbərlərinə düzlük öyrədirsən. Ey yeri-göyü yaradan, axı bu ədalət və düzlükdən adamların xəbəri yoxdur. Bu vaxt Allah cavab verir: - İndi ki, sən haqqa inanmırsan, gördüyün o çayın qırağına get, çıx ağaca, ancaq nə görsən danışma.

Peyğəmbər razılaşır, həmin yerə gedir. Çox keçmir bir bazburutlu bir pəhləvan gəlir. Qızıl kəmərini və başqa yaraq-yasağını soyunub suya girir. Peyğəmbər dinməz-söyləməz çimən pəhləvana baxır. Elə bu zaman balaca bir uşaq gəlir və başlayır yaraq-yasaqla oynamağa. Gedəndə isə qızıl kəməri sürüyüb aparır. Məhəmməd Peyğəmbər istəyir dillənsin, Allahın sözü yadına düşür.Az keçir, çox keçir, görür ikinci bir pəhləvan da gəlir. Bu pəhləvanın da belində qiymətli kəmər var. O da soyunub çimməyə başlayır. Peyğəmbər oturub işin axırını gözləyir. Elə ki, pəhləvanlar sudan çıxırlar, başlayırlar kəmər üstündə dalaşmağa. Peyğəmbər istəyir ki, dillənsin, yenə də səbrini basır. İkinci pəhləvan nə qədər and-aman edirsə, kəməri oğurlanan inanmır. Hirslənmiş pəhləvan onu vurub öldürür.

Oradan uzaqlaşan peyğəmbər deyir: - Ey Allah, mən burada haqq-ədalətdən bir əsər-əlamət görmədim. Allah cavab verir: - Gördüyün bu hadisə tamamilə haqqında oldu. Bax o ölən pəhləvan o uşağın atasını öldürüb kəməri almışdı. Uşaq isə təsadüfən kəməri xoşlayıb götürdü. Həmin kəmərin üstündə ikinci pəhləvan birincini öldürdü.

## *VEYİS BABA*

Deyilənə görə, Məhəmməd Peyğəmbər öləndə deyir ki, mənim paltarımı Veyis adlı bir adama verərsiniz. Tapa bilsinlər deyə onun nişanəsini də deyir. O, dağın arxasında yaşayır. Sağ əlinin içərisində yumurta boyda güzgü var ki, həmin əlini daim bağlayır.

Adamlar çox gəzirlər, nəhayət onu tapırlar. Veyis əvvəlcə paltarı götürmək istəmir. Lakin Məhəmməd peyğəmbərin paltarının təkcə Veyisə layiq olduğunu söyləyəndən sonra götürür. O, içəri girir onlardan gözləməyi xahiş edir. O, içəridə iki dəfə namaz qılır və günahları bağışladır, üçüncü dəfə namaz qılanda adamlar içəri girib deyirlər:

- Bəs biz səni gözləmirikmi? Kaş bir az gec gələydiniz, onda bütün günahları bağışladardım.

Deyilənə görə Veyis vəfat edəndə onun tabutunun üstündə yəmənlilər və buradakılar dava salırlar. Bir ağsaqqal kişi gecə iki tabut bəzəyir, ikisi də bir boyda, bir rəngdə. Səhər adamların hər dəstəsi tabutun birini götürür. Dolu tabut buradakılara düşür. Onu Ağdaş rayonunun Seyidlər kəndində dəfn edirlər. Deyilənlərə görə namaz qılmaq üçün lazım olan təsbeh onun dişlərindən qayrılmışdı.

## *CƏNAB ƏLİ*

Keçmişdə bir pəhləvan var idi. Atının adı Düldül, qılıncının adı Zülfüqar idi. O, hər gün Düldülü minib günçıxanla günbatan arasını gəzərmiş. Deyilənlərə görə bir dəfə Düldül Allaha şikayət edir ki, Cənab Əli məni incidir, deyir ki, tez evə çatmalısan.

Allahdan Əliyə soraq gəlir ki, Ya Cənab Əli Düldülü incitmə. Cənab Əli deyir ki, heç yerdə şenlik yoxdur, harada qalım?. Allah deyir: - Elə xarabalıqda qal. Düldül ilə gedib bir qəbirstanlığa çıxır. Ə Abdulla - deyə çağırır.

Qəflətən qapı açılır, bir oğlan çıxır və qonağı evə aparır. Evdə heç kəs yox idi, yalnız bir donuz bağlanmışdı. Cənab Əli deyir: Bu sirr nədir? Deməsən mən çörək yeməyəcəyəm. Oğlan deyir ki, o mənim anamdır. İşıqlı dünyada o, qonaq sevməzdi.  İndi bu dünyada Allah onu donuz edib məni isə adam.

Cənab Əli namaz qılır. Donuz olur insan. Qarı gözünü açır ki, yenə qonaq var. Qarı donquldanır ki, oğlum məni yenə bezdirir, elə həmişə qonaq, bu nədir?. Cənab Əli yenə namaz qılır qarı donuz olur. Yeyib-içib yatırlar. Əli yuxuda görür ki, bir ilan oğlanın barmağını sorur. O, ilandan soruşur ki, bu nə sirdir?. Oğlan deyir: - İşıqlı dünyada mən bir qonağa dedim ki, get o biri qonşuda qal, elə ondan sonra bu ilan məndən əl çəkmir. Cənabəli ilana deyir: - Allahın heyvanı, bu oğlandan əl çək”. İlan əl çəkir.

Cənab Əli isə gedir.

## *COMƏRDİ QƏSSAB VƏ HƏZRƏTİ-ƏLİ*

Comərdi Qəssab Gəncə şəhərində yaşayırdı. Onun İmamzadəyə yaxın yerdə bir qəssab dükanı vardı. Comərdi Qəssab  Həzrət Əlini çox

sevirdi və Həzrəti Əli Əlehysəlamı görmək eşqi ilə yaşayırdı. O, ət kəsib satdığı vaxt deyirdi:

- Əti çəkmək istəyəndə Əli eşqinə almaram, verməərəm.

Yəni tərəziyə nə qədər ət qoysa, o da düzgün gələrdi. O vaxtlar ət girvənkə ilə satılırdı. O, düzgün və rəhmli bir insan idi. Comərdi Qəssab bilirdi ki, Həzrəti Əli şəhərdədir. O, çox çalışırdı ki, Həzrət Əlini görsün. Bu Həzrəti Əliyə agah idi.

Bir gün Həzrəti Əli Əlehysəlam bir dostu ilə bərabər səyahətə çıxır. Onlar şəhərin qırağına çatanda qaranlıq düşür.  Bir qapını döyürlər və ev sahibindən bir gecəliyə yer verməyi xahiş edirlər. Bu ev Comərdi Qəssabın evi idi.

Comərdi Qəssab qonaqlara evində yer verir. Onlarla söhbət edir və onlara yaxşı süfrə açır. Bu süfrəyə Comərdi Qəssabın 15-16 yaşlı oğlu qulluq edir.

O vaxt Gəncə şəhərində yəhudilər də yaşayırdı. Onların özlərinin padşahı vardı. Padşahın oğlu xəstələnmişdi. Uşaq sağalmırdı. Münəccimlər padşaha dedilər ki, sənin oğlunun sağalması üçün ancaq Comərdi Qəssabın oğlunun qanı  dərmandır. Bu zaman padşah qoşun böyüyünü çağırır, bir dəstə adamla Comərdi qəssabın qapısına göndərir. Comərdi Qəssab qapıya çıxır.

Qoşun başçısı bu acı xəbəri ona çatdırır. Onsuz da qoşun başçısı zorla da olsa uşağı aparacaqdı. Evdə qonaqlar var, bu hadisəni qoy onlar bilməsin. Qəssab oğlunu o bir otağa çağırır və onun başını kəsir, qanını bir şüşəyə yığıb qoşun başçısına verir. Onlar gedirlər. Comərdi Qəssab uşağın başını bədəninə bitişik qoyur və üzünü örtür. Sonra əlini yuyur, gəlib qonaqlarla heç bir şey olmamış kimi söhbətini davam etdirir. Bu işlər Həzrəti Əliyə agah idi.

Səhər açılır. Qonaqlar dururlar. Səhər naharını eyləyirlər. Sonra getmək istədiklərini Comərdi Qəssaba bildirirlər.

Həzrəti Əli Əlehsəlam axşam onlara qulluq eyləyən uşağı görmək istədiyini bildirir.

Comərdi Qəssab deyir:

-Uşaq qoyunları otarmağa gedib.

Həzrəti Əli deyir:

-Mən uşağı görməsəm, gedən deyiləm.

Bu zaman Comərdi qəssab məcbur olur və oğlunun qanının padşahının oğluna dərman olduğunu söyləyir.

Həzrəti Əli Əlehsəlam deyir:

-Uşağın meyiti haradadır?

Comərdi qəssab qonağı oğlunun nəşi olan otağa gətirir. Əli Əlehsəlam iki rükət sübh namazı qılır və uşağın bədənini başına bitişdirir.

Ağzından əlinə tüpürcək götürüb uşağın boğazına çəkir. Bu zaman uşaq asqırıb ayılır. Comərdi Qəssab qonağın ətəyindən yapışır.

- Fəda olum sənə, sən kimsən?.. Mənim oğlumu təzədən həyata qaytardın, ona həyat verdin, can verdin, ömür verdin, gün verdin.

Qonaq deyir:

-Mən Həzrəti-Əli Əlehsəlamam.

Comərdi Qəssab əl çəkmir:

- Mən sənə ürəyim istəyən kimi qonaqlıq verməmişəm, səni tanımamışam, bu gün qal, mən Gəncə camaatını yığıb, sənə yaxşı bir qonaqlıq verərəm.

Həzrəti-Əli deyir:

- İndi səfərə gedirəm, yol üstəyəm. Səfərdən qayıdanda sizə gələrəm.

Onlar bazar gününə vaxt təyin edirlər. Comərdi Qəssab şəhərin sayılan adamlarına xəbər verir.

Nəhayət bazar günü yetişir. Qoyunlar kəsilir, plovlar dəmlənir. Aşbazlar nə lazımdır bişirirlər. Süfrələr bəzənir. Xanlar, bəylər, ağalar bir sözlə, bütün Gəncə camaatı hamısı Comərdi Qəssabın həyətinə yığışıb, Həzrəti-Əlinin yolunu gözləyirlər. Bu zaman Comərdi qəssabın qapısına bir dilənçi gəlir. Əyninə köhnə paltar geyinib, boğazının altından da şal bağlayıb: -

Mənə kömək edin, yoldaşım xəstədir, bu xörəklərin iyi onu vurur. Əli eşqinə bu yeməklərdən pay verin.

Bu vaxtı Comərdi Qəssab deyir:

- Bizim əziz qonağımız var. O gəlməsə, qazanın ağzı açılmayacaq. Sən gözlə, qoy qonağımız gəlsin, qazanın ağzı açılsın, sonra nə qədər yemək lazımdır verərik.

Qapıya gələn adam kor-peşiman geri qayıdır.

Qonaqlar gözləyirlər. Vaxt keçir, səbrlər tükənir. Saat 2-i tamam olur, Həzrəti-Əli gəlmir. Bu zaman Comərdi Qəssab Həzrəti-Əlini səsləyir.

Həzrəti-Əli Əlehsəlam uca səslə cavab verir:

- Ey Comərdi Qəssab, mən gəlmişdim, sən vermədin.

Demək qapıya sayıl-yəni dilənçi paltarında gələn Həzrəti-Əli Əlehsəlam imiş. Comərdi Qəssab və qonaqlar çox peşiman olurlar.

## *CƏNAB ƏLİ VƏ SALSAL*

Cənab Əli şiələrin pəhləvanı olur. Salsal isə bütpərəstlərin. Camaat Cənab Əliyə inanırmış. Salsal da camaatı özünə tərəf çəkmək istəyirmiş. O, insanları itaətdə saxlamaq üçün onları bir-bir qılıncdan keçirirmiş. Cənab Əli bunları eşidib Salsalın hüzuruna gəlir və deyir: - Camaatı niyə qırırsan? Mən Əliyəm, gəlmişəm ki, sən də öz pəhləvanlığını göstərəsən, mən də. Kim qalib gələrsə camaat da onun sözünü eşidib, qanunlarını işlədər. Silahını götür. Mən birinci fürsəti sənə verirəm.

Salsal bir yekə dəyirman daşını götürür, əlinə qaldırıb Əlinin başından vurmaq istəyəndə Cənab Əli altından sıçrayıb geri yola düşür. Salsal daşın endiyi yeri axtarır ki, görüm Əlinin meyiti haradadır. Ancaq onu tapa bilmir.

Bunu görən Cənab Əli deyir:

- Ay kafir, məni yerdə axtarma mən geri yanında durmuşam.

Salsal geri baxanda görür ki, Əli geri yanında durubdu.

Əli deyir:

- Ay kafir, indi fürsət mənimdi, sən gözlə.

Salsal Cənab Əliylə tutaşır. Cənab Əli Salsalın ayağından tutub elə atır ki, gedib Şah dağının başına düşüb, yerə batır və orada da ölür.

Cənab Əli Salsalı atandan sonra atını minib Zəyəm dərəsi ilə yuxarı gedir.

Əhali susuz qalmışdı. Cənab Əli bir qayanın yanına gəlir və qılıncını çıxarıb: - Ey ilahi! Su - deyərək qılıncı ilə qayanın başından vurur. Qaya 2 bölünür və oradan bulaq çıxır. Hamı su içir. İndi o su olan yerə camaat ocaq deyir, aparıb orada qurban kəsirlər.

## *DÜLDÜL AYAĞI*

Peyğəmbərimizin yel atının ayağında düldül varıymış. Həmin at Seyfəlidən keçəndə ayağının izi ora düşmüşdü. Həmin yer peyğəmbərin atının izi olduğuna görə hər il camaat ora nəzir, niyaz aparır. Həmin yer ocaq sayılır.

## *DÜLDÜLÜN İZİ*

Tovuz rayonunun Ağbulaq kəndindən bir qədər yuxarıya gedəndə bir atın izi vardır. Deyilənə görə dünyada ən qüvvətli pəhləvan Salsal imiş. Bir gün Salsal Cənab Əlini döyüşə çağırır. Allahın da ən qüvvətli pəhləvanı Əli

imiş. Cənab Əlinin atının adı Düldül imiş. O, elə bir at imiş qaçanda ayağı yerə dəyməzmiş.

Cənab Əli Salsal ilə döyüşə gedir. Bu vaxt onun yolu Ağbulaqdan düşür. Ağbulaq da qayalı yerdir. Necə olursa atın ayağı daşa toxunur. Atın ayağı dəyən yer çökəlir. Elə o vaxtdan atın ayağı dəyən yerə Düldülün izi deyirlər. Oradan keçən adamlar atın nalının izinin qırağına hər bir daş düzürlər.

Nəhayət, Cənab Əli Salsalla görüşür və onun ortasından tutaraq onu yerə elə vurur ki, Salsal ortasına qədər torpağa batır. Bir daha Salsal Cənab Əli ilə görüşmək istəmir. Heç vaxt da görüşmür.

## *HAÇA QAYA*

Cənab Əli Tovuz rayonunun Şamlıq kəndini gəzməyə gedərkən yolda böyük bir qayaya rast gəlir. Buradan keçə bilmir və qılıncını sınamaq məqsədilə qayaya bir qılınc vurur. Qaya iki hissəyə bölünür. Cənab Əli qayanın ortasından keçib gedir.

Cənab Əli Allah adamı olduğu üçün həmin Haçaqayanı ocaq hesab edirlər.

## *SALSAL QALASI*

Arpa çayı boyunca Dərələyəzə doğru şütüyən maşınlar əvvəlcə Ələyəz kəndindən keçməli olur. Kəndə bir kilometr qalmış çayın sol sahilində cəmisi otuz metr hündürlüyündə sıra ilə düzülmüş sərt qayalıqlar yerləşir. Bu qayalıqlar kənardan baxanda sanki kəmərə oxşayır. Qayaların başında əzəmətli qala divarları ucalır. Bu qala Arpa çayının sağ sahilində yerləşən Təkədonduran dağı ilə qarşı-qarşıyadır. Qala ilə dağın arasında çayın sol sahilində vaxtı ilə şəhər olmuş indi isə xarabalıqlardan ibarət Hostun şəhərinin izləri durur. Hər tərəfi sərt qayalıqlardan ibarət olan bu qalaya yalnız bir dolama cığır vardır. Qalanın hər tərəfdən əhatə edilmiş divarları qayanın öz daşından yonulub hörülmüşdür. Ümumiyyətlə, divarın hansı palçıqla hörülməsi məlum deyil. Qalanın yalnız bir darvazası var. Əlbəttə, o da dağılıb xarab olmuşdur. Qalanın həyəti üç km. yaxındır. Bu həyətdə Salsal pəhləvanın qoşununun atları üçün daş axurlar vardır. Qalanın mərkəzi hissəsindən axan su 150 metr aşağıda axan Arpa çayından saxsı borular vasitəsilə çəkilibmiş. Bəzi rəvayətə görə isə

qalaya su təxminən 5000 metr uzaqda olan Qara şum dağındakı bulaqdan çəkilmişdir. Qalanın daxilində bir neçə gözdən ibarət pəncərəsiz daş kahıya bənzər evlər vardır. Rəvayətlərə görə buraya əsirləri qatırmışlar. İndi də kahalarda qapı astanalarının izləri açıq bilinir. Qalanın baş tərəfində sərkərdə üçün gözəl daşla hörülmüş çox da böyük olmayan bəzəksiz bir bina yerləşir. Binanın daxilində heç bir abidəyə rast gəlmirsən, qalanın aşağı hissəsində heç bir deşik yoxdur. Baş hissəsi qırçınlı daşlarla hörülmüşdür. Qalanın hər tərəfində keşikçilər üçün yer vardır. Rəvayətə görə Salsal pəhləvan öz qoşunu ilə bu qalada müdafiə olunurmuş. Qalanın daxilində heç bir sümük, saxsı və başqa qırıntılara rast gəlmirsən. Qalada heç bir yazılı abidə və yaxud işarələr yoxdur, əgər varsa da daşlar büsbütün mamırla örtülmüşdür.

Söylənilən rəvayətə görə burada Salsal pəhləvanla Əli vuruşmuşdu. Salsal pəhləvan hər zaman Əlini izləyirmiş. Bir gün Əli namaz qıldığı vaxt Salsal pəhləvan ona böyük bir qaya tullayır. Əli həmin qayanı yerindən qalxmadan sağ əli ilə tutub ehmalca yerə qoyur. Həmin daş yolun sol sahilində bir abidə kimi saxlanılır. Daşda sağ əlin beş barmağının beşinin də açıq-aydın izləri vardır. Daşa baxanda əfsanə də olsa

inanırsan. Çünki, daşda barmaqlarla birlikdə əlin pəncəsi də yerləşmişdir. Rəvayətə görə Əli neçə vaxt Hostun şəhərində qalmış, qalaya dəfələrlə hücum etmiş, ancaq qalanı ala bilməmişdir. Hətta onlar qalaya gedən su kəmərinin hansı tərəfdən gəldiyini belə uzun müddət axtarıb tapa bilməmişlər.

Hadisələrin sonrası haqqında heç bir rəvayət yoxdur. Yalnız bu məlumdur ki, həmin Hostun kəndi sonralar zəlzələ nəticəsində xarabalığa çevrilmişdir.

## *АЛДЯДЯНИН ШЦМШАД ЯСАСЫ*

Баьдад хялифясиnin Алдядянин мюъцзələrindən дя, онун дюрд даьа атдыьы аьаълардан da хошу эялмирdi. Одур ки, кичик бир гошун дцзялдиб Алдядянин цстцня эюндярир вя дейир:

- Алдядя бу аьаъларла bizə юз вятянинин щяддини эюстяриб. Онун мюъцзяси öz доьма торпаьында щейрятлидир. Торпаq вятяня чевриляндя щяр ъцр мюъцзя, щцняр эюзлямяк олар. Ня олар, бизим дя юз тядбиримиз вар. Бир ан да эеъикмядян атланарсыныз. Гой одлар дийарынын зяриф

чичякляри яряб атларынын гцввятли айаглары алтында тапдансын. Алдядяни тапыб яввялъя баша саларсыныз ки, о эяздийи торпаьын щавасыны мян удмалыйам, дурна эюзлц булагларын суйу мяним цряйимі сяринлятмялидир, мин няьмяли гушлары мяним цчцн охумалыдыр. Ялляриндян бярякят йаьан ряиййятиня мян щюкмран олмалыйам. Сонра isə юзцнц аман ешитмядян гылынъдан кечирярсиниз.

Гошун чох эязиб, чох доланыр. Нящайят, яли шцмшад ясалы Алдядяни Гызылгайада тапырлар. Сяркярдя Баьдад хялифясинин эюстяриши иля щярякят едир:

- Хялифя сянин вятяниня ямр едир ки hər şeyin mənim olmalıdır.

Шцмшад ясасына сюйкянян Алдядя мяналы, истещзалы эцлцшля сяркярдянин сюзцнц кясир:

- Вятяня ямр етмирляр, Вятяn ямр едир.

Алдядянин сюзцндян юзцнц итирян сяркярдя давам едир:

- Хялифя дейир ки, Алдядя эязян торпаьын эюзяллярини сарайыма, иэидлярини гошунума гатаъам.

- Эцъц чатмаз!

Хялифяnin sərkərdəsi дейир:

- Алдядя эязян торпаьын суйу мяним сящянэимя долаъаг, сярвяти мяним хязинямдя парлайаъаг.

- Эцъц чатмаз!

Хялифяnin sərkərdəsi дейир:

- Алдядя эязян торпаьын эцлц-чичяйи, дярин дяряляри, уъа даьлары, дашлары mənimdir.

Алдядя ясяби щалда шцмшад ясасыны ойнадыр.

- Дедим ки, эцъц чатмаз!

Сяркярдя тяяъцблянир:

- Неъя эцъц чатмаз? Щансына чатмаз?

- Щеч бириня.

- Йяни дцнйанын сащиби олан бюйцк, гцдрятли бир хялифянин неъя олду ки, Одлар йурдунун адиъя гара дашына эцъц чатмаsın? Бу ки, аьласыьмаздыр.

- Бяли, мяним адиъя гара дашым, сянин щейбятли хялифяндян гаt-гат эцълцдцр, гцдрятлидир.

- Инанмырам.

- Инди эюр, инан вя бу щикмяти, бу мюъцзяни хялифяня чатдыр - дейя Алдядя ялиндяки шцмшаd ясаны даша вурур, яса дюнцб бир гызыл илан олур. Илан саьдан дцшцб солдан чыхыр, солдан дцшцб саьдан

Elə həmin vaxtdan da dağın adını "Keyti və Mehdi" qoyurlar. Bu əfsanə xalqın dilində dolaşıb yaşayır.

## *BEŞİKLİ DAĞ*

Dağlar haqqında insanlar qəribə rəvayət və əfsanələr uydurmuşlar. Bəzən bu əfsanə və rəvayətlər dağların həmişəlik tarixinə çevrilib. Belə dağlardan biri də Azərbaycanın şimal-qərbində yerləşən "Beşikli dağ"dır. Bu dağın özünə məxsus görkəmi var. "Beşikli dağ"ın sinəsində əsrlərdən yadigar qalan qəribə tarixi abidələr və daş dövrünün əsrarəngiz sənət əsərləri vardır. Burada möcüzəli bir əsrin ölməz xatirə ansanblı yaşayır. Çoban öz çomağına söykənərək qarşısında otlayan sürüsünə baxır. Bozdar isə öz sahibinin ayaqları altında xoşallanır. Beli yəhərli kəhər at isə çəmənlikdə otlayır. Bir az aralıda ağsaçlı ana beşik başında

öz körpəsini yırğalayır. Bəli, "Beşikli dağ"ın incəsənət təsviri belə başlayır. Xalq isə bu sehirli dağın haqqında çox qəribə bir əfsanə uydurmuşdur. Rəvayətə görə bu dağın qoynunda kiçik bir qəbilə yaşayırmış. Günlərin bir günü körpəsini yatızdıran ana görür ki, qəbiləyə tərəf düşmən qoşunu gəlməkdədir. Bundan qorxan ana Allahdan kömək diləyir. O, əllərini göylərə açaraq yalvarır ki, bu dəhşətdən xilas olmaq üçün Allah onu ya daş, ya da quş eləsin! Guya, Allah ananın səsini eşidir, lakin onu quş deyil, bütün qəbilə ilə birlikdə daş abidəyə, heykələ çevirir. O gündən etibarən həmin dağın adı "Beşikli dağ" qalıb.

## *QIZLAR QALASI DAĞI*

Qədim şərq aləmində, o cümlədən Odlar diyarı Azərbaycanda yadelli işğalçılardan qorunmaq üçün bir çox qalalar tikilmişdir. Belə qalalardan biri də Qutqaşen rayonunun Yenkicə kəndi yaxınlığındakı Qızlar qalası dağındakı abidədir. Bu qala haqqında çoxlu rəvayət danışırlar. Bu rəvayətlərdən birində deyilir ki, guya Yenkicə kəndində qoca bir kişi cümə günü

dağın zirvəsinə qalxanda böyük bir boşluq görür. Deyilənlərə görə kişi səhər yenə həmin dağa qalxır, ancaq boşluğun yerini tapa bilmir. Bu minvalla hər gün həmin yerə gəlir, ancaq görür ki, boşluq yoxdur, çox təəccüb edir. Nəhayət boşluğun cümə günü açıldığını görür. O, boşluqdan içəri girir və pillələrlə aşağı enməyə başlayır. Xəzinə ilə dolu olan saraya rast gəlir. Qocanı dəhşət bürüyür, həm də sevinir. Istənilən qədər daş-qaşdan götürüb tələsik geri qayıdır. Ancaq həmin boşluğun bağlı olduğunu görür və bu anda çoxlu qız səsləri eşidir:

- Götürdüklərini apar yerinə qoy, gəl, çıx get".

O, sehirli əmrləri yerinə yetirir, və həmin anda boşluğun ağzı açılır.

Qızlar qalasından çıxandan sonra qoca uzun müddət xəstə yatır və öz-özünə söz verir ki, bir də heç vaxt acgözlük və tamahkarlıq etməsin.

## *BAŞI KƏSİK TƏPƏSİ*

Ağdam rayonunun Əhmədavar kəndində bir təpə var, ona "Başı kəsik" deyirlər. Rəvayətə görə bir padşahın övlad sarıdan bircə qızı var imiş. Bu qız nişanlanır, lakin nişandan sonra xəstələnib ölür. Padşah qızının nə qədər nişan qızılı var idisə hamısını qızıyla birgə həmin təpədə dəfn edir. Qəbrinin üstündə künbəz tikdirir, elə həmin vaxtdan o təpəyə "Başı kəsik" təpəsi deyirlər.

## *ÇİLƏ DAĞI*

Ay oğul, bizim bu kəndimiz otuz doqquz gün mühasirədə qalandan sonra uzaq bir məmləkətdən qoşun çəkib gəlmiş bir şahla vuruşmağa başladı. Qırxıncı gün şahın pəhləvan oğlu Əflan 500 nəfər seçmə pəhləvanlarla hasarın bir tərəfindən hücüm eyləyib kəndə girdi. Onun da dalınca bütün qoşun yol tapıb kəndə doldu. Nə isə bu şahın bizim kəndimizdə gözü var idi. Camaat da öz doğma kəndlərindən çıxmaq istəmirdi.

Camaat tərəfindən təklifi rədd edilmiş şah vəziri Səftəri çağırıb heç kimə aman verməməyi əmr etdi.

Səftər uşaqlı-böyüklü hər kəsi qılıncdan keçirir.

Sonra şah kəndin kənarında yaşıl təpənin üstündə çadır qurdurur. Üç gün, üç gecə şadyanalıq etmək üçün qoşun əhlinə əmr edir. Beləcə şərablar gətirildi, badələr doldu, erkəklər kəsildi. Qızlar bir tərəfdə oynayır, aşıqlar da o biri tərəfdə qələbənin şərəfinə öz mahnılarını oxuyurdular. Elə bu vaxt şahın vəziri Səftər içəri girib şahın hüzurunda baş əydi. Şah boşalmış badəsini yanındakı quluna verib qaşlarını çatdı.

- Haradasan vəzir? - dedi: Yoxsa mənim qələbəm sənin vecinə deyil? Səftər bir də şahın hüzurunda baş əyib:

- Qibleyi-aləm, - dedi - mən sizin qulunuzam. Başına döndüyüm şahın hüzuruna gecikməyimin səbəbi var.

Hökmdar vəzirin səsindəki qara xəbəri duyub dedi:

Nə olub, vəzir? Tez söylə.

Vəzir üçüncü dəfə baş əyib dedi:

- Qibleyi-aləm sağ olsun! Oğlun Əflan xəstələnib.

- Nə danışırsan, vəzir? - deyə, şah ayağa qalxdı.

Şahzadə Əflan qonşu çadırda qızdırma içində yatırdı. Hər tərəfdə yeddi qara qul əlləri

döşündə dayanıb gözlərini ona zilləmişdilər. Hökmdar vəziri ilə çadıra girdi. Qullar əlləri qoynunda arxaya doğru çəkildilər.

Şah oğluna yaxınlaşıb əllərini onun alnına qoydu.

- Oğlum Əflan, - deyə həyəcanla səslədi. Lakin xəstədən cavab gəlmədi. Bu zaman şah ağarmış üzünü vəzirə tutub qorxulu səslə dedi:

- Bu saat bütün dünyanın başbilənlərini buraya topla.

Şah bütün günü oğlunun başının üstündən tərpənmədi, heç nə yemədi. Səhəri gün vəzir gəlib dedi:

- Qibleyi-aləm, vilayətdə ancaq tək-tək qocalar qalıb. Əhali tamam qırılıb, sağ qalanlar da gecəykən meşəyə qaçıb. Çox axtarandan sonra bir falçı qarıya rast gəldim.

- Bəs falçı nə oldu?- deyə şah qəzəblə soruşdu.

- Gəlmədi. Şahzadəni onun yanına getmək istədi.

- Aha - deyib şah acıqla gülümsədi.

- Mən onu ocağa atıb yandırardım, qibleyi-aləm, ancaq...

Şah onun sözünü kəsib dedi ki, hazırlaşın. Şah adamlarıyla qarının komasına gəldi. Şəhzadəni ehtiyatla içəri gətirdilər. Qarı qaranlıq

evdə oturmuşdu. Şah içəri girdikdə o heç təzim də etmədi. Şah keçib xəstənin baş tərəfində döşəyin üstündə oturub dedi:

- Qarı deyirlər sən cinlərin, uğursuz ruhların dilini bilirsən, sağalmaz dərdləri sağaldırsan. Budur mənim oğlum Əflan od tutub yanır. Əgər onu sağaltsan sənin daşını-dirəyini qızıldan eləyəcəm. Əgər xəyanət etsən cəhənnəm kimi yanacaqsan.

Qarı bir qab su alıb taxtın qarşısında yerə çökdü və dedi:

- Ey şah, buradakı qəzəbli ruhlar deyir ki, şah öz oğlunu sevirmi? Şah vahimələnib: - Nə danışırsan, qarı? O mənim yeganə varisimdir. Mən yeddi il dua edib, yeddi min qurban kəsəndən sonra ilahi onu mənə verdi. Onu mən öz canımdan da artıq istəyirəm.

Qarı suya baxıb yenə soruşdu?

- Bir qoca deyir onun anası varmı?

Şah ah çəkib dedi ki, var, onun anası Xəlsənin yuxusuna indi qara ilanlar girir.

Qarı xəstəyə yaxınlaşdı, onun üzü nurla işıqlandı. Axı o da anaydı. Qarı dağlardan çiçək gətirib xəstəyə içirdi. Güneydə oturan qocalar onu görəndə: - Eh, Çilə arvad da imansız oldu”- dedilər. Uşaqlar xəlvətdə görəndə ey falçı, bəs qızıl başmağın hanı? deyə tənə eyləyirdilər.

Qarı bütün bu nifrətləri sükutla qarşılayırdı. Nəhayət, yeddi gündən sonra şahzadə gözlərini açıb yemək istədi. On birinci gün isə tamam ayıldığını qoşun əhlinə xəbər verdilər.

Hökmdar bunu görüb qarıya dedi ki, o çiçəklərin hikmətini mənə də aç. Qarı bu sirri heç kimə açmadı. Hökmdara da, oğluna da həmin çiçəklərin suyundan bir kasa verib dedi ki, sizə bir daha xəstəlik gəlməz. Qarıya bir kisə qızıl verəndən sonra Şah vəziri Səftərə dedi ki, vəzir dünyada heç bir dərdim yoxdur. Qoşun əhlinə tapşır ki, üç gün, üç gecə elə bir şadyanalıq etsinlər ki, göydə günün üzü tutulsun.

- Atılan ox bir daha geri qayıtmaz, hökmdar. Hər dövranın bir hökmü var - deyə Çilə qarı dilləndi.

- Dəlimi olmusan arvad? Nə danışırsan? Şah qəzəblə yerindən qalxanda özündə dəhşətli bir ağrı hiss etdi. Əl atıb vəzirin çiynindən yapışdı. Elə bu vaxt şahzadə dibindən kəsilmiş kötük kimi qulun qucağına yıxıldı.

- Zəhər, - deyə hökmdar çığırdı.

- Hə, zəhər - deyə Çilə qarı arxayınlıqla təkrar etdi.

Şah yerdə ilan kimi qıvrılan oğluna baxıb döşəyin üstünə yıxıldı. Sonra başını qaldırıb dedi:

- Qarı, heç olmasa oğluma çarə et. Axı onu sən qurtarmışdın. Axı sən deyirdin mən anayam.

- Hə, qibleyi-aləm! - deyə Çilə qarı ah çəkdi – Mən anayam!

Bu vaxt şah da, oğlu da öldülər. Səftər vəzirin əmriylə qarının komasının ağzını bağladılar. Qoşun əhlinin hər biri onun komasının üstünə bir at torbası torpaq tökdü. Burada balaca bir dağ əmələ gəldi. Həmin dağa "Çilə dağı" deyirdilər. Çilə arvadın ancaq "Çilə dağı" yadigar qaldı. Sonra bu dağın altından bir bulaq çıxdı. Yoldan gələn yolçular həmin bulağın suyundan içib ürəklərini sərinlədirdilər.

## *TƏPƏSİ DƏLİK DAĞ*

Həmin təpəsi dəlik dağ kəsik konus şəklindədir. Vaxtı ilə vulkan püskürəndə dağ əmələ gəlib. Dağın nə qədər zirvəsinə çıxırsan, o qədər də içinə enirsən. O, dağın içində bir dənə pir var. O pirə bəzən nəzir-niyaz da deyənlər olur. Ancaq pirin sağ tərəfində çınqıllıq içində bir bulaq var. Bulağın heç bir yana axarı yoxdur. Susayanlar o suyla öz susuzluğunu söndürə bilər. O bulağın ətrafında olan daşlar çəki etibarilə çox

yüngüldürlər. Amma bulağın yanında əfsanəvi bir daş var. O daşa yağış yağdıran daş deyirlər. Elimizdə-obamızda quraqlıq olurdusa, xalq kütləsi topal Həsən adlı bir kişiyə müraciət edərdilər. Ay Həsən kişi, el-obanı quraqlıq apardı, get təpəsi dəlik dağına, o əfsanəvi daşı bulağın suyuna qoy, yağış yağsın. Həsən kişi də yol başlayıb gedib və daşı bulağın suyuna qoyardı. Bu vaxt çoxlu yağış yağardı. Çoxlu yağış yağanda Həsən kişidən xahiş edərdilər ki, daşı bulağın suyundan çıxartsın.

## *İNƏKDAĞI*

Hər tərəfi dağla əhatələnən kənd Basar-keçər rayonunun ən mənzərəli yerlərindən biri-dir. Dörd yanı vaxtı ilə meşə olan bu kəndin adı da maraqlı bir əfsanə ilə bağlıdır.

Hələ heç kimin olmadığı, yaşamadığı bir zamanlar buraya bir maral gələrmiş. Həmişəlik bu yerdə yurd-yuva salan bu maral elə gecələr də burada gecələyirmiş. Getdikcə maral insanlara isinişməyə başlayır. İnsanlar onu əhliləşdirirlər. Ona görə də maral insanlardan qaçmır. Maralı görməyən yerli kənd adamları marala inək adı verirlər. Onların fikrincə həmin dağda yaşayan

maral inək imiş. Ona qonşu kəndin sakinləri "İnəkdağı" adı veriblər. Beləcə bu kəndin "İnəkdağı" adlanması da həmin maralın adı ilə bağlıdır.

## *DƏLİ DAĞ*

Keçmiş zamanlarda el-oba qışda arana, yayda dağa köçərmiş. Yenə də belə günlərdən biri idi. El-oba dağa köçürdü. Bir oba gözəl və mənzərəli otlaqda gecələməli idi. Gecə çovğun oldu, qar yağmağa başladı. Demə hər zaman bu dağ bu adətdə imiş. İlin dörd fəsli dağ dumanlı, çənli, çovğunlu, qarlı, yağışlı olarmış. Elə gün olmazmış bu dağda yağış yağmamış, çovğun olmamış olsun. Köçəri xalqlar hamısı bir yerə yığılır, bu dağa ad qoyurlar. O gündən bu dağ "Dəli dağ" adlanır.

## *YANAR DAĞ*

Belə rəvayət edirlər ki, ərəblər Azərbaycan torpağına hücum edərkən müqavimətlə qarşılaşırlar. Məhəmməd Peyğəmbər bir dağa gələrək orada gizlənmək istəyir. Lakin onlar

dağa yaxınlaşdıqca dağ da uzaqlaşır. Məhəmməd Peyğəmbər dağa qarğış edərək deyir: Səni görüm bu dünya durduqca yanasan. O, vaxtdan başlayaraq bu dağ həmişə yanır. Əhali indi o dağa nəzir aparır.

## *ŞAH DAĞI*

Şah dağı çox şeylər görmüş və çox şeylərin şahidi olmuş, başı bəlalı bir dağdır. Deyilənə görə keçmişdə həmin "Şah dağı"nın başında bir şah öz ailəsi və adamları ilə yaşayırmış. Demək olar ki, burada kiçik bir kənd yaranıbmış.

Şahın ailəsi üç nəfərdən ibarət idi - arvadı, oğlu və özü. Şahın oğlu on səkkiz, on doqquz yaşlarında olardı. Şah öz oğlunu çox nəcib və ağıllı böyütmüşdü.

Deyirlər ki, bir gün şahın oğlu yuxuda yeddi gecəlik ay parçası kimi bir qız görür. Bir könüldən min könülə qıza aşiq olur. Oğlan yuxudan durub hazırlaşmağa başlayır. Atası oğlundan soruşur ki, oğul, hara hazırlaşırsan? Oğlu yuxuda gördüklərini atasına danışır. Anası, atası nə qədər yalvarırlar-yaxarırlar ki, getmə bir şey çıxmaz. Oğlan ata-anası ilə sağollaşıb

yola çıxır. Qırx gün, qırx gecə yol gedir. Bu şəhər mənim, bu kənd sənin, hər yanı axtarır. Axır ki, vilayətlərin birində qızı tapır. Qız da oğlanı görən kimi vurulur. Ancaq qız həmin vilayətin oğluna nişanlı olur.

Şah oğlu ilə qız bir-biri ilə tanış olurlar. Sonra isə qız əhvalatı oğlana danışır. Oğlan deyir ki, eybi yox, mən səni qaçırdaram. Oğlan elə həmin gün qızı götürüb, vilayətdən çıxmaq istəyir. Lakin vilayətin padşahı və onun vəzir-vəkili bundan xəbər tutur. Qoşun toplayıb, düşürlər onların dalınca. Oğlan bu çaydan o dənizə, bu vilayətdən o vilayətə keçərək çatır atasının torpağına. Ancaq qoşun əl çəkmir. Oğlan ata-anası ilə görüşərək qızı onlara tapşırır, özü isə uca bir dağın başına çıxır ki, görsün qoşun gəlib çatıbmı. Qızın nişanlısı qoşuna başçılıq edirdi. Şah oğlu başlayır gələn qoşunu oxa tutmağa. Bir neçəsi ölür. Nəhayət qızın nişanlısı oğlanı görür. Yerindəcə dayanıb nişan alır və oxu çəkir. Ox oğlanın ürəyinin başından dəyir. Qızın nişanlısı heç kəsin xəbəri olmadan içəri girib bir ox da qızın ürəyinə sancır.

Oğlanın ölüm xəbəri ata-anasına gec çatır. Artıq oğlan ölmüşdü. Elə həmin o gündən o dağın adı “Şah dağı” qalır.

## *QARI KÖPƏK TƏPƏSİ*

Köndələn qayanın kənarında böyük bir təpə var. Təpənin torpağı tökmədir. Təpənin altından böyük bir bulaq axır. Bu təpəyə "Qarı köpək" təpəsi deyilir.

Təpənin belə bir əfsanəsi var:

Guya qoca bir qarı burada zəmi biçirmiş. Arvad çox qoca olduğu üçün bu işi əziyyətlə görürmüş. Bu zaman İran ordusu buradan keçirdi. Ordunun sərkərdəsi baxıb görür ki, arvad zəmini çox çətinliklə biçir. Sərkərdənin qarıya yazığı gəlir və soruşur:

- Qarı nənə necəsən?

Qarı cavab verir:

- Qarı nənən necə olacaq. Zəmini biçə bilmirəm, məhsul da əldən gedir.

Sərkərdə əmr edir qoşununa ki, hərə bir çəngə buğda biçsin. Əsgərlərin hərəsi bir çəngə buğda biçirlər. Zəmi qurtarır. Buğdanı bağlayıb yığırlar qırağa. Sonra isə sərkərdə qarının yanına gəlib deyir:

- Hə, qarı nənə, görürsən işləməyi də kömək, yeməyi də...

Qarı deyir:

- Yox, bala, işləməyə kömək, yeməyə tək.

Sərkərdə əmr edir ki, bu “köpək qarı”nın üstünə hərəniz bir at torbası torpaq tökün. Əsgərlərin hərəsi qarının üstünə bir at torbası torpaq tökür və bu təpə yaranır. Bu zaman qarı ağlayır. Qarının göz yaşlarından bir bulaq əmələ gəlir və bu təpənin altından axır.

İndi bu təpəyə el arasında “Qarı köpək” deyirlər.

## *İKİ TƏPƏ*

Çox qədim zamanlarda böyük bir tayfada varlı-dövlətli bir xan yaşayırdı. Xanım gözünün ağı-qarası yeganə bir qızı var idi. Qız ağılı, fərasəti və gözəlliyi ilə hamını heyran qoyurdu. Başqa tayfada yaşayan Mıxır adlı bir oğlan uzaqdan-uzağa bu qıza aşiq olur. Oğlanın atası çox yoxsul idi. O, birinin naxırına gedər, birinin qapısında işləyər, nəhayət bu cür əziyyətlə çörək pulu qazanardı. Oğlanı bu vəziyyətlə bərabər ağır bir məhəbbətlə qarşılaşması daha da sarsıdırdı. O, tayfalarının ən böyük başçılarını bir neçə dəfə qonşu xanın qapısına elçi göndərir. Lakin rədd cavabı alır. Məhəbbətin uğursuzluğu onun başına olmazın bəlalar gətirir. Qız oğlanın bu vəziy-

yətini görüb ona böyük bir təpə qurdurmasını təklif edir. Həm də elə bir təpə ki, özünün qurduracağı təpədən qat-qat hündür və böyük olsun. Belə olsa sözümüz sözdü, deyir. Oğlan razı olur. Hər iki gənc işə başlayır. Qırx torba ilə oğlan, qırx torba ilə qız. Hər kəs öz yaxın adamları ilə təpəni tikməyə başlayırlar. Bir gün belə, iki gün belə, bir-birindən xəbərsiz hərə qırx torba ilə təpəni qurdurur. Təpəni başa vurandan sonra xan qızı öz tayfalarından bir çapar göndərir ki, oğlan indi çıxsın meydana görək sözümüz sözdü ya yox. Oğlan qızın tikdirdiyi təpənin xeyli uzaqdan ucaldığını görüb, istədiyinə nail olmayacağını bilir və özünü qurdurduğu təpədən atır.

## *AĞBABA*

Varlı-hallı bir kişinin naxırını, sürüsünü yer-yurd tutmurdu. Sürünün bu başından o başına gedənədək nə qədər qoyun doğardı. Ancaq bu kişi ot-ələfdən çox korluq çəkirdi. Qış olanda mal-qoyuna dadar-doymaz ot verərdi. Ona görə də yazbaşı onun mal-qarası çox tələf olardı. Bu il yenə ot-ələf az olduğundan ona çox ziyan dəydi.

Qar əriyib altından su poqquldayan, güllər baş qaldıran kimi kişi nəvəsini yanına alıb dedi:

- Bala, əməyimiz hər il puç olub gedir. Gəl, sürüləri, naxırı qabağımıza qatıb aparaq, otlu-ələfli yer tapıb qışı salamat yaza çıxararıq.

Kişi dediyi kimi də elədi. Sürüləri və naxırı qabağına qatıb nəvəsi ilə birlikdə dağlara üz tutdu. Yazın yaxşı çağı idi. Onlar sürülərini otara-otara gəlib səfalı bir yerə çıxdılar. Çiçəklərin ətri düz-dünyanı bürümüşdü. Quşların cəh-cəhi dağları başına götürmüşdü. Sürülər göy ota daraşdı, nə daraşdı. Beş-on günün içində bir dəri, bir sümük olan qoyunlar dərisinə sığmadı. İnəklər elə kökəldi ki, tükünü çəksən yağı damardı. Kişi bunları görüb nəvəsinə dedi:

- Bala, elə ölüb-qalmalı yer buradı. Daha bizim sürülərə zaval yoxdu. Yaz-qış burda ot var.

Kişinin nəvəsi yaşca kiçik olsa da, çox dərrakəli idi. Babasına üz tutub dedi:

- Baba, dağlara aldanmaq olmaz. Bir də gördün ki, qış qapının ağzını kəsdi. Onda əliniz heç yana çatmaz, səsimizə-hayımıza yetən olmaz. Gəl, qışa ot tədarük edək.

Kişi gülə-gülə:

- Ay bala, burda qarmı qalar! Qar olsa da bir himə bənddi ki, əriyib yoxa çıxar. Kərənti

çəkməyə dəyməz, -deyə nəvəsinin başını sığalladı.

Bir müddət keçdi. Soyuqlar düşdü. O gül-çiçəkdən, quşların cəh-cəhindən əsər-əlamət qalmadı. Birdən-birə qış onların üstünü aldı. Bir çovğun, bir tufan başladı ki, gəl görəsən. Bir gecənin içində yağan qar qurşağa çıxdı. Yol-iz tamam tutuldu. Ac qalan malın-qoyunun böyürtüsü dağları tutdu. Kişi nəvəsi ilə köməkləşib sürüləri aşağı endirmək istədi, ancaq boran imkan vermədi. Hamısı qara batıb qırıldı. Kişi nəvəsinin sözünə vaxtında qulaq asmadığı üçün bərk peşiman oldu. Bunu görən nəvəsi dedi:

- Ax, baba, ax, sənə demədimmi ki, dağlara aldanmaq olmaz. Gördün başımıza nə gəldi?

Elə bu vaxtdan da “Axbaba” sözü “Ağbaba” sözü ilə əvəz olundu və həmin yerin adı Ağbaba qaldı. El-elat yığışıb orda yurd tikib, məskən saldılar.

# *QALALAR HAQQINDA*

***ТОРПАГ ГАЛА***

Кечмишдя бир зцлмкар щökmdar йашайырмыш. Аьлына эяляни еляйяр, ели-обаны инъидярмиш.

Аьсаггаллардан биринин мяслящяти иля bir эеъя hюкмдар йатандан сонра кичикдян-бюйцйя щамы сящяря гядяр торба иля торпаг дашыйыр. Биръя эеъянин ичиндя щюкмдарын йашадыьы галаны торпаглайырлар. Щюкмдар да, онун галасы да гязяблянмиш халгын тюкдцйц торпаьын алтында галыр.

## *XURAM QALASI*

Gürcüstan elində Xuram qalası var. Yağış yağanda bu qalanın divarlarından qan axır.

Belə rəvayət edirlər ki, yadelli işğalçılar həmişə bu elə hücum edirdi. Elin knyazı işğalçılarından qorunmaq üçün bir qala tikdirmək istəyir. Nəhayət qalanın tikintisi başlasa da iş başa çatmır. Belə ki, qalanı tikib başa çatdıranda qala öz-özünə sökülərmiş. Nə camaat, nə də ki, knyaz bundan baş çıxarda bilmirdilər. Deyilənə görə bu eldə bir cavan qadın varmış, o qalanın sirrindən agah imiş. Knyazın adamları bu arvadın yanına gəlir və ondan bu sirri öyrənməyə ça-

lışırlar. Lakin arvad sirri deməyə çəkinir. O, deyir ki, əgər mən bu sirri desəm mənim boynumu vurdurarsınız. Lakin knyazın adamları əl çəkmirlər. Arvada deyirlər ki, biz sənə çoxlu bəxşiş verərik. Nəhayət arvad knyaza deyir ki, qalanı tikərkən gərək sən öz oğlun Xuramı daşın altına qoydurub üstdən qalanı hördürəsən, onda qala uçmaz. Knyaz bu sözdən çox pis oldu. Çünki onun gözünün ağı-qarası bir oğlu var idi. Uzun zaman knyazın övladı olmamış, Xuramı nəzir-niyazla tapmışdır. Xuramın 17 yaşı var idi. Həmin arvad demişdir ki, uşaq 17 yaşında ölməli idi.

Bu xəbər Xurama çatır. O, öz atasının yanına gəlir ki,ata mən buna razıyam. Bir mən məhv olmaqla ölkəmiz məhv olmur ki, qoy mən ölüm ancaq bizim ölkəyə düşmən ayağı dəyməsin. Məndən sonra çox xuramlar olacaq.

Knyaz razı olur. Xuramı qalanın daş divarına qoyub hörürlər. Qala uçmur. Düşmənə qalib gəlirlər.

İndi deyirlər ki, yağış yağanda o qalanın divarlarından qan axır. Həmin qan Xuramın qanıdır. Ona görə o vaxtdan bu qalanın adı "Xuram qalası" qalıb.

## *KOROĞLU QALASI*

Şəmkir çayının yuxarı hissəsində, Qala dərəsində Koroğlu qalası yerləşir. Bu qalada Koroğlu iki atını Qırat və Düratını saxlayarmış. Atların qabağına su novu da çəkdiribmiş. Bu suyun haradan gəldiyi indi də heç kəsə məlum deyil. Bir gün Koroğlu atların yanına gələndə görür ki, Qır atının ortasında zincir yuxarı dartırlar. Koroğlu maraqlanır, özü də ata kömək edib yuxarı qaldırır. Atı oğurlayandan soruşur ki, sən kimsən? Koroğludan qorxmursanmı, onun atını oğurlayırsan?

## *PƏRİ QALASI*

Qax rayonunun Güllük kəndi yaxınlığında, Armatay dağının zirvəsində Pəri qalası yerləşir. Qalanın yerləşdiyi dağın qolları Qax rayonunun Zərnə, Zaqatala rayonunun Gözbaxar və Mamrux kəndlərinə qədər uzanır. Pəri qalasında ilkin tədqiqat işlərini 1974-1975-ci ildə D.A.Axundov tətqiq etmişdir. Məbədi təkrarən 1982-1984-cu illərdə Ş.Fətullayev və G.Məmmədova aparmışdır. Həmin illərdə bu ərazidə A.Qaraəhmədov

arxeoloji qazıntılar aparmışdır. Pəri qalası üzərində ilk tədqiqat işlərini aparan professor A. Axundov bu tikilinin inşaat tarixini III-IV əsrlərə aid etmişdir. Onun gəldiyi nəticəyə görə, məbəd ilkin təyinatına görə albanların sitayiş etdikləri ilahi üçlüyə göy, günəş, ay, tanrıları Mitra, Hörmüz və Anahidin şərəfinə inşa edilmişdir.

Məbəd çox da böyük olmayan səkkizguşəli həyətlə əhatələnmişdir. Hasarlar çay daşından tikilmişdir. Məbəddən təxminən bir kilometr aralıda dağın şərq enişində kiçik sövmənin qalıqları qalmaqdadır.

Məbəd kompleksinin əsasını diametri 10,7 metr olan, naxışlı sütundan - pilondan ibarət dairəvi formalı zal təşkil edir. Tikilinin daxili hissəsi suvaqlanmışdır. Müəyyən edilmişdir ki, məbədin damı kirəmitlə örtülü olmuşdur. Məbəd bütövlükdə dağıntılara məruz qalmış, onun yalnız şərq istiqamətində yerləşən iki cübbəxanası və mehrabın əsas tağı salamat qalmışdır. Məbədin şimal istiqamətində yerləşən divarlar tamamilə dağılmışdır, yerində daş yığınları və arxeoloji qazıntılar zamanı tikilinin mərkəzi zalından çıxarılmış torpaq qalıqları qalmışdır.

Pəri qalası- Armatay məbədi haqqında ümumi nəticəyə gəlməzdən əvvəl bir neçə mülahizəni xatırlamaq yerinə düşərdi.

Pəri qalasının yerləşdiyi dağın Armatay adlanması məlumdur. Tədqiqatçılar həmin adı zərdüştlükdə, bolluq ilahəsi sayılan Armaiti ilə əlaqələndirirlər.

Digər bir mülahizə isə bu məbədin qədimdən albanların sitayiş etdikləri Ay ilahəsinin şərəfinə inşa olunmuş məbədlə eyniləşməsi ilə bağlıdır. Tarixi mənbələrdən məlumdur ki, antik dövr Azərbaycanın dolğun şəkildə ilk təsvirini yunan coğrafiyaşünası və tarixçisi Strabon vermişdir. Strabon albanların dini etiqatlarından, onların allahlarından, Heliosa və Zevsə, ilahələrdən məbədi İberiya sərhədlərinə yaxın ərazidə yerləşən Selenaya sitayiş etdiklərini yazmışdır.

Yunan mifologiyasında Helios günəş allahı, Zevs göy allahı, Selena isə ay ilahəsidir. Həmin allahların və ilahənin alban dilindəki adları bizə məlum deyildir. Pəri qalasının adının zərdüştlik ilahəsi Armaitin adı ilə bağlılığına nəzərə salaq. Bu adın mənşəyi ilə əlaqədar ikinci bir mülahizə də üzə çıxır. Belə ki, qədim Het mifologiyasında Arma ay ilahəsinə verilən ad kimi tarixçilərə məlumdur. Kirin Asiyada, Anadolu ərazisində, tarixi Kapatokya torpaqlarında dörd min il əvvəl mövcud olmuş Het dövlətinin Qafqazla əlaqəsi haqqında danışmaq ilk baxışdan o qədər də inandırıcı görünməz.

Lakin bir sıra tarixçilər Het dövlətinin yaradıcıları olan Naşk və Apsil tayfalarının Qafqazın dağlıq ərazilərində kiçik Asiyaya köçməsi fikrini irəli sürürlər. Bu fikrə əsasən hələ dörd min il əvvəl Qafqazda Arma adlandırılan ay ilahəsinə sitayiş edilməsini ehtimal etmək mümkündür. Ehtimalların məntiqi ardıcıllığı onu deməyə əsas verir ki, Pəri qalasının yerləşdiyi dağın adındakı arma sözü həmin adın kökünü təşkil edir. Deməli albanların sitayiş etdikləri ay ilahəsinin adı dağın adında özünü qoruyub saxlaya bilmişdir.

Məbədin yerli əhali arasında geniş yayılmış adı isə, məna baxımından, yarandığı dövrdə olduğu kimi qalmışdır. Belə ki, albanların sitayiş etdikləri Allahlardan Helios və Zevs yunan mifologiyasında kişi obrazında, Selena isə qadın obrazında təsvir edilir.

Bütün bunlar hələlik oxuculara mülahizə kimi təqdim edilir. Lakin həmin fikirlərin doğruluğunu yaxın gələcəkdə sübut olunacağına bizdə dərin inam var.

Pəri qalasının ərazisində tədqiqat aparmış A.Qaraəhmədovun fikrincə bu məbəd tikildiyi dövrdən sonra bir neçə dəfə bərpa olunmuşdur.

Məbəd XII əsrədək fəaliyyət göstərmişdir.

Pəri qalası məbədinin oxşarı İtaliyada Ravenna ərazisindəki San-Vital və Qəbələ rayonundakı Kilsədağ məbədləridir.

Pəri qalası haqqında ilk yazılı məlumatı XIX əsrin rus müəllifi A.İ.Ton- Plotto vermişdir. O, yerli əhali arasında yayılmış rəvayətlərə əsaslanaraq Pəri qalasının XII əsrdə yaşamış gürcü çariçası Tamaranın şərəfinə tikildiyini qeyd etmişdir.

Hələ keçən əsrdə Qafqaz tarixinin dərinliklərinə bələd olmayan rus alimlərini belə əsassız mülahizələrə görə, bəlkə də, bağışlamaq olar. Lakin həmin mülahizələrin heç bir arxeloji və tarixi fakta söykənmədiyini başa düşən və bilərəkdən həmin mülahizələrə istinad edən müasir gürcü müəlliflərinin qərəzli iddiaları isə lap çox təəssüf doğurur.

Pəri qalası- Armatay məbədi dövrümüzdə çox dağılmış halda qalsa da Qədim Azərbaycan memarlığının nadir nümunələrindən sayılır və dövlət tərəfindən qorunur.

## *ƏRKİVAN QALASI*

XVII əsrin əvvəllərində Azərbaycanda meydana çıxan xanlıqlardan biri də Talış xanlığı

idi. Talış xanlığı ilk dəfə olaraq Lənkəran mahalında yaranmış və Bəzz qalasında yerləşdirilir. Xanlıq getdikcə öz mövqeyini artırmağa başlamış və tədricən Talış dağlarının ətəklərində yerləşən kəndləri özünə tabe etməyə başlamışdır. Bu dövrdə Ərkivan kəndinin şimal qərbində Viləş çayı sahilində də böyük bir qala tikilməyə başlamışdı.

Qala tikilən zaman xanın rəhbərliyi altında olan kəndlərdən işləmək üçün buraya adamlar gətirilirdi. Bir gün növbə keçmişdə Çəm-Çəm, indi isə Banbaşı adlanan kəndə çatır. Lakin işləməkdən əldən düşmüş kənd əhalisi xanın əmrindən boyun qaçırıb meşələrə çəkilir. Xan isə adamların gəlmədiyini görüb heyrətlənir. Təcili olaraq kəndə adam göndərir. Kənddə bir nəfər də olsun kişi tayfasının olmadığını xəbər verirlər. Bu xəbəri eşidən xan çox əsəbiləşir və evdə olmayan kişilərin arvadlarını gətirməyi əmr edir. Az müddətdən sonra kənddən 40 nəfər qadın xanın həyətinə gətirilir. Xan bu qadınları işlətməyi deyil, öldürməyi düşünür. Xanın evinin qarşısında dərin bir quyu var imiş. Xan qırx qadının hamısını bir-bir quyuya atdırıb, üstünü torpaqlatdırır.

Abdulbağı xanın bu zülmündən qorxuya düşən kənd adamları bundan sonra onun hər əm-

rini yerinə yetirməyə məcbur olurlar. Beləliklə, az müddət içərisində qalaya torpaq daşınır və qalanı Viləş çayı sahilindən 100 metr yüksəkliyə qaldırırlar. Qala özü də iki hissədən qurulur. Birinci Narıncı qala (Kiçik qala), burada yalnız xanın öz ailəsi yaşayarmış, ikinci isə bu qalanı əhatə edən Böyük qaladır. Qalanın şimal hissəsi Viləş çayıdır və bu sahədən qalaya girmək üçün yol yoxmuş. Qalan üç tərəfdən isə 12-15 metr enində dərin xəndək qazılıb buraya 10 metrdən çox dərinliyində su doldururlarmış. Qalaya cəmi iki yerdən giriş yolu var imiş. Xana qarşı bir təhlükə hiss edilən kimi, xəndək su ilə doldurulur və dəmir qapılar bağlanırmış.

Ərkivan qalasında olan xanlıq iki əsrə yaxın davam etmişdir. Bu xanlıq müstəqil xanlıq deyildi. Lənkəran xanına tabe idi.

Ərkivan qalasında xanlıq edən axırıncı xan Lənkəran xanı Abdulla xanın oğlu Mirhəsən xan idi. Ata özü Lənkaranda xan olduğu müddətdə oğlu da Ərkivan qalasında xanlıq etmişdir.

Talış zonasında xanlığa qarşı ilk dəfə mübarizə aparanlardan biri də Abduləzim Mahmud oğlu olmuşdur.

Abduləzim kimdir? O, xana qarşı nə üçün mübarizəyə başlamışdır.

Abduləzimin atası Şirvanlı Mahmud ləqəbi ilə məhşur olan xanın qoşun başçısı imiş. O, son dərəcə cəsur bir məşqçi idi. Xan qoşunlarına təlim verir və onlara başçılıq edərmiş. Mahmudun həm Mirhəsən xanın, həm də Abdulla xanın yanında çox böyük hörməti var imiş. Bir dəfə Mirhəsən xanla indiki Çaxırlı kəndində yerləşən qalada olan başqa bir xanın arasında gedən müharibədə Şirvanlı Mahmud yaralanır və ölür.

Mahmud öldükdən sonra onun iki oğlu qalır. Abduləzim və Abdurrəhman. Mahmud öldükdən sonra xan onun ailəsinə baxmır. Bu uşaqlara hörmət etmək əvəzinə, onları qaladan çıxarıb qovur. Mahmudun böyük oğlu olan Abduləzim heç olmasa atasının atını və tüfəngini verməsini xahiş etsə də, xan buna əhəmiyyət verməyir. Həddən artıq mütəəssir olan Abduləzim Lənkərana gedib, oğuldan ataya şikayət etməli olur. Abdulla xan onun Mahmudun oğlu olduğunu bildikdə çox mehriban qarşılayır və oğlunu təcili Lənkərana çağırtdırır. Xan Abduləzimi oğluna nişan verib, Bunu tanıyırsanmı? - deyə qeyzlənir. Sən bilirsənmi aslan balası da aslan olar? Mahmud sərkərdə öləndən sonra onun övladlarını əzizləyib böyütmək əvəzində sən onları qaladan çıxarıb qovmusan. Bunun

üçün sənin gözlərini çıxardardım, heyif ki, səndən başqa nə oğlum və nə də qardaşım yoxdur. Bu saat gedib, Mahmudun atını, silahını oğlana verib, özlərinə də iki kənddən gələn töycünü verərsən. Atasının qeyzlənməsindən bərk qorxuya düşən Mirhəsən xan onun tapşırığını yerinə yetirir. Lakin Mirhəsən xanın Abduləzimə qarşı kini artır. Bir neçə dəfə Abduləzimi öldürmək üçün hiylə qurursa da Abduləzim başa düşüb aradan çıxır. Nəhayət, Mahmudun dostlarından biri Abduləzimə bildirir ki, xan yaxın vaxtda səni tələf etdirəcəkdir. Hər cür çətinliklərdən baş çıxarmağı bacaran Abdul-əzim bir neçə il Mirhəsən xana qarşı mübarizə aparır. Azərbaycanın Rusiya ilə birləşməsinə çalışan xanlıqlarla əlaqə saxlayır. Beləliklə, Ab-duləzim talış xalqının nümayəndəsi kimi Rusi-yaya göndərilir. 1814-cü ildə rus qoşunları Azərbaycana daxil olarkən, Salyandan – Lənkə-rana qədər Abduləzim rus qoşunlarına bələdçilik etməklə, həm də onlara kömək edir. İki ildən artıq Abduləzimdən heç bir xəbər olmur. Lakin rus qoşunları Salyana çatarkən qardaşı Abdulrəh-mana kağız yazır: - Qardaşım Abdulrəhman, rus qoşunları elə gəlir torpaq kimi. Mən gəlib çatana kimi ailəmizi elə yerdə gizlət ki, heç kimin xəbəri olmasın. Bir də dostum Mirhəsən xana

xəbər ver ki, kişiliyi çatırsa, qalıb mənim gəlməyimi gözləsin.

*Qardaşın Abduləzim Mahmud oğlu”.*

Beləliklə, Mirhəsən xan rus qoşunlarının gəlməsini eşidən kimi öz var-dövlətini, ailəsini götürüb qalanı tərk etmiş və İran torpağına qaçmışdır. Rus qoşunlarının gəlməsi ilə əlaqədar olaraq xanlıqlar ləğv edilmiş və qala da uçub dağılmışdır. Həmin dövrdə qalanın yaxınlığında bazar yerləşirmiş. Masallı rayonunun mərkəzində yerləşmiş həmin bazar qalanın adı ilə Qalabazarı adlanır.

## *LƏZGİ QALASI*

Bu qala XIX əsrin axırı, XX əsrin əvvəllərində tikilmişdir. Onu qırmızı kərpicdən hündür bir daşın üstündə ucaldıblar. Onun iki balaca otağı var. Hazırda otağın birinə girmək və gəzmək mümkündür. Lakin o birisinə yol yoxdur.

Rəvayətə görə bu dövrlərdə ermənilər müsəlman xalqını çox incidirmiş. El yaylağa köçən zaman “Göy yurd” adlanan yerə gedərmiş. Burada ermənilər yolu kəsir və mal-qara otlamasın deyə malların başına səbət keçirirmişlər.

Ona görə də bu yerin adına “Səbətkeçməz” deyirlərmiş.

El yaylağa köçən zaman yenə də ermənilər yolu kəsibmiş. Yolda mal-qaradan başqa heç nə görünmürmüş. Həmin “Səbətkeçməz”ə yetişən zaman inəklərin biri doğur. İnəyin başından səbəti çıxarırlar ki, balasını qurutsun. Yolda pusquda duran ermənilər gəlib həmin inəyi aparan kişinin kürəyindən bir zol dərisini soyurlar ki, inək yerdən ot qoparıb. Bu zaman Dağıstanlı Şəmil bəyin bacısı Azərbaycanda ərdə imiş. Həmin malı aparan kişi bu qadının yoldaşının qohumu imiş. Qadın Dağıstana yazır ki, bəs Azərbaycanda belə haqsızlıqlar olur. Məktub Şəmil bəyə çatır və o, bir dəstə adamla Azərbaycana gəlir. Şəmil bəy ermənilərlə vuruşur. Onlar gündüzlər vuruşur, gecələrsə bu qalaya sığınırlarmış. El arasında bu qalaya sığınacaq da deyirlər. Nəhayət o, erməniləri qırıb Dağıstana qayıdır. Bu qala da onun adı ilə adlanmışdır.

## *GÜLÜSTAN QALASI*

Goranboy rayonu Murov dağının ətəyində İnci çayının qərb hissəsində yerləşir. Həmin kəndin adı bu qalanın adı ilə çağırılır.

Deyilənə görə bir neçə yüz il bundan əvvəl Azərbaycanda Gülüstan adlı bir padşah vardı. O yadellilərlə vuruşa-vuruşa qoşunu ilə birgə Murov dağının ətəyindəki böyük bir qalaya sığınıb. Düşmən qalanın ağzını kəsib ki, onlar susuz burada ölsünlər. Ancaq qalanın iki yolu varmış. Düşmən bundan xəbərsiz idi. Onlar 10 gün bu qalanın qarşısında durur. Səhər ertə görürlər ki, bir it çıxdı çaydan su içib içəri qaçdı. Düşmən bilir ki, onlar suyu buradan içirmiş. Düşmən qoşunu ondan sonra fikirləşib uzun müddət, yəni aylarla duz daşıyıb çayın üst tərəfinə tökür.

Gülüstan padşahının qoşunu su içə bilməyib, məğlub olur. Elə o vaxtdan da qalanın adı "Gülüstan qalası" qalıb.

## *GÜLÜSTAN QALASI*

Goranboy rayonunun Gülüstan kəndinin yaxınlığında bir qala var. Qala sıldırım qayanın üzərində yerləşir. İncə çayı qayanın ətəyi ilə axıb keçir. Ətraf isə meşəliyə bürünmüşdür.

Qala haqqında belə rəvayət var. Deyilənə görə həmin kənddə olduqca gözəl bir qız yaşayırmış. Bir gün təsadüfən buradan keçən Türkiyə Sultanının oğlu qızı görür və ona aşiq olur. Qız onun təklifini rədd edir. Bundan əsəbiləşən Sultanın oğlu qızı zorla aparmaq istəyir. Lakin kənd əhli buna mane olur. İşi belə görən Gülüstan (qızın adıdır) atasından xahiş edir ki, ona elə bir qala tikdirsin ki, oraya heç kim qalxa bilməsin. Ata qızın xahişini yerinə yetirir. Sıldırım qaya üzərində qalanı tikdirir. Qalaya ancaq tunellər vasitəsi ilə gedib-gəlmək olarmış.

Düşmən ordusu nə qədər çalışırsa, qalaya gedən yolu tapa bilmir. Bir gün Gülüstan su gətirmək üçün çaya enir. Yanındakı iti hürməyə başlayır. İtin səsini eşidən düşmən ordusu gizli yolu tapır və qalaya çıxırlar. Qız düşmənə əsir düşməkdənsə ölümünü üstün tutur. Özünü qaladan çaya atır.

İndi həmin qala qızın xatirəsinə “Gülüstan qalası” adlanır.

## *QIZ QALA*

Balçılı dağlarında iki tayfa yaşayırmış. Bunlardan birinə talalılar, o birisinə isə qalalılar deyərmişlər. Bu qonşu tayfalar arasında torpaq, su üstündə tez-tez dava-dalaş olarmış. Talalılar çox, qalalılar isə sayca az imişlər. Amma qalalılar cəngavər adamlarmış, həm də onlar uca qayaların zirvəsində məskən salıblarmış. Talalılara qoca bir kişi, qalalılara isə ox atmaqda mahir olan Ağca adlı bir qız başçılıq edirmiş.

Bir gün talalıların tayfa başçısının oğlu Ağcaya elçi göndərir. Qız deyir:

- Sözüm yoxdu, amma bir şərtim var: Tayfalarımız yola getmirlər, sudan da korluq çəkirik. Əkinimiz, biçinimiz az olur. Oğlan əgər məni sevirsə, Quşqaradan Quru Qobuya su çəksin. Oğlan razı olur. Su çəkilir. Lakin su axarkən torpağa hopur və Quru Qobuya gəlib çıxmır. Oğlan çarəsiz qalıb arx boyu şüşə düzdürür. Gün çıxanda şüşə su kimi bərq vurur.

Bir səhər oğlan qızı çağırır ki, buyur su hazır! Qız baxır. Məsələni anlayır və oğlana yox deyir.

Oğlan kor-peşman atasının yanına qayıdır. Əhvalatı ona danışır. Qoca deyir:

- Qala çayının qırağına gözətçi qoyun. Ağca suya gələndə götürüb qaçın.

Ağca talalıların hiyləyə əl atacaqlarını bilirmiş. Elə həmin gündən suya getmir. Səhəngi uzun hörüklərinin ucuna bağlayır, qala çayına sallayıb su götürür.

Sən demə Ağcanı öz tayfalarından Qaya adlı kasıb bir oğlan da sevirmiş, amma qəlbindəkini aça bilmirmiş. O, Ağcanı qoşa hörükləri ilə su götürəndə görür, ürəyi ağrıyır. Qaya gündüzlər yatır, gecələr yerin altı ilə Sarı bulaqdan qalaya gizlicə su arxı çəkir.

Bu ara söz yayılır ki, talalılar hücuma hazırlaşırlar. Ağca sevgilisi Qayanı yanına çağırır: - Gəlsənə, biz onları qabaqlayaq, - deyir. Gecəyarı ilxını talalılara tərəf ötür. Elə biləcəklər ki, biz vuruşa başlayırıq. Yuxulu-yuxulu bir-birini qıracaqlar. Belə də olur. Atışmada Qaya ölür. Ağca onu öz qızıl yəhəri ilə birlikdə qalanın başında dəfn edir. Sonra isə qalanın gah bu, gah da o bürcünə qaçıb ox atır ki, tək olduğu bilinməsin. Təngə gələn tala ağsaqqalları hiyləyə əl atırlar. Deyirlər ki, qalanın yəqin gizli su yolu var, gəlin kəsək. Quru arpa yemiş susuz qatırı qalanın dövrəsində gəzdirirlər. Ağca görür, qatır Sarı bulaq tərəfə gedir. Talalıların niyyətini anlayır və fürsət tapan kimi qaladan çıxıb gedir.

Talalılar su tüngünü dağıdıb bir xeyli gözləyirlər. Görürlər ki, Ağca qaladan çıxmır, onda hücuma keçirlər. İçəri girəndə baxırlar ki, hər yan boş, Ağca da yox.

- Tayfam qırıldı, oğlum öldü. Tala oldu Qanlı tala, dağılmadı dağda qala,- bunu deyib hiyləgər qoca canını tapşırır. (Bir qərib məzarı da var. Gəncədən bir az yana, Qoşqar səmtdə).

## *QIZ QALASI*

Bu qala Gədəbəy rayonunun meşəsində - Tala adlanan yerdə yerləşir.

Qocalar belə söyləyirlər ki, bu qalanın qabağı əvvəllər karvan yolu olubmuş. Buradan hər gün saysız-hesabsız karvan keçirmiş.

Deyilənə görə bu yerdə bir qızı atası öz istədiyi oğlana vermir. Qız gecəyarı oğlana qoşulub həmin qalada gizlənir, qapını da içəridən bağlayırlar.

Karvanlardan biri gecəyə qalır və gecələmək üçün həmin qalaya gəlir. Karvandakılar görürlər ki, qapı bağlıdır. Qızla oğlan səsə elə bilirlər ki, bunların dalınca gəliblər. Cavab vermirlər. Karvandakılar dillənirlər ki, yoldan

keçənlərdir. Onlar qapını açmır və içəridən deyirlər ki, bura qız qalasıdır. Deyilənə görə elə o vaxtdan ora qız qalası adı ilə qaldı.

Bir də deyirlər ki, guya o vaxt hansı qızı istədiyi oğlana verməsələr oğlan onu götürüb bu qalaya qaçırmış.

## *QIZ QALASI*

Belə rəvayət edirlər ki, bir şah varmış. Bu şahın da bir qızı var imiş. Şah öz qızına aşiq olur. Atasını fikrindən döndərə bilməyən qız ona deyir ki, suyun içərisində bir qala tikdir. Şah buna razı olur və suyun içərisində bir qala tikdirir. Qız özünü qaladan atır, elə o vaxtdan da qala Qız qalası adlanır.

## *QIZ QALASI*

Bu əhvalat Gədəbəy rayonu Söyüdlü kəndinin 5-10 km-də yerləşən Şəmkir çayının üstündəki Qız qalasından bəhs edir.

Rəvayətə görə bu qala keçmişin yadigarıdır, təxminən XIX əsrə təsadüf edir. Alt tərəfdən Şəmkir çayı, digər yanı dağlarla əhatə

olunmuş sıx meşəlikdən ibarətdir. Buraya iki cığırla getmək olar. Birinci yol (sağ tərəf) Söyüdlü kəndi tərəfindən, ikinci yol isə Komintern kəndi tərəfindən keçir. Alt tərəfindəki kürsülər, künbəzlər adamı özünə cəlb edir. İkinci elə bir sənətkar tapılmaz ki, burada belə bir qala tikə bilsin. Üst tərəfindəki Qız qalası isə elə bir mahir sənətkarın əli ilə yaradılmışdır ki, 2-ci belə bir qalaya, ancaq Bakıdakı "Qız qalası"nda təsadüf etmək olar.

Söyüdlü və Komintern kəndinin qocalarının rəvayətinə görə bu qalada bir şah qızı yaşayırmış. Şah qızı atasından küsüb, buranı özünə məskən etmişdir. Atası onu bir bəyə vermək istəyib, qızı isə razı olmayıb, həmin qalanı usta Qəndala tikdirmişdir. Atasının və Fəhrad bəyin qoşunları bir neçə dəfə qalaya hücum çəkmişdir. Lakin mərd qız başına topladığı igidlərlə birlikdə onlarla axıradək mübarizə aparmışdır. Qəhrəman qız buraya su kanalları da çəkdirmişdir.

Artıq Fəhrad bəy hiyləyə əl atmağa başlayır. O, bir gün öz dəstəsinə əmr edir ki, atların nalını söküb tərsinə nallasınlar. Qoşun onun dediyinə əməl edir. Qız elə başa düşür ki, onlar geriyə qayıdırlar. Bundan arxayın olan qız qapıları açıq qoyur, bu vaxt Fəhrad bəyin qoşunları içəri daxil olurlar. Hər şeydən əlacı kəsilən qız özünü

öldürməyə məcbur olur və özünü qaladan atır. O gündən sonra “Qız qalası” bir yadigar kimi Şəmkirin üstündə qalmağa başlayır. Buraya gedib-gələnlər həmişə keçmişi yada salır və “Qız qalası”na çıxmamış geri qayıtmırlar.

## *QIZ QALASI*

Bu qala Xanlar rayonunun Balçılı dağında yerləşir. Qala hündür qayalardan ibarət olduğundan buraya gəlmək çox çətindir. Qalanın yalnız bir yolu var. Bu yolun ağzında qırmızı kərpicdən kümbəzlər tikmişlər. Həmin kümbəzlərdə gözcüklər var idi. Keşikçilər burada dururdular. Burada yaşayan tayfanın başçısı bir qız idi. Onlar bu çıxılmaz qayaların başında sementlə divarlar çəkmiş və çox möhkəm yaşayış yerləri düzəltmişlər ki, bu divarlar hal-hazırda durur. Bunların gözəl sənətkarlıq qabları vardır ki, bunu indiyədək qalan çini qabların qırıqları da göstərir. Onlar bir-neçə əsr bundan qabaq düzəldilməsinə baxmayaraq yenə də öz rəngini itirməmişdir.

Bu tayfa qayanın başında yerləşdiyi üçün buraya su çıxarmaq çətin idi. Onlar nəhayət təxminən 15 km aralı olan Axarça yaylağından

su çəkirlər. Su çəkilişi zamanı Dərzi qayası onlar üçün çətinlik yaratmışdır. Bu qaya ona görə Dərzi qayası adlanır ki, bir vaxt Gəncə şəhərinə "xalyar"düşür və adamlar yaylağa çıxırlar. Bir dərzi də öz maşınını götürüb buraya gəlmiş, lakin xəstəlik onu tutmuş və bu qayanın dibində ölmüşdür. Buradan sonra ikinci çətinlik "Qarı uçan" idi. Bu da ona görə Qarı uçan adlanır ki, keçmişdə el arandan yaylağa köçəndə yol uzaq olduğu üçün bir qarı öküzə minmişdir. Öküz yuxarı çıxdıqda qarı öküzün belindən diyirlənib dərəyə yıxılır. Nəhayət su Qaratorpaq meşəsindən keçib bu yerə çatır. Bu sudan onlar hətta dən üyütmək üçün dəyirmanı işə salmaqda istifadə edirlər.

Bu tayfanın qonşuluğunda (Qanlı Talada) başqa bir tayfa yaşayırdı. Talalılar dağın ətəyində Ağ suyun kənarında idilər. Ona görə də bunların yaşayışı Qalalarınkına nisbətən yaxşı idi.

Bu tayfalar arasında ziddiyət var idi. Bunlar həmişə torpaq, yer üstündə vuruşardılar. Bu vuruşmalarda qalada yaşayan tayfa, talada yaşayan tayfaya üstün gəlirdi. Ona görə də Qanlı talada yaşayanlar Dağıstan ləzgilərindən kömək alırlar və qalalıların üzərinə hücum etmək üçün səngərlər düzəldirlər. Qalada yaşayanlar onların fikrini bilirlər. Ona görə də gecə ikən at ilxısını

talada yaşayanların səngərlərinə buraxırlar. Talada yaşayanlar bilmədən bir-birini qırırlar. Ancaq buna baxmayaraq arxadan yenə kömək gəlir və qalanı mühasirəyə alırlar. Ancaq qaladıkıları məğlub edə bilmirlər.

Axırda talalılar qalada yaşayanların suyunu kəsmək istədilər. Lakin suyun yerini tapa bilmədilər. Onlar susuz bir qatırı qala tərəfə buraxdılar. Qatır Düzdağın boyunda suyun yerini tapdı. Onlar qalalıların istifadə etdikləri su kəmərini kəsdilər. Suyun olmaması qalalıları təslim olmağa məcbur etdi. Tayfa başçıları və üzvləri talalılar tərəfindən əsir alındı. Onlar zirvədən aşağı endilər və təxminən bir kilometr aralıda olan Mallosmaidə yaşamağa başladılar. Beləliklə də talalılar, qalalılar üzərində qalib gəldi və onlar bir tayfa halında birləşdilər. Talalılar ilə qalalılar arasında gedən mübarizədə çoxlu insan qanı axdığına görə bu tala "Qanlı Tala" adlanmışdır. Qalalılara isə igid, mərd bir qız rəhbərlik etdiyinə görə "Qız Qalası" adlanmışdır.

Bunlar burada yaşadıqları vaxt 10 km. uzunluğunda su arxları çəkdilər. Xıdır düzündə əkin yerləri hazırladılar.

## *QIZ QALASI*

Seyfəli kəndinin kənarında meşədə bir qala vardır. Adına “Qız qalası” deyirlər. Guya o qalanı bir qız tikdirmişdir. Koroğlu Nigarı orada gizlədərmiş.

Hal-hazırda o qala durur. Balaca qapısı var. İçərisində at üçün ot qoymağa axurlar vardır. Bu da həmin qalanın Koroğlunun olmasını sübut edir. Deyilənə görə qoşunlar neçə dəfə ora hücum ediblər, lakin qalaya daxil ola bilməyiblər.

*Koroğlunun daş qalası,*
*Ərşə çıxıbdı naləsi.*
*Qazla ördək balası,*
*Çöllərdə yalqız olmasın,*
*Heç igidlər qardaşsız olmasın!*

Bu sözlər həmin qalanın divarlarına yazılmışdır. Kənddəki bütün qoca və cavanlar o qalanı görüblər.

## *QIZ QALASI*

Rəvayətə görə bir Padşah olur və onun da gözəl bir qulluqçusu olur. Padşahla qulluqçu evlənir. Onların bir qızı dünyaya gəlir. Padşah daha qulluqçunu saxlamır. Qulluqçu özgə vilayətə çıxıb gedir. Qızı təkcə böyüdür. Bir gün qulluqçu xəstələnib ölür. Qız bir padşahın evində qulluqçuluq edir, həmin padşahın uzaq yerdən qonaqları gəlir.

Qonaq gələn padşah bu qulluqçunun gözəlliyinə vurulur. O, dostundan xahiş edir ki, məndən nə istəyirsən istə, o qulluqçunu ver mənə. Biçarə qızı öz atasına qul kimi satırlar. Qız gəlib padşahın vilayətinə çatdıqdan sonra bu vilayətin kimin olduğunu öyrənir. Qız bilir ki, onu qul kimi alan öz atasıdır. Ancaq bu sirri aça bilmir ki, həm atası, həm də özü el içində rüsvay olmasın. Padşah toya hazırlaşır. Qız padşahdan xahiş edir ki, dəniz kənarında bir qala tikdirsin, o qaladan dənizi seyr etsin, sonra toy olsun. Qala bir neçə gün ərzində hazır olur. Qız qalaya çıxır və fikirləşir ki, atasına arvad olmaqdansa ölmək daha yaxşıdı. Özünü dənizə atır. Həmin qalanın adı Qız qalası qalır.

## *QIZ QALA*

Bu qala bir quraqlıqda yerləşirmiş. Bir cavan oğlan gözəl bir qıza aşiq olur və elçi göndərir. Qızın şərti isə bu olur ki, kim bu səhralığa su çəkdirsə ona ərə gedəcəkdir. Oğlan gecə-gündüz nə qədər çalışırsa, ora su çəkdirə bilmir. Çünki qeyri-müşküldür. Oğlan su çəkdirə bilmədiyi üçün hiyləyə əl atır və həmin səhraya şüşə düzdürür. Qıza xəbər çatır ki, bəs su çəkilmişdir. Qız suya baxmaq üçün çıxır. Lakin həmin gün günəş çıxdığından şüşələr qızın gözünə işıq salır. Qız hiyləni başa düşür və acıqlanır. Heç kəs ora su çəkdirə bilmədiyi üçün qız da şərtinə əməl edir və heç kəsə ərə getmir.

## *QIZ QALASI*

Rəvayətə görə bir oğlanla bir qız bir-birlərini çox sevirlərmiş. Bu sevdanın xəbəri xana çatır. Xan qoca olsa da qızı görəndən sonra ona vurulur. Lakin qız ona məhəl qoymur. Xan xainlərin əli ilə oğlanı öldürtdürür və yasda qıza təklifini bildirir. Qız əlacsız qalıb xanın qarşısında şərt qoyur ki, onun üçün bir qala

tikilsin. Qala tikilib başa gəlir. Xanla qız qalaya tamaşa etməyə gəlirlər. Qalanın üstünə qalxan qız deyir ki, fikirləşirdim ki, qala tikilənəcən ölərəm. Lakin mənim sözüm yoxdur. Qız özünü qaladan atıb həlak olur. Qızın məhəbbətinə, sadiqliyinə ehtiram edən camaat qalaya qızın şərəfinə "Qız qalası" adını verirlər.

# *BULAQLAR HAQQINDA*

## *ПЯРИ БУЛАЬЫ*

Гарабаь елатында малдарлыгла мяшьул олан, кючяри щяйат tərzi кечирян бир киши вармыш.

Gün gəlir, elat camaatına bəla üz verir. Onlar ağır xəstəliyə tutulurlar. Чох ъаванлар муразы эюзцндя вахтсыз-вядясиз щяйата эюз йумур. Кясилян гурбанлар, охунан дуалар, верилян нязир-нийазлар юлцмцн мяшум kюлэясини гапылардан чякиндиря билмир.

Həmin kişinin qızı Pəri də bu xəstəliyə tutulur. О, Пярини чох тябибя, лоьмана эюстярир, amma гызын дярдиня ялаъ тапа билмир. Гыз эцнdən-эцня саралыб-солур. Ата-ана она гуллуг эюстярмякдян йорулуб ялдян дцшцрляр, анъаг гызын щалына щеч тяфавцт елямир. Пяри ата-анасыны ялдян салдыьы кими, юзц дя юз ъанындан безиб usanır. Юлцмцn тез gəlməsini арзулайыр. Щамыны язабдан гуртармаг истяйир. Анъаг юлцм ня арзуйа, ня дя щядя-горхуйа бахыр, о юз вахтында эялир.

Щавалар дцзялир, елат йайлаьа кючмяйя башлайыр. Пяринин атасы да хястя гызынын арабасыны кючдян айырмыр. Йайлагда да Пяринин вязиййяти дяйишмир.

Онун юлцмя аъыьы тутур, юзц щалына янъам чякмяйи гярара алыр. Думанлы-чискинли эцнлярин бириндя Пяри кючяри елатдан араланыр. Хейли мцддят йол эедир. Эюзял мянзяряли йерлярдян кечир. Nəhayət, чох эязиб доландыгдан сонра эюзял бир эушяйя эялиб чыхыр. Бурада щяр шей Пяриnin хошuna эялир. Беля ки, тураълар, кякликляр ондан гачмыр. Пяри щисс едир ки, аълыг ону ялдян салыр, мяъбур олуб йабаны битkилярдян йемяйя башлайыр. Валдырьан, шещлик оту, гузугулаьы вя йемлик onun иштащаsını daha da артырır. O, su ичмяк истяйир. Бир аз ашаьы еnir və эюзял бир булаьын ахдыьыны эюрцр. Булаьын дашлары ъаьам баьламышды. Ятрафында эюзял чичякляр, балдырьанлар, гантяпярляр, шещлик отлары, йемликляр бу булаьа xüsusi bir эюзяллик верир. Пяри бцлбцлцн няьмясиня гулаг асыб дейир:

Ня фяган едирсян, бичаря бцлбцл!
Бир эцлцм айрылыб эцлшяндян айры,
Аьлымы башымдан тягайил етдин,
Шягайин ачылмаз чямяндян айры.
Сирр сюзцн ачмаьа сирдашларын вар,
Сянин аьыр елин, гардашларын вар,

Мяним цзцм эцлмяз йар сяндян айры.

Пяри булаьа йахынлашыб шяффаф судан дойунъа ичир. Бирдян-биря юзцндя йцнэцллцк щисс едир. Beləliklə, bир нечя мцддят Пяри бу судан ичир вя дярман битkиляриндян йейир. Артыг Пяри там саьалыр. Яввялки хястялиуindən ясяр-яламят галмыр. Bir gün Pəri bulağın üstə yatır.

Бу заман нурани бир гоъанын йолу бурадан дцшцр. О, узагдан булаьын башында бир гаралты эюрцр вя оna йахынлашыр. Гоъа гызы йухудан ойадыb сорушур ки, гызым, тяк-тянща бурада ня эязирсян? Пяри башына эяляни нурани гоъайа сюйляйир. Гоъа:

- Гызым, бцтцн елатын хястяликдян, юлцм-итимдян щяйаты позулуб. Дейиб-эцлмяк йоха чякилиб. Гям-кядяр мейданда ат ойнадыр. Йухуда эюрмцшям ки, бу торпаьын эцлц-чичяйи, дярман отлары, сярин булаьынın суйу хястяляря щяйат верир. Хейли вахтдыр ки, чюлляря, мешяляря дцшцб щямин йери ахтарырам. Тез ол, сяни щяйата гайтаранлары, сяня шяфа верянляри мяня də эюстяр.

Пяри йедийи дярман битkиляринин адыны vә ичдийи суйу она эюстярир. Гоъа бундан чох севинир vә ondan сорушур:

- Гызым кимлярдянсян?

Пяри ата вя анасынын адыны гоъайа сюйляйир. Qoca qızı evlərinə aparmağa söz verir.

Bir gün Пяринип ата-анасы узагдан ики гаралтынын онлара тяряф эялдийини эюрцрляр. Onlar əvvəlcə эюзляриня инанмырлар. Эялян Пяри иди. Гуъаглашыб юпцшцрляр. Севинъляриндян йеря-эюйя сыьмайан валидейнляр нурані гоъайа дюня-дюня миннятдарлыгларыны билдирирляр. Шад-хцррям гызларыны эютцрцб обаларына гайыдырлар. Пяринин саьалыб эялдийини ешидян елат ъамааты онлара эюзайдынлыьы верир. Еля о вахтдан da щямин булаьын ады «Пяри булаьы» галыр.

## *НИЭАР БУЛАЬЫ*

Ниэарın йашадыьы кянд уъа даьларын дюшцндя йерляширди. Кяндин щавасы тямиз, инсанлары мещрибан вя гонагсевяр иди. Бу

кяндин гярибя бир адяти вардı. Кяндин ъаванлары башга обадан гыз алмıгдылар. Гызлар ися башга йерин оьланларына яря этмяздиляр. Бу ата-баба адяти щеч вахт позулмазды.

Бу кяндин кянарында щямишя йай фяслиндя арандан гонаглар эялиб ики-цч айлыьына мяскян салардылар. Бу йайлаьа нечя илляр иди ки, бир çобан да эялирди. О, обанын мал-гарасыны отарарды. Оьланын ады Ъамал иди. О, Ниэары щяля ушаглыгдан таныйырды. Гялбиндя она гаршы эизли бир мящяббят йашайырды. Ниэар ися артыг бойа-баша чатмышды. Ъамала гаршы онда да мещрибанлыг йаранмышды.

Севэи аловлары этдикъя гызышыр, онлар бир-бирини даща çох севирдиlәr. Nәhayәt, bu hiss ъаванлары ъцрятя эятирди, эюрцшдцляр, бир-бириндян айры йашамайаъагларына ящд-пейман баьладылар. Ниэары юз кяндляриндян Мящяммяд адлы бир оьлан да севирди. Мящяммяд Ниэарын Ъамалла эюрцшдцйцнц ешидир.

Неъя ола биляр ки, онун севдийи гыз ата-баба йолуну азыб башга йола гядям гойа. Мящяммяд кими бир ъаваны елин тяняси алтıнда хяъалятдян яридиб йоха чыхарда...

Мящяммяд онлардан дящшятли интигам алмаг гярарына эялир. Ниэарла Ъамал эюрцшяркян гяфлятян Ниэары охла вуруб гачыр. Ниэар Ъамалын голлары цстцня йыхылыр.

Йараланмыш qızın ешги даща да аловланыр. Йана-йана севэилисиня дейир:

- Дейирляр мящяббят инсаны хошбяхт едир. Бяс биз нийя хошбяхт олмадыг? Цряйим йанды, су!

Чюл дя ики ашигин гялби кими йаныр, Ъамал торпаьа йалварыр:

- Су!

Онларın гана булашdığı йердя торпаг нямli olup. Su istəyən ашигляр гуршаьа гядяр даша дюнцрляр.

Ниэар:

- Дейирляр мящяббят инсаны эюйя галдырыр, бяс биз нийя йерин тяркиня енирик? Цряйим йанды, су!

Ъамал йеня торпаьа йалварыр:

- Су!

Ашиглярин айаглары алтындан цряк сяринлядян бир булаьын сяси, сядасы, няьмяси ешидилир. Бу дяфя севэилиляр боьаза гядяр даша чеврилирляр.

Ниэар:

- Дейирляр мящяббят дцнйадан бюйцкдцр. О, щяр йаны эязиб долашыр. Бяс нийя бизим севэимиз бир обадан кянара чыха билмяди? Цряйим йанды, су!

Ъамал да сон дяфя наля чякир:

- Су!

Щамыйа, щяр шейя щяйат верян булаг ашиглярин севэиси, арзусу кими ятрафа ъар олур. Лакин тамам даша дюнмцш ъаванлар ондан ичя билмирляр.

Гоша дашын дибиндя чаьлайан булаг шырhашыр ахмаьа башлайыр. Суйун шырылтысы санки Ниэар-Ъамал чаьырыр.

## *ДАМЪЫ БУЛАГ*

Кечмиш заманларда бир касыб оьлу ilə варлы гызы bir-birlərini севирdi. Лакин гызын ата-анасы севэилиляри говушмаьа гоймурdu. Чарясиз галан оьлан юзцнц гайадан атыb, юлцр. Гыз ися щеч кяся яря этмир. О, щяр эцн щямин гайанын башына чыхыб дойунъа

аьлайыр. Илляр ютцр, гыз да дцнйадан кючцр. Sонpalar щямин гайа дибиндян эюз верир, дамъы-дамъы аьлайыр. Sanki, іки севэилийя, накам мящяббятя, дцз ящд-илгара yas saxlayır.

## *TAVAD BULAĞI*

Kəlbəcər rayonunun Soyuq bulaq adlı bir kəndi var. Həmişə el-köçəri xalqlar dağlara, yaylaqlara getdiyi zaman bu kəndin camaatı da bu yaylağa çıxardı. Burada Tavad adlı gözəl bir qız var idi. Tavad da bütün qızlar kimi bulaqdan su gətirərmiş. Bir gün qızlarla bulağa gedəndə Tavadı bir çoban görür. Çoban bu qıza vurulur. Tavadın da çobandan xoşu gəlir. Hər gün qızlarla bulaq başına gedən Tavad indi qızlar çağıranda ki, bulağa gedirik. Tavad deyir:

- Hələ mən getmirəm, siz gedin.

Bir neçə gün Tavad qızlarla getmir. Tavad çobanla vədələşir vaxt qoyur. Yenə Tavad təkcə bulaq üstə gəlir. Çoban isə Tavadı bu bulağın üstən götürüb qaçır. Həmin zamandan Soyuq bulaq kəndi bu bulağa “Tavadın bulağı”, - deyir. İndi də bu kəndin körpə uşaqlarından tutmuş, böyüklərinə qədər hamı bu bulağa “Tavadın

bulağı" deyirlər. Köçəri xalqlar da bu bulağı "Tavad bulağı" kimi tanıyır.

## *MARAL BULAĞI*

Belə rəvayət edirlər ki, Maral adlı çox gözəl bir qız vardı. Marala hər tərəfdən elçi gəlirdi. Lakin o, Cahangir adlı bir oğlanı sevir. Cahangir yoxsul olduğundan Maralın ata-anası qızı ona verməyə razı olmur. Maral isə ata-anasından xəbərsiz Cahangirlə birlikdə dağlara çəkilir. Həsən ağanın oğlu qoşun toplayıb, Maralgilin evlərinə gəlir, lakin Maralı evdə tapmırlar. Cahangirin dalınca düşürlər. Cahangir də çox qüvvətli olur. O, Həsən ağanın qoşununun içinə ac bir qurd kimi cumur, hərəsinin qolundan tutub bir yerə tullayır. Həsən ağanın qoşunu Cahangiri kənardan oxa tutur. Ox Cahangirin sinəsinə, kürəyinə sancılır. O "Maral", - deyib yıxılır.

Maral dağlara üz tutur. Gedib bir qayanın dibində oturub, göz yaşları axıdır. Maralın göz yaşlarından bir bulaq yaranır.

Elə o zamandan həmin bulaq "Maral bulağı" adlanır.

## *PƏRİ BULAĞI*

Keçmişdə Sarı kişi adlı məşhur dövlətli bir şəxs var imiş. Arvadı və özündən başqa heç bir kəsi yox imiş. Ay-il dolanır, Sarı kişinin gözəl bir qızı olur. Aydan-günəşdən parlaq olan bu körpəyə Pəri adı qoyurlar.

Pəri, doğrudan da, gözəlliklər timsalı olaraq dildən-dilə düşür. Qız böyüdükcə ağıllı, kamallı bir növcavan olur.

Sarı kişi qızını ovundurmaq üçün kasıb Gülpəri nənənin səkkiz yaşlı nəvəsi Həsrəti evə gətirib onu da saxlayır. Uşaqlar bir-birinə isinişir, höyürləşirlər, hətta yeməklərini də iştah ilə birgə yeyirlər.

Aylar, illər ötüşüb keçir, uşaqlar boya-başa çatırlar. Həsrət Pərinin dediyi hər bir işi tezcə həyata keçirib onu razı salır.

Bir neçə ildən sonra hər ikisi gənclik bulağından su içməli olur. Həsrət Pəriyə dərin məhəbbət yetirir. Pəri də Həsrət üçün saralıb-solur. Ancaq heç biri bir-birinə məhəbbətini açıb söyləyə bilmir. Atasından qorxan Pəri məhəbbət

oduna yandığını anasına da deyə bilmir. Sirri ürəyində pünhan qalır.

Bir gün Pəri ilə Həsrət yaxınlarındakı bulaqdan su gətirmək bəhanəsi ilə ora gedirlər. Təbiət rəngli xalılarını bulağın başına sərmişdi. Çiçəklər bir-birinə sanki göz vururlar. Hər ikisi bu gözəlliyə valeh olmuşdular. Həsrət bəyəndiyi çiçəklərin birini qoparıb Pəriyə verdi və dedi:

- Al, bu mənim ürəyimdir.

Pəri utana-utana çiçəyi dodaqlarına yaxınlaşdırdı, sonra ürəyinin başına sıxdı.

Həsrət sevinə-sevinə qızın bütün hissiyyatını anlayıb ona yaxınlaşaraq:

- Pəri, mən səni canımdan əziz bilirəm, könlümü səndən başqasına verməyəcəyəm, - dedi.

Pəri də oğlanın dediyi sözləri ürəyində təkrar etdi. Get-gedə məhəbbət dərinləşdi, ürəklərində kök atdı.

El yaylağa gedən zaman Pəri bərk xəstələndi, ölümlə əlləşdi. Həsrət qızın yatağından uzaqlaşmırdı. Ata, ana qızının bu ağır xəstəliyindən əzab çəkirdi.

Ana qızının əhvalatından az-çox xəbərdar idi. O da qorxusundan ərinə heç bir söz deyə bilmirdi.

Yayın isti günləri havanı bərk qızdırdığından camaat yaylağa getməyə tələsirdi. Sarı

kişinin dostları və qonşuları xəstə qızın yaylağa aparılmasını məsləhət gördülər. Sarı kişi razı oldu, tədarük görüldü. O da qonşular ilə birlikdə köçə hazırlaşdı və ay doğanda birgə yola düşdülər.

Həsrət ilə Pərinin ilk dəfə bir-birinə məhəbbət açdıqları bulağa yaxınlaşdıqda Pərinin vəziyyəti gərginləşdi. Arabalar dayandı. Ata, ana və Həsrət qan-yaş tökdülər. Pərinin xəstəliyi həkimlərin dediyinə görə "Sər"(baş) xəstəliyi idi. Pəri azca gözünü açaraq su istədi. Ana bulaqdan bir qab su doldurub qızına verəndə qız gözaltı Həsrətə baxdı. Həsrət suyu anadan alıb Pəriyə içirtdi. Xəstə gözlərini qapadı, bu son damla su sanki onun axırıncı qisməti imiş. Huşunu tamamilə itirmişdi. Meşəni ağlaşma bürüdü. Həsrət özünü itirmədi. Tez yorğanı qızın sinəsindən bir qədər araladı, üzünə azca sərin su səpələdi. Qız gözlərini yavaş-yavaş açmağa başladı.

Ata, ana qızının başına dolanaraq:

- Ölümün bizə gəlsin bala, – dedilər.

Sarı kişi vəziyyəti gərgin görüb qonşuların yaylağa getmələrini xahiş etdi və özünün sonra gələcəyini söylədi. Hamı arabalarını işə salıb yollandı, ancaq Sarı kişinin yaxın sirdaşı olan İsmi adlı bir kişi burada qaldı. İsmi məsləhət

gördü ki, qız yerindən tərpənməsin. Onu tərpətmək olmaz.

Həsrət uzun fikirdən sonra Sarıya yaxınlaşdı. Onun gözləri yaşla dolmuşdu. Ürəyindəki sözü açıb deməyə cürət etmirdi. Həsrət bütün qorxunu unutdu. Ona yenidən cürət gəldi. Yalvara-yalvara Sarı kişinin ayaqlarına sarıldı və aşağıdakı misraları söylədi:

*Eləmi Pəri yaylasın,*
*Xəstədir, səri yaylasın.*
*El-oba yaylağa getsin,*
*Pəri bulaqda yaylasın.*

Kişi oğlanın dediklərinə məəttəl qalıb dedi:

- Bala, mən səni qızım qədər sevirəm. Xəstəni bu çölün düzündə qoyub mən hara gedə bilərəm? Pəri can üstədir. Onu tək qoymaq mənə yaraşmaz.

Həsrət Sarı kişinin mülayim sözlərini və guya məhəbbətdən onun da xəbərdar olduğunu bilib daha da ürəkləndi. O, vəd etdi ki, qızı Əzraildən alıb sağaldacaqdır. İsmi ilə Sarı kişi onlardan aralanıb məsləhətləşdilər və qərara gəldilər ki, çadır qurulsun xəstə bulaq üstə qalsın. Belə də oldu.

Bir neçə gün Sarı kişi ilə İsmi yaylağa getməyib burada qaldılar, ancaq qızın yaxşılıq yönü yox idi. Həsrətin təkidi ilə onlar da yaylağa getdilər.

Həsrət çöldəki otlardan, çiçəklərdən, el-arası bildiyi dərmanlar hazırladı. Qızı müalicə etdi. Get-gedə Pərinin vəziyyəti yaxşılaşdı. Xırdaca quşlardan, dağ meyvələrindən yemək hazırlayıb Pərini cana gətirdi. Bu işdə Gülpəri nənənin də rolu az olmadı. Həftələr, aylar ötüşdükcə Pəri dirçəlirdi. Pərinin yaxşılıq sədası yaylağa yayıldı. Hamı bu gözəl qızın səhhəti üçün dua edirdi. İsmi əmi Sarı kişiyə yaxınlaşıb dedi:

- Ay Sarı, Pəri həm sənin qızındır, həm də mənim. Gəlsənə el dağdan qayıdanda Pəri ilə Həsrətin toyunu edək. Axı, o sənin balanı ölümün pəncəsindən xilas etdi, özü də görürəm Həsrət qızı bərk sevir. Sarı kişi qımışdı, başı ilə razılıq işarəsini verdi. Ana sevindiyindən ağlayırdı. El bu əhvalatı da eşitdi. Hamı razılığını bildirdi. Yaylağın çiçəkləri get-gedə öz təravətini itirməkdə idi.

Yaylağa gedənlər kömbədən, qatlamadan hazırlayıb köçməyə tədarük gördülər. Bir neçə gündən sonra Pəri xəstələnən bulağın üstündə qonşular arabalarını açdılar. Gülpəri nənə

dərman otlarından hazırladığı çayı yandırdığı ocaqda isti saxlayırdı. Ata, ana Gülpəri nənəyə yaxınlaşıb dedi:

- Salam, ay Gülpəri nənə. Uşaqlar hanı, yanında yoxdur. Sənin çəkdiyin zəhmətin qiymətini verərəm.

-Başına dönüm, ay Sarı, odur bax, uşaqlar moruq yığır. Qız da lap gümrahlaşıb. Bütün dostların işi bizimki kimi avand olsun.

Bu aralıq Həsrətlə Pəri əllərində yığdığı çiçəkləri sahmana salaraq köçə yaxınlaşdılar. Pəri gözəlləşmişdi, ətə-qana gəlmişdi. Həsrət Sarı kişiyə yaxınlaşıb əvvəlki bayatını təkrar etdi:

*Eləmi Pəri yayladı,*
*Xəstəydi səri yayladı.*

*El-oba yaylağa getdi,*
*Bulaqda Pəri yayladı.*

Sarı kişi qızını və Həsrəti qucaqlayıb, hər ikisini öpdü. Cavanların saf məhəbbətini duyan ata həmin bulağın başında qırx gün, qırx gecə Pəri ilə Həsrətə toy çaldırıb, onlara xeyir-dua verdilər.

Elə o gündən təbiətin qoynunda özünə yollar açan, sərt qayalardan süzülüb keçən bu bulağın adı "Pəri bulağı" qaldı. Kim bu sudan içərsə, gözlərinə işıq, canına şəfa gələr.

## *MƏRCAN BULAĞI*

Füsunkar Qarabağın cənub ətəklərindən Xan Araza doğru neçə-neçə kiçik çay axır. Köndələn, Quruçay, Çərəkən, Qozluçay ... Babalarımız bu çaylara adətən poetik adlar qoymuş, bu çayların adı ilə neçə-neçə bayatılar, qoşmalar, nağıllar, əfsanələr yaratmışlar. Bu kiçik çaylara öz büllur, göz yaşı kimi təmiz sularını qatan, səssiz-küysüz axışı ilə diqqəti cəlb edən özünəməxsus gözəlliyi ilə insanların baxışını oxşayan bulaqların da şəninə xalqımız nəğmələr qoşmuş, əfsanələrin şirin məzmununa onların da adlarını əlavə etmişlər: "Bulağın əfsanəsi", "Üç bulaq əfsanəsi", "Yeddi bulaq əfsanəsi"...

Yazda, payızda sarı sellərdən qızılı rəngə çalan, qışda axan, gah donan, gah da quruyan, yayda isə daşı, qumu əl yandıran, üz qarsıdan Quruçayın sol sahili boyunca yuxarı, Dördçinar kəndinin arxasındakı yastı dağların ətəkləri ilə sallanıb gedən ot basmış cığırlarla üzü yuxarı –

Ziyarətdağ silsiləsinə doğru irəlilədikcə birdən özün də bilmədən zəif sərin mehə düşürsən. Bu mehi yaradan, bir parça yaşıllığın içərisində görünməz olan, göz yaşı kimi saf suları ilə Vətən torpağının əl boyda bir yerində nəğmə deyən, zümzüməli bir bulağa rast gəlirsən: Mərcan bulağı....

Biz üç rəfiqə - Sədaqət, Rəna və Xuraman bir dəfə yenə həmin bulağa sarı gedirdik. Bulaqdan xeyli aralıda qoyun sürüləri vardı. Ağsaqqal, nuranı bir kişi bulağa tərəf gəlirdi. Biz qoca çobanı yaxşı tanıyırdıq. Bu Kərim baba idi. Həmişə dağ havasında, çöldə, bayırda olduğundan çöhrəsi qırmızı, bəlkə də bir qədər sərt idi. Bizi görcək tanıdı və gülümsədi:

- Yaxşı gəlin, balalarım! – dedi.

Biz görüşdük, hal-əhval tutduq. Kəndimizdə böyük də, kiçik də bilirdi ki, Kərim babagil nəsillikcə çoban olub, nəvələri ali təhsil alıb, amma yenə qoyun sürüsünün arxasındadır. Ali təhsilli baş çoban! Kərim baba bizə həmişə deyərdi ki, naxırçı əppəyi, çörəyi dünyanın ən halal çörəyidir.

Biz hərdən dağlar qoynuna, Kərim babanın yanına gələr, olub-keçmiş haqqında söz-söhbətinə qulaq asar, şirin-şəkər nağıllarının əsirinə çevrilərdik.

Bu gün isə qoca çobana əziyyət vermək istəmirdik. Adi söhbətlə onun yaxasını tez buraxmaq fikrindəydik. Lakin söz-sözü çəkdi, fikir-fikri. Hamımızı elə bil birdən düşündürdü ki, görəsən bu bulağa nə üçün məhz "Mərcan bulağı" adını veriblər? Nə sularında Mərcan var, nə də ətrafında.

- Balalarım, - deyə, Kərim baba bizim maraq dolu baxışlarımıza biganə qala bilmədi, - bu bir kiçik rəvayətdir: "Mərcan bulağı"nın əfsanəsi.

Kərim babanın dalğın baxışları batmaqda olan yaz günəşinin ardınca uzaqlara – sıldırım qayalara dikilmişdi. Biz iri sal qaya parçasının üstündə oturub Kərim babanın nağıl dünyasına qapılmışdıq. Əfsanənin ardınca uzaq-uzaq illərə qayıtmışdıq...

Deyilənə görə bu yerlərdə Sultan Səlim adlı bir əzazil xan varmış. Onun üç oğlundan ən kiçiyinin adı Şahmarxan imiş. Şahmarxan şahmar ilan kimi hamını çalarmış. Gözünü oxşayan bir gözəl görəndə, atlanıb arxasınca düşər, utanmadan eşq elan eləyər, ata-anasını hədələyər: - Onu mənə verməsəniz, külünüzü göyə sovuraram, - deyərmiş. Kənddə heç kim ona gözün üstündə qaşın var deyə bilməzdi. Hamı bilirdi ki, Şahmar xan nə dedi, onu da edəcək.

Günlərin bir günündə Şahmarxan başının atlıları ilə bu bulağın ətrafında quş ovuna çıxıbmış. Bir də görür ki, çiynində səhəng altı qız bulağa sarı gedir. Əvvəlcə məhəl qoymur. Qızlar bulaqdan qayıdanda başqa bir mənzərə ilə qarşılaşır. Xurmayı qoşa hörükləri kürəyində ilan kimi sallanan bir qız öz utancaq görkəmi və ürkək baxışları ilə onu tilsimə salır.

- Ay qız, sənin adın nədir? – deyə Şahmarxan qızın qabağında dayanır. Qız cavab vermədən ötüb getmək istəyir. Lakin Xan oğlunun sərt səsindən titrəyən qız:

- Mərcan, - deyə cavab verir.

- Sən mənim yarım olacaqsan, - deyə Şahmarxan meydan oxuyur.

Ətrafındakılar:

- Qızın nişanlısı var, onaÇoban Bəhmənin oğlu Aslan, – deyərlər.

- Belə gözəl ancaq xan nəslinə yaraşar. Gədə-güdə bizim qarşımızda at oynada bilməz - deyə bir göz qırpımında Mərcanı yerindən qaldırıb, at belinə basıb dağların arxasından itirlər.

Şahmarxanın Çoban Aslanın nişanlısı Mərcanı götürüb qaçması xəbəri bütün kəndi və qonşu obaları bürüyür.

İntiqam eşqilə alışıb-yanan Aslana məsləhət görürlər ki, xan oğlu quduz canavardır, onunla görüşə tələsmə. Hər gün qoyun-quzunu bulağın üstündə otarıb Mərcanın yolunu gözləyən, nişanlı da olsa bir dəfə onunla ürəkdolusu görüşüb söhbət edə bilməyən Aslan yaxşı bilirdi ki, Mərcan ölər, amma əğyara könül verməz.

Aslan günlərin bir günü geyindi, keçindi yaraqlandı, oba keçdi, el adladı, Şahmarxanın kəndinə gəlib çıxdı. Axşamüstü su dalınca çaya gedən bir dəstə qıza yan aldı. Həyəcanını bildirmədən Mərcanı soruşdu. Qızlar Mərcan adını eşitcək diksindilər. Oğlanın kim olduğunu soruşdular. Aslan Mərcanın yaxın qohumu olduğunu söylədi. Qızlar qəhərləndilər. Onlardan biri göz yaşlarında boğula-boğula dedi:

- Qardaş, mən bilmirəm, sən onun nəyisən, qardaşı, yoxsa... Mərcan Şahmarxana təslim olmaq istəməmiş və özünü məhv etmişdir. Bu gün bir dəstə atlı onun meyitini ailəsinə təhvil vermək üçün yola düşüb. Necə olub ki, siz yolda onlara rast gəlməyibsiniz?

Aslanı intiqam hissi bürüdü. Havanın qaralmağını gözlədi. Atını obaya yaxın bir yerdə hörüklədi. Soraq edə-edə xan oğlunun evini tapdı. Qaranlıqda güclə görünən mehtəri səslədi.

Mehtər ona yaxınlaşıb gəlişinin səbəbini soruşdu. Aslan cavab verdi:

- Uzaq eldən gəlmişəm. Xanoğlunun dostundan salam gətirmişəm. Xəbər verin ki, bir nəfər həyətin aşağısında sizi gözləyir.

Mehtər bu xəbəri nökərə-naibə bildirmədən xan oğluna çatdırdı və dedi ki, qonaq geyimindən-keçimindən xanzadələrə oxşayır.

Şahmarxan ağlına heç bir şey gəlmədən həyətin sonundakı irigövdəli tut ağacının altına tərəf getdi. Aslan bir göz qırpımında onun qabağında dayandı. Xan oğlu amiranə səslə:

- Gədə, sən kimsən? Nə istəyirsən?

- Gədə, sizin kimi alçaq, binamus, şərəfsiz adamlara deyiblər. Namusu it də yeməz. İntiqam yerdə qalmaz. İndi öl, köpək oğlu, sənə xan oğlu, mənə çoban oğlu deyərlər. Səni it balası kimi öldürüb meyitini el yoluna atacağam ki, hər gəlib-gedən sənin cəmdəyinə tüpürsün.

Aslan əvvəlcədən hazırladığı yoğun əl ağacı ilə xan oğlunu vurub yerə sərdi. Al-qana bulaşmış meyiti yola, ayaqlar altına atıb ata yaxınlaşdı və bir göz qırpımında obadan uzaqlaşdı.

Mərcanı Dördçinar kəndinin yaxınlığında, bulağa baxan dağın ətəyində dəfn etdilər. Aslan son dəfə ata-anası, qohum-əqrəbası ilə görüşdü,

vidalaşdı və üzünü dağlara tutdu. Mərcanın qəbrini qucaqladı, dəsmala onun məzarından bir ovuc torpaq büküb heybəsinə qoydu. Ondan sonra neçə-neçə illər keçdi, Aslanı görən olmadı. Kənddə danışırdılar ki, o hardasa sağdır.

Bulağın adını ona görə "Mərcan" bulağı qoydular ki, çoban Aslan ilk dəfə Mərcana bu bulağın başında vurulmuş, aşiqlər bir-birinə öz eşqini bu bulağın başında söyləmişdilər. Bulaq Mərcandan öz el-obasına bir yadigar kimi qalmışdır.

## *PƏRİ ÇEŞMƏSİ*

İrəvanın Qaraqoyunlu dərəsinin birində gözəl və dadlı suyu olan bir çeşmə var. Keçmişin rəvayətinə görə Azərbaycan Respublikasının Aran rayonlarından olan bir çoban qoyun sürüsünü həmin çeşmənin ətrafında yerləşdirir. O, çeşmənin suyunun təmizliyinə və bəzi xəstəliklərin dərmanı olduğuna görə çobanın həyat yoldaşı o sudan içəndən sonra qızdırma xəstəliyindən sağalır. Ona görə çobanın qəlbi şadlanır və həmin çeşməyə bir şeir deyir. Çobanın arvadının adı Pəri olur.

*Eləmi Pəri səndə,*
*Qalyanın səri səndə.*
*El köçsün arana getsin,*
*Yaylasın Pəri səndə.*

Ona görə də həmin gündən o çeşmə “Pəri çeşməsi” adlanır.

## *QIZ BƏNÖVŞƏ*

Qız Bənövşənin yaranması qoca nənə və babalarımızın rəvayətinə görə aşağıdakı kimi olmuşdur.

Keçmişdə Qudyal çayı ətəyində bir bəy yaşayırmış. Bəyin çoxlu mal-qarası, varı və Yetim adlı bir çobanı varmış. Yetim bütün gününü otlaqda keçirərdi. Bəyin üç oğlu və Bənövşə adlı qəşəng bir qızı vardı. Qız həmişə evlərindən bir az uzaqda olan bulaqdan su götürərmiş.

Yetim sürünü suya gətirən zaman Bənövşəni görür və ona vurulur. Bənövşə də bunu hiss edir və onlar bir-birlərini sevməyə başlayırlar. Bəyin adamları xəbər tuturlar ki, Bənövşə ilə Yetim görüşürlər. Bunu eşidən bəy əvvəlcə

inanmır. Sonradan bunun həqiqət olduğunu görüb, onları izləməyə başlayır. Bulaq başında Yetim ilə Bənövşə görüşən zaman, bəy onları tutur və elə buradaca qılıncını çıxarıb qızını al-qana boyayır. Yetim isə hadisəni görüb qaçır. Elə bu vaxtdan bulağın adı "Qız Bənövşə" qalır.

## *ŞAHBULAQ*

Ağdam rayonunun Şahbulaq daş karxanasının yerləşdiyi yerdə böyük bir dağın ətəyində gur bir bulaq axır. Bu bulağın adı Şahbulaqdır. Ağdam rayonunda yaşayan Kərim adlı 75 yaşlı qoca bir kişi belə nəql edir ki, Şah Abbasın zamanında yaranmış bulaq Şah Abbasın adıyla bağlı olubdur. Həmin bulağın yanında keçmiş dövrdən qalmış bir qalaça var. Orda Şah Abbasın karvansarayı var imiş. Yoldan köç edən adamlar orada axşamlayırmışlar. Buna görə də həmin bulağın adı "Şahbulaq"dır.

## *DAMCILI BULAQ*

O vaxtın adət-ənənəsinə görə gəlin üzünü hamıdan gizlətməli, çarşaba bürünməli idi. Gün-

lərin bir günü bir gəlin qaynatasının evdə olmadığından istifadə edib başını yumaq istəyir. Suyu isidib saçını açır. Çöldə başını yumağa başlayır. Elə bu vaxt qaynatası evə qayıdır. Bunu görən gəlin çaşıb qalır. Darağını başına sancıb, çarşabını axtarır. Nə qədər axtarırsa tapa bilmir. Axır görür ki qaynatası ona lap yaxınlaşır, amma onun başı açıqdır. Əlacsız qalan gəlin üzünü Allaha tutub yalvarır ki, ay Allah, məni ya daş eylə, ya da quş eylə. Allah gəlinin sözünü eşidib onu daşa döndərir. O vaxtdan "Damcılı bulağı" yaranır. Həmin damcılar onun saçlarının suyunun nişanəsidir.

Başqa bir rəvayətə görə isə gəlin quşa (hop-hopa) dönür ki, onun başındakı tomağası isə daraqdır.

## *KƏRƏM BULAĞI*

Azərbaycanın dağlıq rayonlarından biri olan Laçın rayonu özünün füsunkar təbii gözəlliyi ilə adamı heyrətə salır. Laçının qoynu qədim abidələrlə və əsrlər boyu xalqın hafizəsində yaşayan ölməz əfsanələrlə doludur. Belə əfsanələrdən biri rayonun Qarakeşiş kəndində yaşa-

maqdadır. Bu əfsanə “Kərəm bulağı” adı ilə məşhurdur. Əfsanənin nəyə görə “Kərəm bulağı” adlandırıldığı müxtəlif rəvayətlərlə bağlıdır.

Əfsanədə adı çəkilən Kərəm məhəbbət dastanı olan “Əsli və Kərəm”dəki aşiq Kərəmdir. Məlumdur ki, xanlıqlar dövründə Gəncə ayrıca bir xanlıq idi. Başqa əyalətlər kimi Laçın da bu xanlığın tabeliyində imiş.

Laçın o dövrdə ürəkaçan göy yaylaqlardan biri kimi şöhrət tapmışdır. Məhz buna görə də Laçın xanların və bəylərin eyş-işrət və dincəlmək məkanı olmuşdur. Gəncə xanı adəti üzrə yay aylarını Laçında dincələrmiş. Ziyad Xanın oğlu Kərəm də onlarla birlikdə olarmış. Onlar Laçının Qarakeşiş kəndində özləri üçün yay evləri tikdirmişlər. Rəvayətə görə Kərəm həmin Qarakeşiş kəndindəki “Kərəm bulağı” adlanan bulağın kənarında yatır, yuxusunda Əsli adlı bir qıza vurulur. O, yuxudan ayılarkən yuxuda gördüyü qızı axtarmağa başlayır. Beləliklə, həmin vaxtdan etibarən bulaq “Kərəm bulağı” adlanır. İndiki Qarakeşiş kəndi isə Kərəmin sevgilisi Xan Əslinin atası Qarakeşişin adı ilə bağlıdır.

## *KƏRƏM BULAĞI*

Kərəmi bir bulağın başında yuxu tutur. O, yuxuda Əslini görür. Yuxuda deyilir:

- Kərəm, bu bulaq sənin bulağındır. Yuxuda gördüyün Əsli qız bu bulağa gələcək. O, bu sudan içən kimi sənin eşqinə düşəcək. Sudan sən də iç. Qız yandım-yandım deyəcək, əllərinlə onun üzünə su səp.

- Kərəm yuxudan ayılır. Yuxuda gördüyü qız bulağa gəlir. Sudan içir, Kərəm də su içir. O, əlləri ilə qızın üzünə su səpir. Bulaq Əsli ilə Kərəm eşqinə sanki nəğmələr qoşur, qaynayıb daşır.

Bulağın suyu qat-qat artır. O vaxtdan bulağın adı "Kərəm bulağı" qalır. Deyirlər ki, bulağın üstünə qəlbi pak olmayan aşiqlər gələndə suyu azalır, bulaq oxumur.

Bulağın suyu azalanda camaat indi də bulağın üstünə təzə nişanlanmış qız və oğlan göndərir. Əgər onların eşqi safdırsa bulaq coşur, yeni nəğmələr oxuyur.

## *QOCA OVÇU*

Deyirlər, çox qədimdə bir ovçu varmış. O, dağın yamacında kiçik bir taladakı daxmada yaşayarmış. Tala gül-çiçəklə örtülü, mənzərəli bir yerdə yerləşirmiş. Talanın üç tərəfi meşə, bir tərəfi isə uçurum idi. Uçurumun aşağısında köpüklənə-köpüklənə səs-küylə axan dağ çayı adamı vahiməyə salırdı.

Ovçunun ailəsi böyük deyildi. Bir özü, bir də beş yaşlı oğlu bu daxmada sakit ömür keçirərdilər. Qoca ovçunun arzusu, istəyi bircə oğlunu böyütmək idi.

Ovçu günəş çıxmamış dağlara ov etməyə gedər, bir də axşam qayıdarmış öz Arzu balasının yanına.

Arzu səhər yuxudan oyanar, atasının hazırladığı yeməyi yeyər və daxmanın ətrafında oynayardı. Bəzən də atası ilə ova gedər, dağları uşaq sevinci ilə gəzərdi.

Bir dəfə Arzu daxmanın ətrafında oynayırdı. Bu zaman bir xallı kəpənək gəlib onun yaxınlığında dövrə vurur. Bunu görən uşaq qanadlanır, xallı kəpənəyi tutmaq istəyir. Qaçır kəpənəyin dalınca. Tuta bilmir. Dayanır. Düşünür. Bir də qaçır kəpənəyin arxasınca. Uşaq hiss etmədən uçuruma yaxınlaşır. Bu zaman kəpənək havada mayallaq vurub, bir anlığa dayanır. Bunu görən uşaq əlini uzadır, kəpənəyi tutmaq istəyir.

Torpaq qurtarır. Uşaq ayağı altında boşluğu hiss edən kimi özünə dayaq axtarır. Fəqət köpüklənmiş sular ac qurd kimi onu udur.

Axşam olur. Daxmasına qayıdan qoca ovçu Arzunu görməyəndə təşvişə düşür. Axtarır, axtarır, lakin tapa bilmir və qışqırır:

-Arzu bala! Ay Arzu bala!...

Səsinə qayalar səs verir. Yazıq qoca, xəbərsiz qoca hər daşdan, hər cığırdan oğlunu soruşur.

Ovçu nəhayət bir bulağın yanına çatır. Çığırmaqdan boğazı ağrıyan, səsi kallaşan qoca su içmək istəyir. Bu zaman beyninə gələn fikirdən onu dəhşət bürüyür. Hər gün bu bulaqdan balasına su içirdərdi ovuclarında. Uşağın üzünü yuyar, saçını isladıb darayardı.

Ovçu əlləri şırhaşırla axan suyun altında xeyli beləcə dayanır. O, ani bir nəzərlə göylərə baxır və yalvarışa bənzəyən yanıqlı bir səslə söyləyir:

*Bu dağlar, qoşa dağlar,*
*Verib baş-başa dağlar.*
*Arzu getdi əlimdən,*
*Dönəydim daşa, dağlar.*

İndi Qazax rayonunun Yuxarı Əksipara kəndindəki dağda (bu dağa el arasında "Keçəl dağ" deyirlər) bir bulaq var. Bulağın yanında bir qoca dayanıb. Qoca əllərini axan suyun altına tutub. Su axır, qocanın ovcu dolur, daşıb tökülür. Ancaq qoca suyu içmir. Sanki kimisə gözləyir. Gözləyir ki, oğlu gəlsin su içsin.

## *ƏLƏSGƏR SU İÇƏN BULAQ*

Aşıq Ələsgərə xəbər gəldi ki, qardaşın oğlu İman havalanıb, yerlə-göylə əlləşir.

Aşıq Əlsəgər soruşdu:

- A bala, İman bu gün quzuları otarmağa hara aparmışdı?

Cavab verdilər:

- Çənlibelin ətəyinə.

- Çənlibelin ayağında bir bulaq var, xəbər alın görək onun suyundan içibmi?

Öyrəndilər ki, İman günortaüstü o bulağın suyundan içib.

- A bala, o bulağın tutması var, yeddi ildən bir suyu gömgöy olur. Mən də bilmədim içdim. Hərdən başıma əsər gəlir. İldə üç dəfə başımdan qan aldırıram, yenə də haytam soymur. İmanın

nə canı-cəsədi var ona dözə, onunku bir Allaha qalıb. O bulağın suyu hərdən bir az-maz Göyçə çayına qarışır, ondan bir damcı dilinə dəyən adam, bu dərələrdə əlində saz "yandım-yandım", deyir. O bulaqdan su içəndən özüm bir bulağa dönmüşəm. Bu yanğı canımdan sazıma da keçibdir.

# GÖLLƏR HAQQINDA

***ТАЛЕ ЭЮЛЦ***

Bir oğlanla bir qız təzəcə evlənmişdilər. Oğlan olduqca gözəl, qız isə çirkin idi. Qız hər dəfə güzgüyə baxanda buz kimi əriyirdi. Oğlan isə qızı bir mələk bilir, onu aldığı üçün özünü dünyanın xoşbəxti hesab edirdi. Oğlan hər dəfə qızın gözəlliyindən söz açdıqca qız öz-özünə

deyirdi: “İlahi, yer aralanaydı, yerə girəydim. Bəlkə qəlbimə dəyməmək üçün məni qəsdən tərifləyir”.

Qız belə qərara gəlir ki, mən bu boylu-buxunlu, yarlı-yaraşıqlı oğlanı bədbəxt etmişəm. Günü sabahdan bir səhraya üz tutacam. Qoy məni qurd-quş yesin, ya da özümü çaya atacağam. Hərgah bir gözələ rast gəlsəm, yalvarıb onu ərimə alacağam, ömrüm boyu onlara qulluqçuluq edəcəyəm.

Qız səhra ilə gedir, bir inni-cinniyə rast gəlmir. Səhrada ağ bulud görünür.baxıb görür ki, bu üstünə ağ bulud enmiş bir göldür. Bulud yarılır, mavi göldən gözəl bir qız çıxır. Gəlin onu görcək yalvarır:

- Ay qız, amandı, gəl mənimlə gedək, mənim sevgilimə sən yaraşırsan. Gəl səni ona alım, özüm də ömrün boyu sizə qulluqçu olum. Göllər sonası olan qız ondan soruşur:

- Doğrudanmı mən gözələm, çoxmu xoşuna gəlirəm?- Gəlindən “hə” cavabı alandan sonra deyir:- Elə isə, get, sevinclə yaşa, heç nəyi qəlbinə salma. Mən sənin bəxtinəm. Hər dəfə sevgilin sənə baxanda səni bu gözəllikdə görür.
Gəlin sevinc içində evinə qayıdır, bundan sonra güzgüyə baxanda da gözünə bəxtinin gözəlliyi görünür.

## *QIRXQIZ GÖLÜ VƏ ŞAHBULAQ*

Gözəl yay günlərinin birində qoca bir çoban qoyun sürüsünü arandan yaylağa aparırdı. Sürü otlaya-otlaya güllü-çiçəkli bir yamaca qalxdı. Qoyunlar tamam susuzlamışdılar. Çoban yaxınlıqdakı qayaların arasında suyu göz yaşı kimi şəffaf, buz kimi sərin olan bir göl tanıyırdı. Bu göl Qırxqız gölü adlanırdı. Sürü göldən su içməyə yönəldi. Qoyunlar sudan doyunca içib, otlamağa başladılar. Çoban suda əl-üzünü yuyanda əlindəki çomağı gölə düşdü. O, nə qədər çalışdısa, göldən çıxarda bilmədi. Çomağının donbuzu qurğuşundan, əl tutmaq yeri isə gümüşdən idi. Çoban kor-peşman oradan uzaqlaşdı.

Bu əhvalatdan iki il keçmişdi. Bir gün qoyunlar dağdan arana enəndə çoban öz çomağını başqa bir çobanın əlində gördü. Çobana yaxınlaşıb dedi ki, həmin çomaq mənimkidir. Çoban cavab verdi ki, bu çomaq heç vaxt sizin ola bilməz. Mən sürünü Şahbulaqda suluyub, otlamağa ötürdüm. Sonra bulaqda əl-üzümü yuyanda suyun üzündə bir çomaq üzdüyünü gördüm. Özümü tez suya vurub çomağı götürdüm. Sənin çomağın hara, Şahbulağı hara. Birinci çoban dedi

ki, mən bu çomağı Qırxqız dağında, Qırxqız gölündə əl-üzümü yuyanda gölə salmışam.

Bu əhvalat hər yana yayıldı. Sonradan məlum oldu ki, Qırxqız gölü ilə Şahbulağın altında çay olubmuş.

## *QANNICA GÖL*

Bu göl Ağdaş rayonu ilə Zərdab rayonunun arasında yerləşir. Deyilənlərə görə bir qızla oğlan bir-birini sevirmiş. Onlar həmişə bu gölün yanında oturub söhbət edərmiş. Qız bir gün oğlana bildirir ki, mənim anam xəstədir, ona görə də mən onu evdə tək qoyub bura gələ bilmərəm. Əgər istəyirsənsə gedib sarı çiçək adlı bir çiçək var, ondan tapıb mənə gətir, verim anam sağalsın mən də sənə gedim. Oğlan bu sözü eşidən kimi yola düşür. O, bir-iki gün getdikdən sonra qızın dediyi yerə çatır. Oğlan çiçəyi qopardıb geri qayıtmaq istəyəndə qaya uçur. O, ölümcül yaralanır. Nişanlısına ölümünü bildirmək üçün cibindən dəsmalını çıxarıb qanına bulayır və həmin qanlı dəsmalı nişanlısına göndərir. Nişanlısı qanlı dəsmalı görən kimi başa düşür ki, oğlan ölüb. O, qanlı dəsmalı da götürüb həmin gölün yanına gedir. Oğlanla etdiyi söhbətləri

yadına salır. Qız əlindəki qanlı dəsmalı gölə atır. Dərhal gölün üzü qana dönür. Gölün üzərində də oğlanın şəkli görünür. Qız elə bilir ki, oğlan ölməyib sağdır. Bunu görən qız da özünü gölə atır. Qız ölür. O vaxtdan həmin göl "Qannıca göl" adlanır.

## *CEYRANBATAN VƏ SUMQAYIT*

Belə bir əfsanə söyləyirlər ki, indiki Sumqayıt şəhəri yerləşdiyi yerdə və eləcə də Ceyranbatan adlanan yerdəki kənddə iki sevgili vardı. Oğlanın adı Sum, qızın adı isə Ceyran idi. Mürtəce qüvvələr iki sevgilini bir-birindən ayırmışlar. Sumqayıt şəhərinin yerləşdiyi yer dəniz, Ceyranbatan adlanan sahənin yerləşdiyi yer isə qumsal olmuşdur. Iki sevgilinin bir-birindən əl çəkmədiyini görən mürtəce qüvvələr Ceyranı aparıb bataqlığa qoymuş, Sumu isə dənizin bir kənarına buraxmışlar. Sum sevgilisinə çatmaq üçün özünü suya vurmuş, Ceyran Sumun suda batacağını görüb Sum qayıt, deyə çığırmışdır. Sumun qayıtmadığını görən Ceyran ona tərəf qaçmağa başlamışdır. Ceyran batan adlanan yerdə Ceyran batmış o vaxtdan o yerin adı "Ceyranbatan" qalmışdır. Sumun batdığı

yerdə dəniz çəkildikdən sonra şəhər salınmış və bu şəhər Sumqayıt adlandırılmışdır.

## *QANLI GÖL*

Səfalı təbiətə malik Kəlbəcər rayonunun Murovdağ sahəsində Qanlı göl adlı kiçik, lakın çox böyük təbii gözəlliyi özündə yaşadan bir göl var. İnsan qəlbinə bu qədər hakim olan mənzərəli bir gölün nə üçün "Qanlı göl" adı daşıdığı ilə maraqlananlar çox olmuşdur.

Bu gözəl guşənin yaşlı sakinlərindən biri həmin gölün nə üçün "Qanlı göl" adlandığını belə nəql edir:

Keçmiş zamanlarda Kəlbəcər rayonunun bu sahəsində varlı bir kişi yaşayırmış. Həmin kişinin uzun müddət övladı olmur. Onun qardaşı adlı-sanlı molla imiş. Deyilənlərə görə övladı olmayan kişi öz qardaşının yanına gedib, dərdli-dərdli çox danışır, övlad həsrətinə dözə bilmədiyini söyləyir.

Molla kitab açıb, qardaşının taleyini yoxlayır və ona deyir:

- Əziz qardaşım, yaxın illərdə sənə bir övlad görünür. Mən sənə allahdan bir övlad dilərəm, istəyimiz hasil olar.

Bu məsələni eşidən varlı qardaş çox sevinir: - Belə olarsa, səni dünya malından qane edəcəyəm, - deyir.

Mollanın qardaşı həddindən artıq varlı olduğu üçün molla belə bir şərt də əlavə edir ki, əgər qızın olsa oğlumundur, əgər oğlun olsa qızım onundur.

Hər ikisi də razı olurlar.

Qardaşların söhbətdən bir müddət keçdikdən sonra varlı qardaşın bir qızı dünyaya gəlir. Molla şərti varlı qardaşa xatırladır, qardaşı razı olur. Qızın adını Dünya qoyurlar. Bütün aləmə səs düşür ki, filankəsin övladı oldu. Bu xəbər toy-bayrama çevrilir. Toyuğunun başını kəsməyə belə xəsislik edən varlı qardaş qoyun qırdırır, qonaq yola salır.

Bu hadisədən aylar dolanır, illər keçir, Dünya böyüyüb gözəl bir qız olur. Kəndin adlı-sanlı oğlanları Dünya xanımın dərdindən divanə olurlar. Lakin Dünya xanımın atası bütün elçiləri geri qaytarır və deyir:

- Qız əmisi oğlunundur.

Həmin kənddə kasıb bir ailə yaşayırdı. Ailənin böyük övladı Səlim idi. Səlim çox

cəsarətli və əyilməz gənc imiş. Rəvayətə görə, Səlim qonşu oğlanlarının hamısından boylu-buxunlu, yaraşıqlı imiş. İnadkar və əyilməz olan bu gənc öz qonşuluqlarında yaşayan Dünya xanıma aşiq olmuşdu.

Dünya xanımla Səlim tez-tez görüşür, öz məhəbbətlərinin odu ilə yaşayırdılar. Lakin onlar qarşıda duran keçilməz bir qalanın olduğunu çox gözəl hiss edirlər.

Vaxt gəlir çatır, artıq bir neçə gündən sonra Dünya xanımın öz əmisi oğluna veriləcəyi xəbəri kəndə yayılır. Bu xəbər bir ildırım kimi Səlimin bədənini sarsıdır. Cəsarətli oğlan öz iradəsi ilə fikirləşir: Eh siz saydığınızı sayın, görün mən nə deyirəm.

Vaxt tamam olur. Toy gününün son gecəsində Səlim öz sevgilisi Dünya xanımı qaçırmağı qəti qərara alır. O, bu məsələni heç bir kəsə söyləmir. Odur ki, atlanır. Dünya xanımı çadırdan çağırır. Qucağına alıb, sərt dağların zirvələrinə doğru qaçmağa çalışır. Aləm qarışır. Əlli-altmış atlı Səlimin arxasınca at çapır. Gecə qaranlığında necə olursa-olsun Səlimi Dünya xanımla birlikdə tutmağa çalışırlar.

Həmin gecə Səlimi tapa bilmirlər.

“Qanlı göl” adlanan bu göl dörd tərəfdən mühasirə edilir. Bu zaman Səlimlə Dünya xanım

gölün sahilində bir-birlərinə qısılaraq, xəfif ləpələrin şirin pıçıltılarına qulaq asırdılar. Səhərin açılmasını gözləyən atlılar gölün kənarında Səlimlə Dünya xanımın bir-birinə qısılaraq, daşlar arasında gizləndiklərini gördülər.

Atlılar onları hər tərəfdən mühasirəyə alır və Səlimi ox ilə öldürərək, gölə atırlar.

Vəziyyəti belə görən Dünya xanım əhdinə sadiq qalaraq, fürsət tapıb, atlıların arasından özünü sevgilisinin qanı tökülmüş gölə atır.

Beləliklə, həmin vaxtdan etibarən təbiətin bu gözəl guşəsində yerləşən, füsünkar gözəlliyi ilə diqqəti cəlb eləyən bu göl "Qanlı göl" adlandırılmışdır.

## *QANLI GÖL*

Bu göl Murov dağının cənub ətəyində, Kəlbəcər rayonunun və Ağdaban kəndlərindən keçən qədim el yolunun kənarındadır. Qanlı gölün nə üçün qanlı göl adlandırılması barədə xalq arasında çox qədimdən bəri müxtəlif əfsanəvi nağıllar yaranmışdı. Rəvayətlərin birində belə deyilir ki, bu gölün yeri vaxtı ilə quru bir çökəklik imiş. Burada köçəri camaat yurd

salıb yaşayırmış. Bir dəfə təsadüfən gecə çox dəfşətli bir tufan qopur, ildırım çaxır, sel hər yeri bürüyür. Bu çökəklik su ilə dolur. Burada olan camaat suyun altında qalır. Ona görə də bu gölə Qanlı göl adı veriblər.

İkinci bir rəvayətdə xalq arasında belə deyilir ki, bu gölün ətrafındakı gözəl çəmənlikdə yerləşən obalardan birində varlı bir kişi var imiş. Guya kişinin İsrafil adlı bir oğlu varmış. Bu oğlan ata-anasının birinci övladı olmaqla, həm də çox qoçaq və cəld imiş. Oğlan qonşu obadan Lalə adlı bir qız sevir və onunla nişanlanır.

Bir neçə il keçdikdən sonra qızın və oğlanın valideynləri məsləhət görürlər ki, hər iki istəkli övladlarının toyunu yaylaqda etsinlər. Beləcə yay gəlir. İsrafilin toyu olur. Qara zurna və nağaranın səsi dağlara-daşlara səs salır. Oğlanlar at oynadır, igidlər ox atır. Qızlar, gəlinlər bulaq başına gedirlər. Nəhayət gəlini oğlan evinə aparmalı olurlar. Keçmişdə adət belə imiş ki, gəlini ilk dəfə yaxşı, istəkli bir ayğıra mindirirlərmiş. Beləliklə çalğıçılar qədim "Gəlin atlandırması" havasını çalırlar. Bəzədilmiş ayğır atı qabağa çəkib, gəlini ata mindirirlər. Beləliklə hamı atlanır. Oğlanlar at oynada-oynada gəlinin qabağında gedir. Meydanda oynayan atlardan həyəcana gələn ayğır at toy adamlarının əlindən

dartınıb çıxır və gəlini də özü ilə aparır. Atın qarşısına gölün üstündəki sıldırım qayalıq çıxır, at yol tapmayıb özünü gölə atır. Hay düşür, hər tərəfdən səs-küy qopur. Oğlan alacıqdan çıxıb öz sevgilisini azad etmək üçün gölə tərəf yüyürür. O gölə çatana qədər qız sulara qərq olur. Oğlan da özünü saxlaya bilməyib, sevgilisinin dalınca özünü gölə atır və oğlan da məhv olur. Beləliklə, hər ikisi suda görünməz olurlar. O vaxtdan oğlanla qızın anası gölə baxarkən "a mənim qanlım"- deyə fəryad edərlərmiş.

Beləliklə, hamı bu gölə "Qanlı göl" deyir. Sonralar da elə bu gölün adı "Qanlı göl" olaraq qalıb.

Gölün üst tərəfindən sıldırım qayalıqdan gölə kiçik bir dağ çayı tökülür. Kiçik cay dar dərəli şəlalələrlə axır. Şəlalənin hər iki tərəfində kiçik-kiçik mağaralar var. Bu mağaraların qarşısından keçdikdə və yaxud da oturduqda şəlalələrin mağaralarda əks olunan sədalarından "balam vay" naləsinə bənzər həzin nəğmələr duyulur. Guya bu oğlanın anasının "balam vay" sözlərinin daşlara həkk olunan naləsidir. Beləliklə də xalq əfsanələrinə əsaslanaraq çox qədimdən bəri hamı bu gölü "Qanlı göl" adlandırır və tanıyır.

## *ÇOBAN VƏ MARAL GÖLÜ*

Gəncə xanı hər ilin yaz-yay aylarında Kəpəz dağında olarmış. Xanın orada yurd yeri varmış. O, xəzinəni də bu yurdun altına basdırıbmış. Bir ili payız elə gözəl keçir ki, hər yanı ala basır, yurdlar itir. Xan bir də yaylağa çatanda öz yerini tapa bilmir. Səs-küy düşməsin deyə, bir yer seçib alaçıq qurur, altdan-altdan yurdunu gəzir. Tapa bilmir.

Xanın gənc bir çobanı varmış. O, xanın qızı Maralı sevirmiş. Bunu az-çox qız da hiss eləyibmiş. Lakin hər ikisi ayrı-ayrılıqda bilirmiş ki, bu, baş tutan iş deyil. Çoban tütək çalar, dərələrə səs salarmış. Xan bir gün fikir verəndə görür ki, çoban tez-tez təkrar edir:

- Xan, qızını mənə versən, yurdun hardadı deyərəm.

Xan arvadına deyir:

- Eşidirsən? O mənim yurdumun yerini bilir, onu dilə tutmaq lazımdır..

Arvadı cavab verir: - O, bizim Maralı sevir. Ancaq ümid verməklə onu yola gətirmək olar. Hiddətindən bozaran xan olsun - deyir. Axşam süfrə başında bu barədə söhbət başlanır. Maral deyir:

- Mənim öz şərtim var. Kəpəzin sinəsində gözəl bir göl quruyur. Mən o oğlana ərə gedərəm ki, həmin gölə dağdan bir bulaq çəkdirsin. Çoban təklifi qəbul edir. Dumanlı-çiskinli bir gündə xəzinədən xeyli qızıl götürür, usta çağırır, işə başlayır.

Bir səhər bulağın suyu gölə tökülür. Eşidən-bilən xan qızı Marala "Əhsən!"-deyir. Elə o gündən çeşmənin adı "Xan qızının bulağı", göl isə "Maral" göl olur.

## *GÖY-GÖL, KƏPƏZ VƏ AĞSU*

Ağsu Kəpəzin ətəyində axırdı. Ağsu Kəpəzi sevirdi, bütün varlığıyla, dəlicəsinə sevirdi. Ancaq ürəyini aça bilmir, məhəbbətdən söz salmağı mənliyinə sığışdırmırdı. Qıvrılırdı Ağsu, qıvrıla-qıvrıla da axırdı. Kəpəz Ağsuya etinasız idi. Aşağılara heç baxmaz, hey yuxarılara can atardı. Yaxın, uzaq buludların məclisində kef sürməyi xoşlayar, ənginliklərin xəyalı ilə yaşayardı. Kəpəz necə oldusa, bir gün aşağı baxdı.  Baxdı və bir könüldən min könülə Ağsuya vuruldu.

Göylərə meydan oxuyan Kəpəzin məğrur başı Ağsuyun önündə əyilir, sevgisini Ağsuya

elan edir. Onun titrək səsindən, məhəbbətlə dolu sözlərindən Ağsu qürrələndi, yaman qürrələndi, sevinci aşıb-daşdı. Kəpəz ona etinasız olmuşdu, dağ çəkmişdi. Ağsu da Kəpəzə etinasız oldu. Məğrur Kəpəzi Ağsuyun eşqi bir an rahat buraxmadı. Ağsuya elə hey dediyi bu oldu:

- Məhəbbətinlə qəlbim alışıb yanır, mənə "hə" deyəcəksənmi, Ağsuyum? Axma, dayan, dayan Ağsuyum!..... Dayan hey!...

Ağsu etinasız cavab verdi:

- İnanmıram sevginə, sədaqətinə inanmıram, Kəpəz!. Deyirsən ürəyin alışıb-yanır, görmürəm yandığını, görmürəm!

Ağsu məğrur Kəpəzi yandırmaq üçün belə deyirdi. Kəpəz cavab verdi:

- Görmək istəyirsən?

- İstəyirəm!

Kəpəz dərindən ah çəkdi, coşdu. Yox, yox qəlbindən od püskürdü. Elə bir zəlzələ qopdu ki, ara sakitləşəndə Kəpəzin qoynuna sığındı Ağsu. Kəpəzə "hə" dedi. Günlər keçdi, aylar dolandı. Ağsu ana oldu, Kəpəz ata. Ancaq körpə olar-olmaz Ağsu həyata göz yumdu.

Kəpəz dağların qoynunu əbədi məskən seçdi. Ağaclar başlarını əyib ona mahnı oxudular, onu yayın istisindən, qışın soyuğundan

qorudular. Körpə dirçəldi, dağların gözəli oldu. Görən valeh oldu ona. Görən ancaq bir söz dedi:

- Göy-göl.

# *ÇAYLAR HAQQINDA*

## *АРАЗ*

Гядим Гозлучай дярясинин сюйкяндийи Ярэцняш даьынын башы щямишя гарла юртцлц олармыш. Щяр ил бащар фяслиндя истиляр дцшян кими Ярэцняш даьынын гар галаьы яримяйя башлауармыш. Ярийян гарын суйу селя дюняр, дяряляря сарыла-

сарыла баш алыб эедяр, Аран торпаьынын синясиня чатмамыш tamam гуруйармыш.

Сусузлугдан иланларын, вящши щейванларын мяляшмяси ешидилярdi. Бу йерлярдя йашыллыг дейилян бир шейя раст эялмяк олмазмыш. Дцнйада чайлар чох olsa da, Аран торпаьынын синясини сяринлядя-сяринлядя ахан буэцнкц Араз чайы о заман щяля йох idi. Тякъя Ярэцняшдян сцзцлцб эялян гар суйундан йаранмыш Гозлучай вардı. Гумлу сящрайа бянзяйян Аран торпаьы од тутуб йанар, Ярэцняш даьы isə суйуну Аран торпаьына вермязdi. Индики Маралйан кяндинин йериндя бир-ики дахма вардı. Орада гоъа бир киши йашайырмыш. Олдугъа касыб имиш. Онун Марал адлы эюзял, намуслу бир гызы вармыш. Онун эюзяллийи чохларыны дярдя салыбмыш.

Бир эцн бир варлы adamın оьлу Маралын сораьыны ешидиб, онун йашадыьы кяндя эялир. Фцрсят тапыб гызла эюрцшцр. Гыз ону бяйянмир. Bundan qəzəblənən варлы оьлу Аран эюзяли Маралы оьурлайыр. Обадан хейли аралыда нящянэ бир дашын йанына эятирир. Lakin, оьланын йалварышлары Maralın гялбини йумшалда билмир. Гыз сящранын ортасындакы ири гара

даша цз тутуб йаlварыр. Bu zaman dашын алтындан гара бир илан чыхыр vә оьлана тяряф сцрцнцр. Гыз горхуб чыьырыр, юзцндян эедир. Оьлан да бярк горхур. Гара эцрзя чякилиб эедяндян сонра о, даща да залымлашыр, Марала язаб вермякля цряйини сойутмаг истяйир.

Sусузлугдан Маралын додаьы йерин баьры кими йарылыр, од tutuб йаныр. Оьлан isә совчасындакы Ярэцняш даьынын суйундан бир дамъы да Марала вермир. Гызын эюзляри баха-баха судан ичир вя галан бир-ики дамъыны да онун цстцня атыр. Гызын цстцня дцшян су дамъыларынын йериндян тцстц чыхыр. Оьлан ися йаныг веря-веря эцлцр: -Щя, неъясян Марал, йан, тцстцлян! - дейир.

Гызын щалына аъыйан гара эцрзя сцрцнцб Маралы инъидян оьланы еля чалыр ки, яввялъя онун яти-язасы, сонра isә сцмцкляри чцрцйцр.

Маралын анасы йох имиш, фаьыр атасы чох-чох йерляр эязир, дяря кечиб даь ашыр, бала- бала демякдян дили аьзында кюсюв тяки йаныр, амма гызыны тапа билмир. Maralı эюрдцм дейян олмур. Киши дярдинин бюйцклцйцндян ня йейир, ня dә ичир. Ata эюз

йашларыны цряйиня ахыда-ахыда йаныглы байатылар чякир, еля щей:

Эцлшяним йох, эцлцм йох,
Бундан бюйцк зцлцм йох.
Балам иткин дцшцбдцр,
Нийя мяня юлцм йох?

дейирмиш. Йазыг ата гямли байатылар сюйляйиб гялбинин одуну сюндцрмяк истядийи вахт онун язиз ъийярпарасы щамынын эюзцндян узаг, кимсясиз бир дярядя цзцнц дилсиз эюйляря тутуб «су… су…» - дейя йаныр, йалварыр, имдад эюзляйирмиш. Чох кечмир ки, эюй цзцнц гара булудлар бцрцйцр, од няфясли дцзляря бир сяринлик чюкцр, эцълц шимшякляр чахыр, эюй эурулдайыр, йаьыш йаьыр. Аранын ъадар-ъадар олмуш торпаглары дойунъа су ичир.

Тагяти тцкянян Марал гыжылты иля ахан чайа тяряф сцрцнцр. Бядбяхтликдян чайа чатмаьа аз галмыш сусузлугдан гызын баьры чатлайыЬ юлцр. Елляр-обалар бу аъы хябяри ешитъяк ахышыб ора эялир. Маралын чайа чатмаьа аз галмыш юлдцйцнц эюрцрляр. О

вахтдан Аран торпаьынын синясиндян ахыб эедян бу чайын ады «Араз» галыр.

## *SARIM ÇAYI*

Hələ qədim zamanlarda Böyükağanın yaşadığı vaxtlarda Həlimə adlı yoxsul bir qadın və onun Sarı adlı bir oğlu vardı. Həlimə arvad lap gənc yaşlarından dul qalmışdı. Sarı hələ körpə ikən onun meşədə odun qırıb satan atası . qəflətən elə meşədəcə ölür. Cavan gəlin sevimli ərini itirməsindən çox sarsılır. O, bütün gəncliyini öz oğluna bağışlayır. Uşaq sarıbəniz olduğundan anası onu "Sarım-sarım", deyə çağırarmış.

Aylar-illər keçir Sarı böyüyür, 18-19 yaşlarına çatır. Həlimə arvad Böyükağanın qapısında işləyir. Onun evində qab-qacaq, pal-paltar yuyur, Sarı da Böyükağanın bir sürü qoyununu otarır.

Böyükağanın da gözəl bir qızı var imiş. Qızın gözəlliyi bütün obaya yayılıbmış. Sarı da bu gözəlin həsrəti ilə yaşayırmış. Bir dəfə təsadüfən Böyükağanın gözəl qızı Nazlı öz rəfiqələri ilə kəndin yaxınlığındakı çayın kənarında gəzməyə çıxıblarmış. Bu vaxt Sarı da

çayın kənarına sürünü yayıb, yanıqlı-yanıqlı tütək çalırmış. Nazlı ayaq saxlayıb bu həzin musiqiyə qulaq asır. Bu vaxt Sarıyla Nazlının gözləri bir-birinə sataşır...

Aradan bir müddət keçir. Nazlı Sarıyla görüşməyə başlayır. Xeyli vaxt bunların görüşməsindən heç kimin xəbəri olmur. Nazlı da bütün qızlardan Sarıyla görüşməsini gizləyir.

Belə rəvayət edirlər ki, guya Nazlı Sarıyla görüşən zaman həmişə göz yaşlarını sel kimi axıdarmış. Sarıya onların arasında intizar olacağını dərdli-dərdli söyləyərmiş. Sarı isə həmişə Nazlıya təskinlik verərmiş ki, mən tezliklə səni başqa bir yerə qaçırdacağam. Anamı da apararıq başqa yerdə xoşbəxt yaşayarıq. Nazlı isə atasının çox əzazil adam olduğunu bilirdi. O bilirdi ki, atası Sarıyla onun görüşdüyünü bilsə, o saat qan tökəcəkdir. Ona görə də həmişə yazıq Nazlı qorxu içərisində yaşayırdı.

Günlərin bir günü Böyükağa ovdan qayıdanda qızının hardansa gəldiyini görür, lakin əhəmiyyət vermir. Özünü görməməzliyə vurur. Böyükağanın sarayında ifritə bir qarı yaşayırmış. Bu bəzi xəbərləri ağaya çatdırarmış. Ağa saraya çatan kimi qarını təklikdə hüzuruna çağırır. Nazlını soruşur. Qarı heç bir şey olmadığını söyləyir. Zalım ağa isə Nazlıdan şübhələndiyini

deyir. Sabahdan başlayaraq Nazlını izləməyi qarıya tapşırır.

İfritə qarı səhəri gündən başlayaraq Nazlını izləyir. Qarı Nazlının Sarı ilə kəndin aşağı tərəfindəki çayın kənarında görüşdüyünü öyrənir və gəlib Böyükağaya xəbər verir. Böyükağa bunu eşidən kimi Nazlının anasını döyür. Öz namusuna ar gəlir ki, gör bunun qızı kiminlə görüşür. O, arvadına bir qılınc, bir tüfəng və bir qab da zəhəri balaca otaqların birinə qoymağı tapşırır. Biçarə Nazlını gecə döyə-döyə gətirib həmin otağa salır. Nazlı bədəninin ağrısından xeyli zarıyır. Bu səsi Sarının anası Həlimə arvad eşidir. O, nə qədər çalışırsa qapını aça bilmir. Nazlı kiminsə qapının ağzında olduğunu bilir. Həlimə arvad Nazlını səsləyir. Nazlı çox halsız halda Həlimə arvada yalvarır ki, Sarıya de qaçsın. Yoxsa atam onu öldürəcək. Həlimə arvad saçlarını yola-yola evə gəlir, lakin Sarının evdə olmadığını görür. O, qonşulardan oğlunun evə gəlib-gəlmədiyini soruşur. Qonşular deyir ki, Sarı hələ gəlməyib. Arvad təzədən Böyükağanın sarayına qayıdır. Həyətə girər-girməz qoca bir kişi Həlimə arvada Böyükağanın oğlunu qanına-qəltan eləyib çaya atdığını söyləyir. Həlimə arvad bunu eşidən kimi qışqırıb fəryad edir və üzü aşağı çaya tərəf qaçmağa başlayır. Kəndin

cavan və qocaları da çaya tərəf gedir. Yazıq Həlimə arvad hamıya yalvarır: - Amandır Sarımı axmağa qoymayın. Ay Sarım, ay Sarım, - deyə Həlimə arvadın tükürpədici səsi bütün gecələri gündüzlərə, gündüzləri də gecələrə qatır. Bunu eşidən Nazlı  qabdakı zəhəri içib özünü öldürür.

Kəndin, el-obanın Böyükağaya olan nifrəti daha da artır. Hamı Həlimə arvadın qisasını almaq fikrinə düşür. Başına hava gəlmiş Həlimə arvad bütün günü çayın kənarında ağlayır, qışqırır ki, qoymayın Sarım axır. “Sarım, ay Sarım” - deyə arvadın naləsindən bütün hamı qəmlənirmiş.

O vaxtdan bəri balaca uşaqlar o çay haqqında danışılanda deyərmiş: Sarım çayı.

Həlimə arvad çayın kənarındaca ölür və onu elə orada da dəfn edirlər. Həlimə arvadın qəbrinin izi itib, lakin Sarım çayı əbədi olaraq axır.

Nakam məhəbbətli Nazlını isə Böyükağanın dediyi yerdə kəndin üst tərəfində dəfn edirlər. Aradan az keçmir ki, bütün camaat yığılıb zalım ağanı da öldürürlər. Onu da kəndin üst tərəfində basdırırlar. Böyükağanı heç kim xeyirxah adam kimi yada salmır. Lakin Sarım çayından hamı istifadə edir və nakam məhəbbətli Sarını məhəbbətlə yada salır.

Sarım çayının həzin nəğməsinə Şamxor rayonunun Zəyəm-Cırdaxan kəndində qulaq asa bilərsiniz.

## *FATMA AXAN ÇAY*

Qazax rayonunda Qaymaqlı kəndində "Fatma axan çay" adlı bir çay axır. Bunun haqqında bir əfsanə var.

İmran bəyin gözəl-göyçək bir qızı vardı. Qızın adı Fatma idi. Bir gün Fatma qızlarla meşəyə moruq yığmağa çıxır. Qızlar moruq yığa-yığa Fatmadan uzaqlaşırlar. Meşədə Fatmanı ovçu bir oğlan görür, bir könüldən min könülə ona aşiq olur. Fatma da oğlanı sevir. Onlar əhdi-peyman bağlayırlar ki, ölənəcən bir-birlərinə sadiq qalacaqlar. Fatma hər gün moruq yığmaq bəhanəsi ilə atasından icazə alıb qızlarla meşəyə gedər və özünün sevib-seçdiyi oğlanla görüşərdi.

Heydər bəyin oğlu Mahmudun da Fatmaya gözü düşür. O, Fatma üçün elçi göndərir və rədd cavabı alır. Fatma nə qədər ağlasa da, onun sözünə baxmırlar. Fatma öz dərdini söyləmək üçün meşəyə sevgilisi Bəhramın yanına gedir və

Mahmud onu görür. O, necə olursa-olsun Bəhramı aradan götürməyi qərara alır. Bəhram nə edəcəyini bilmir. Fatma ona bildirir ki, qalsam sənin, ölsəm qara torpağınam. Heydər bəyin oğlu da meşəyə ov etməyə çıxır və o, meşədə Bəhramı və Fatmanı bir yerdə görür. Fatma Bəhramla vidalaşıb getdikdən sonra Mahmud gizləndiyi yerdən çıxır və Bəhramı arxadan vuraraq öldürür.

Fatma çarəsiz qalmışdı. Nə edəcəyini bilmirdi. Səhər o, qonşu kəndə gəlin köçməli idi. Hər iki kəndi bir çay ayırırdı. Səhər açıldı Fatmanı gəlin aparmalıdılar. Həmin gün Fatma Bəhramın ölüm xəbərini eşidir. O, necə olursa-olsun özünü öldürmək qərarına gəlir və evdən çıxaraq çayın yanına gedir, özünü çaya ataraq boğulub ölür. Və həmin gündən bu çayın adı "Fatma axan çay" qalır.

## *TƏRTƏR ÇAYI*

Deyildiyinə görə yunanlar Azərbaycana gəlirlər və Tərtərbasarın sahilində məskən salırlar. Yunanlar deyirlər ki, bura necə cənnətdir. Yaz gəlir, bu çay daşır və onlar çığırıraraq deyirlər:

- Terterі, terteri!

Terteri sözü yunanca cəhənnəm deməkdir. Elə buradan da Tərtər sözü meydana gəlmiş və çayı da Tərtərçay adlanıdırmışlar.

## *QABARTI ÇAYI*

Güllücə kəndindəki - öz həzin nəğməsi ilə qədim tarixə malik olan Qabartı çayının adı haqqında bir neçə rəvayət vardır.

Guya xanlıqlar dövründə kəndin torpağı Cahangir xanın ixtiyarında imiş. Bir gün o, Güllücə camaatını məcbur edir ki, kəndin ən səfalı yerində ziyafət təşkil etsinlər. Bu ziyafətdə təkcə xan deyil, dostları da iştirak edəcəkdir. Odur ki, cürbəcür dadlı xörəklərlə bərabər, qonaqlıq təşkil edilən yer də gözəl olmalıdır. Əgər xan bir şeydən razı qalmasa camaatı cəzalandıracaqdır. Kəndin ağsaqqalları belə gözəl bir yeri yalnız kəndin ətrafından axan çayın kənarı hesab edib, qonaqlığı burada təşkil edirlər. Dostları ilə gələn xan açılmış süfrə başında otururlar. Yeməklər xanın xoşuna gəlir. Bir azdan xan su içmək istəyir. Ona saxsı qabda su verirlər. Qaba kinayə ilə baxan xan bərk susadığı üçün suyu içib, qabı qəzəblə atır. Xan suyu içəndən sonra iştahlanıb doymaq bilmədən yeyir.

Sonra yenə su istəyir və bir qabda artıq yemək yeyir. Doymaq bilməyən xan suyun haradan gətirildiyini soruşur. Kəndin özündə kəhriz olmadığı üçün yaxındakı çaydan gətirdiklərini söyləyirlər. Xan ucadan qəh-qəhqəhə çəkib gülür və belə bir bayatı deyir:

*Əzizinəm, qab artı,*
*Ver bişmişi, qab artı,*
*Suyun içdiyim çayın,*
*Adı qaldı Qabartı.*

Xan atlanıb kənddən çıxır. Deyilənə görə o vaxtdan çayı adı “Qabartı” qalmışdır.

## *QANLI ÇAY*

Hər bir zirvənin, qayanın məğrurluğu əfsanəvi qəhrəmanlarımızın cəsurluğunu, ölməzliyini bizə xatırladır. Mənbəyini başı qarlı, hər bir zirvəsi tarixlərin yadigarı, əfsanələrin şahidi olan bu dağlardan götürən “Qanlı çay”(əfsanəsi) öz tarixi hadisəsi ilə bu günə kimi ağsaqqal babaların, ağbirçək nənələrimizin dillərində yaşamışdır.

Deyilənlərə görə Teymurun sevgilisi Fatimənin qanı ilə qızarmış suların adı həmin dövrdən qanlı çay qalır. İki aşiq görüşüb söhbət edəndən sonra Fatimə sabah yaylağa yola düşəcəyini deyir. Teymurun ürəyi sıxılsa da tezliklə yaylaqda toy vədəsini yadına salıb Fatiməyə təsəlli verir:

Get, əzizim, gözlə məni. Ulu dağlar köməyin olsun.

Səhər günəş al üfüqdən boylananda yaylaq yolu ilə bir köç irəliləyirdi. Yaylaqda çadırlar quruldu, binələr salındı. Sərin yaylaq havasında hamı rahat nəfəs aldığı halda Fatiməyə hava çatışmırdı. Fatimə fikirli halda su səhəngini çiyninə salıb saf suları ayna kimi şəffaf olan dağ çayına tərəf yol aldı.

Sevgilisindən ayrı düşməsi, fikirli olması onun həyatına üstün gəldi. Günahkar qaya cığırı sanki onun ayağı altından qaçdı. Qayadan qoparaq köpüklü dağ çayının ağzına nə vaxt düşdüyünü hiss etmədi.

Bir kişi bəyə dəvə otarırmış. Günlərin bir günü nökər yenə də dəvələri örüşə otarmağa aparanda görür ki, nər elə hey onu izləyir. Çıxılmaz vəziyyətdə qalan nökər kürküsünü kolluğa atıb qaçır. Nər əvvəl elə bilir ki, kolluqdakı nökərdir. O, kolluğa yaxınlaşıb onu təpikləyir, lakin onun kürk olduğunu görüb daha da qəzəblənir. Nər kişinin qaçdığını görüb onun dalınca qaçır. Nökər qarşıdakı dağa çatanda bir ilan görür. Kişi qorxusundan huşunu itirir. Nökərin yıxıldığını görən dəvə özünü ona çatdırır. Elə bu vaxt ilan onun burnunun ucundan necə vurursa nər bir-iki metr kənara güclə yeriyə bilir, sonra isə ölür. Nökər ayılıb görür ki, ilan yoxdur. Amma dəvə bir az aralıda yıxılıb. Amma dəvə o qədər şişibdir ki, onu tanımaq mümkün deyil. Nökər tez durub dəvənin yanına gəlir və onu təpiklə vurur. Elə bu vaxt kişinin ayağı dizəcən dəvəyə batır. Sən demə ilanın zəhəri o qədər güclü imiş ki, onu tez bir vaxt ərzində çürüdübmüş. Həmin zəhərdən kişinin ayağına dəydiyi üçün onun ayağı da dizdən aşağı çürüyür.

## *QURD ZÖHRƏ*

Keçmiş zamanlarda Samux rayonunun Alpaut kəndində Zöhrə adlı bir arvad var idi. O, bir gün evinin bütün işlərini görüb, sonra isə qaranlıq bir yerdə rahatlanmaq üçün çimmək istəyir. Çimib qurtarandan sonra o, paltarını geyinmək istərkən göydən Allah-təala tərəfindən ona canavar dərisindən paltar geyindirilir. Beləcə Zöhrə canavar surətinə düşür, meşəyə, səhralara üz qoyur. Səhər açılanda isə evinə qayıdır, öz paltarını geyinir, Allah-təaladan verilən canavar paltarını isə gizlədir. Bir belə, beş belə, hər şər qarışanda Zöhrə canavar paltarını geyinib canavarlara qoşulur, yaxın-uzaq kəndlərə gedir, qoyun, keçi və başqa heyvanları yeyir. Deyilənə görə bir dəfə də o, canavar yoldaşları ilə Ağdaşa gedir. Onlar bir ağ atı parçalayırlar. Zöhrəyə atın yaralı yeri düşür, o yemək istəmir. Bunu görən yoldaşları onu boğurlar, üst dodağına diş batırırlar.

Səhər yenicə evə gəlib paltarını dəyişən Zöhrəyə əri göz qoyur və onun yarasını görür, ancaq bildirmir. Sonra arvadını izləyir. Görür ki, arvadı gecə canavar, gündüz isə adam olur.

Bir gün Zöhrə çörək bişirmək üçün ertədən un ələyir və balata edir. Axşam isə evdəkiləri yuxuya verib, yenə canavar olur. Əri axşamlar onun canavar paltarını soyunub nəhrəyə qoy-

duğunu görmüşdü. Zöhrə təndir qızdıran vaxt o həmin canavar paltarını təndirə atır. Bu vaxt Zöhrə bərkdən qışqırır. Sonra bütün olanları ərinə deyir. Elə o vaxtdan bütün el-oba Zöhrəni qurd Zöhrə adlandırır.

## *CİN HAQQINDA*

Deyilənə görə vaxtilə Xəlillər adında bir nəsil yaşayırmış. O nəsil indi də durur. Bir dəfə həmin nəsildən olan bir adam gecə qonşu tövlədə qoyunlara qarovul çəkirmiş. Bir də baxır ki, bir nəfər ona tərəf gəlir. O nə qədər "Ya Allah", "Ya Əli", "Bismillah" - deyirsə də heç bir kömək etmir. Həmin adam gəlib ona çatır. O, bunun cin olduğunu yəqin edib, onun üstünə sancaq batırır. Deyilənə görə cinin üstünə ya iynə, ya da sancaq batıranda o daha qeybə çəkilə bilmir. Həmin cin də daha heç bir yerə gedə bilmir. O, cini evə gətirib işlədir. Cin də onu hər nə işə göndərsələr, o işi yerinə yetirir. Ancaq nə desən tərsinə edərmiş. Evi süpür deyəndə, çöldəki zibili bütün evə gətirib səpərmiş. Evi süpürmə deyəndə süpürərmiş.

Bir dəfə Novruz bayramında dükandan meyvə və şirniyyat alıb evə gətirirlər. Cinə də verirlər. Cin bunları alır, vedrələri də götürüb bulağa suya gedir. Orada bir balaca uşaq görür.

Onu yanına çağırıb deyir ki, bu sancağı mənim üstümdən çıxartsan, bu şirniyyatları sənə verərəm. Uşaq iynəni çıxardır. Cin qayıdıb həmin evin damının bacasına çıxır və deyir: - Ruziniz az olsun, eviniz də həmişə zibilli olsun”. Deyilənə görə o vaxtdan o nəslin evi həmişə zibilli olur.

## *HAL HAQQINDA*

Belə bir adət var ki, uşağa yatan qadının yanında bir nəfər kişi - gəlinin ərimi, qardaşımı, qaynımı və s. oturmalıdır. Guya Hal uşağa yatan qadının ürəyini çəkib aparır və öz uşaqları ilə yeyir. Ona görə kişi oturur ki, Hal kişi nəslindən qorxur. İndi də belə bir adət var ki, Haldan danışanda, elə o saat ayaqqabını ağzı üstə çevirirlər ki, Hal adam aparmasın.

## *CİNLƏR PADŞAHI*

Bir şəhərdə cinlər padşahı yaşayırmış. O yerin, göyün sirrini çox yaxşı bilirmiş. Onun dünya gözəli bir qızı varmış. Bu qız çox ağıllı, bilikli, dünyanın bütün sirlərini bilən bir gözəl imiş.

Başqa bir şəhərdə divlər padşahı yaşayırmış. Bu padşahın bir oğlu varmış. Bu oğlan cinlər padşahının qızını sevirmiş, amma qız onu sevmirmiş. Qara divin oğlu bu qızı izləyirmiş. Bir gün cinlər padşahının qızı gəzməyə çıxır. Onlara yaxın kənddə bir ovçu yaşayırmış. Ovçunun varı başından aşırmış, amma malını yeməyə qıymırmış. Arvad ərinin əlindən təngə gəlibmiş, elə hey kişiyə deyirmiş: - Uşaqlar acdır, qoyundan, quzudan kəs, qoy yesinlər. Kişi razı olmazmış. Arvadına deyərmiş ki, dur tüfəngi gətir, görüm, quşdan-zaddan nə tapıram.

Bir gün yenə də kişi tüfəngi götürüb çiyninə salır və evdən çıxır. Xeyli yol gəlir və nə görsə yaxşıdır, görür ki, canavar gözəl bir qızın ardınca düşüb. Qara divin oğlu canavar donunu geyinib qızı tutmaq istəyirdi. Canavar qızı tuthatutda ovçu tüfəngi atır və canavarı vurub öldürür. Qız ovçunun yanına gəlib çox razılıq edir və ovçunun onunla bərabər atasının yanına getməyini istəyir.

- Gedək atamın yanına. Məni ölümdən qurtarmağını atama danışaram. Sən atamdan nə istəsən, atam sənə verəcək.

Kişi deyir:

- Elə yaxşı oldu, mən qızın atasından bir küpə qızıl istəyərəm.

Qız bunu başa düşür və ovçuya deyir:

- Sən atamdan ancaq malının ixtiyarını istə, başqa şey istəmə.

Ovçu deyir:

- Ay qız, sən nə danışırsan, mənim malımın ixtiyarı kimdədir, bu nə sözdür?

Qız deyir:

- Mən sənə nə deyirəm, sən onu istə.

Qız ovçunu atasının yanına gətirir və özü də keçib atasının arxasında üzü ovçuya sarı dayanır. Bu zaman cinlər padşahı ağır-ağır başını qaldırıb ovçudan soruşur.

- A kişi, sən məndən nə istəyirsən?

Kişi istəyir ki, desin mənə bir küpə qızıl ver.

Qız atasının arxasından ovçuya əlləri ilə yox-yox işarəsi göstərir. Ovçu aciz qalır və padşaha deyir:

- Padşah, sağ olsun, mən səndən ancaq öz malımın ixtiyarını istəyirəm.

Padşah deyir:

- Baho, nə  çətin şey  istədin məndən. Sənə nə lazımdırsa onu da verərəm, amma malının ixtiyarını məndən istəmə.

Kişi əl çəkmir.

- Mən səndən ancaq öz malımın ixtiyarını istəyirəm.

Cinlər padşahı ovçunun öz malının ixtiyarını özünə verir.

Ovçu öz-özünə deyinə-deyinə evə gəlir. Mən nahaq cinlər padşahından qızıl almadım, - deyə düşünür. O gəlib evə çıxır və arvadına deyir ki, arvad, bıçağı mənə gətir, erkək toğlunu da bəri hayla, qoy kəsim.

Kişi toğlunu kəsir, arvad yuxa salır, kişi kabab çəkir, uşaqlar doyunca yeyirlər və atalarının bu hərəkətinə çox sevinirlər.

Deməli, kişinin malının ixtiyarı özündə deyilmiş, ona görə də heç nəyə qıymırmış.

## *AL ARVADLARI VƏ YA ALBASTI*

Ərlə arvad gecə kəndlərinə gələrkən yolu çaşırlar. Kişi deyir:

- Ay arvad, it hürən tərəfə gedək, yoxsa işıq gələn tərəfə?

Arvad deyir:

- İşıq gələn tərəfə.

Arvad qapını açanda görür ki, hamısı arvad mərakəsidir. Toydu, çal-çağırdı. Qadınlardan biri onun koftasını və tumanını geyinmişdi. Qadın səssizcə çölə çıxır. Ərlə arvad dönüb it hürən tərəfə gedirlər. Məlum olur ki, bura elə öz kənd-

ləridir. Sabah qadın öz paltarının üstünə yağlı-yağlı beş barmağını basır. Qadın oğrunca axşam yenə də qadınların toy yığıncağına gedir. Baxır ki, həmin qadın onun paltarını geyinmiş, barmaqlarının izi də paltardadır. Qadın başa düşür ki, onun paltarını geyən al arvad imiş. Paltarın üstünə iynə, sancaq sancır. Al arvadı iynə sancaqlı paltarı götürərkən ilişib qalır. Arvad-ev sahibəsi cəld tərpənib onun üstünə də bir iynə sancır.

Bundan sonra al arvadını evdə işlədirlər. Odun yarır, ocaq qalayır, xamır yoğurur, hana toxuyur- bir sözlə əlindən hər iş gəlir.

Al arvadı bəni insandan xilas olmaq üçün yollar axtarır. Ev sahibəsi görür ki, sağsağan (qəcələ) çəpərin üstə çıxıb al arvadı ilə qarğa dili danışır. Sən demə qəcələ ona öyrədirmiş ki, arvadın qızına qırmızı alma bağışla, qoy iynəni, sancağı sənin üstündən çıxarsın. Belə də olur. Albastı qırmızı almanı qıza verir. Uşaq iynə sancağı onun üstündən çıxarır. Azad olan al arvadı ocağı dağıdır. Unu yerə səpələyir. Əlinə nə keçsə dağıtmağa çalışır.

Al arvadı, al kişisi gecə at tövləsinə gəlir. Atın yalmanını qız hörüyü kimi hörür və sabaha qədər minib çapır. Ev sahibi ondan bilir ki, atı al (hal) minib. Alın minməsini atın tərləməsindən və

bir də yalmanın qız hörüyü kimi hörülməsindən bilir. Alı tutmaq üçün atın belinə qır sürtülür. Al yapışıb qalır. Üstə iynə, sancaq batırıb tuturlar. Al kişisinə meşədən odun daşıtdırırlar.
Al arvadı meşədə yaşayır. Boyca uca olur. Gərdənində, yəni belində neçə hörük saç saxlayır.

Hal arvadı daha çox zahı - təzə doğmuş qadınlara zəfər yetirir (toxunur). Gərək təzə doğmuş qadının balıncına (mütəkkəsinə), döşəyinə, yorğanına iynə, sancaq taxasan. Başına kişi papağı qoyasan. Bu zaman al arvadı qorxur, zahı qadına yaxın gəlmir. Sahibsiz qadın ölümcül vəziyyətə düşəndə deyirlər:

- Bunu deyəsən hal apardı.

Bu zaman al arvadı onu özünə qoşub aparmaq üçün onun ciyərini suya çəkir.

Ümumiyyətlə al arvadları bəni-insan üçün şər qüvvədirlər.

## *AMAZONKALAR VƏ YA PƏRI QIZLAR*

Amazon və ya Pəri qızları haqqında Azərbaycanın Kəlbəcər, Tərtər və Bərdə rayonları arasında çox sayda rəvayətlər yaşamaqdadır. Yerli rəvayətlərə görə Amazonlar Ağdərənin Sərsəng qayasından Tərtərin Kolanı yaxınlığındakı çaya

qədər olan sahədə məskən salmışlar. Onların son qərargahı Amazon sözünü "uzun çay vadisində uzun qadınlar" mənasında işlətmişlər. Amazonlar qadın olduqları üçün ruslar amazon qadınları yox, Amazonkalar şəklində işlətmişlər. Yerli əhali onları Pəri qızları adlandırmışlar. Türkiyədə yumşaq torpaq dağların sinəsində çox sayda dağın aşağısından yuxarısına qədər Pəri bacaları ilə doludur. Şəmkirin Alabaşlı kəndindəki Süni gölün sahilindəki yarğanlarda və təpələrdə Türkiyədə gördüyümüz Pəri bacaları vardır. Lakin o yuvalarda qırmızı, sarı, yaşıl rəngli Pəri quşları yaşayır. Görünür bu quşlar Amazon qadınlarına- Pəri qızlarına çox yaxın imişlər. Biz sonra bəhs edəcəyik. Amazonlular – Pəri qızları quş dilini də bilirmişlər. Onlara dəstə-dəstə gəzəndə Amazonlar, yayda su üstünə tökülüşəndə "qonur qazlar", - deyirlər.

Amazonlar necə yaranmışdır? Bölük-bölük yaşayan insanlardan bir dəstəsi hücum edib, bir dəstənin kişilərini tamam məhv edir. Qadınların başbiləni qadınlardan döyüşçülər hazırlayır, ağac nizələr atmaq üçün qadınların döşlərinin birini kəsirlər. Xeyli təlimdən sonra qadınlar hücum edib düşmən tayfanın kişisini də, qadınını da, uşağını da məhv edirlər. Nəsli davam etdirmək üçün qadınlar ildə bir dəfə qonşu tayfalara hücum edir, qadınlarını yurdlarından qovur, kişiləri ilə yaşayırlar.

Qadınlar bu yolla döl tutur, qoca Amazonları əvəz edən yeni nəsillər yetişdirirlər. Bunlara həqiqətən Azərbaycan şəraitində Amazon yox, Pəri qızları demişlər. Cəbrayılda, Bərdədə və onlara yaxın ərazilərdə çox sayda Pəri qızları yurdları, onun elçi daşları mövcuddur. İllər keçəndən sonra Amazonlar həddi-buluğa çatmış qızları Pəri yurdlarında saxlayır, onlar üçün qonşu tayfalardan oğlanlar seçib gətirirdilər. Oğlanlar bir ildən artıq Qızlar yurdunda qalır, uşaqları olur, doğulmuş oğlanları oğlanlara verib öz yurduna göndərir, qızları isə Amazon kimi özlərinə götürürdülər. Onlar gümrah böyüdülür, təlim keçildilir, anaları kimi döyüşə hazırlaşırlar. Biz yuxarıda qeyd etdik ki, Amazonlar – Pəri qızları quş dilini bilirmişlər. Məsələn: "Kitabi Dədə Qorqud"da Sarı Çoban hamıdan əvvəl yaylağa çıxardı. Bir dəstə Pəri qızları hovuzun yanına tökülüb, libaslarını soyunub və hovuzda çimməyə başlayırlar. Sarı Çoban Pəri qızlarından birinin libasını qucağına alır, hamı libasını geyinib uçur, bu Pəri qız Sarı Çobana yalvarır ki, paltarımı ver gedim, Oğuzu bəlaya salma. Pəri qızları ilə əlaqə sizin tayfaya xeyir verməz. Həqiqətən Sarı Çobanla Pəri qızından doğulan uşaq Təpəgöz olur və Oğuza bəla gətirir.

"Şah İsmayıl və Güllüzar" dastanında Adil Şah oğlunun nişanlısı Güllüzarı əlindən almaq üçün

qatı kirişlə qolunu bağlayır və oğlunun iki gözünü çıxarıb kor edir. Şah İsmayılın iki gözünü tula ağzında saxlayır. Ağaca qonmuş iki Pəri bacısı bir-birinə deyir:

- Əgər tulanın ağzındakı gözləri yerinə qoysalar Şah İsmayılın gözləri sağalar. Göz sağalır, lakin sağ gözü sol gözün, sol gözü isə sağ gözün yerinə qoyurlar. Əlbəttə, atanın çıxartdığı gözü yerinə qoysan da çəp olar.

Çənlibelin ətrafında dolaşalar söhbət edir. (Ayağı, dimdiyi qırmızı olan qarğaya dolaşa deyilir). Dolaşalar danışırlar ki, bu gördüyün Çənlibeldir. Bu dağda Koroğlu nərəsi var, Qırat kişnərtisi var. Rus generalı deyir:

- Nə olaydı, Koroğlunu və onun dəlilərindən birini görəydim. Bu zaman atla çaparaq Eyvaz gəlir, qaçarağını tutur, göyə atıb qılıncla iki bölür.

Ovçu Pirim bütün quşların nə dediyini başa düşüb, qardaşı Kərənə isə bütün quşların səsini olduğu kimi çıxarda bilib.

Məlumdur ki, bizim əlifbamızda otuz iki hərfimiz olduğu kimi quşların da cəmi otuz iki səsi vardır. Bir səs bir cümləni ifadə edir. Müasir insan diqqət yetirsə quşların otuz iki səslik əlifbasını öyrənər.

"Məlikməmməd" nağılında Simurq quşunun belinə bir tuluq su, bir cılğı ət qoyulur. (cılğı-qoyun dərisindən düzəldilir). Bütün dərinin üzü

qırxılır, o biri üzünə çevrilir, çobanlar aşılanmış tuluğa süd, cılğıya isə pendir yığırlar. Məlikməmməd də tuluğa su, cılğıya ət qoyur. Qu -dedikdə su, qa- dedikdə ət verir. Hazırda su quşlarına Qu quşları deyilir. Biz uşaq vaxtı qarğa qa-qa- deyəndə elə bilirdik ki, qar istəyir. "Məlikməmməd" nağılından sonra öyrəndik ki, qarğa qar yox, ət istəyir.

Məlikməmməd hövsələsizlik edib ətin bir tikəsini yerə salır. Simurq quşu qa- deyəndə məcbur qalıb öz budundan bir tikə ət kəsib quşa verir.

Belə deyirlər ki, İsgəndər Bərdədə Nüşabəyə qonaq olarkən əsgərlər buna xəbər verirlər ki, əli ağac nizəli Amazonlar- Pəri qızlar dəstəsi, daha doğrusu təlim görmüş Amazonlar - Pəri qızları tonqalların arasından gəlib keçir. İsgəndərin qoşunu bundan vahiməyə düşür. İsgəndər özü də dəhşətə gəlir. Belə deyirlər ki, Bərdənin mərkəzindəki Torpaqqala Amazonlara- Pəri qızlarına məxsusdur. Amazonlar - Pəri qızları qızılı, zinət şeylərini çox seviblər. Onları yollar cəngavəri, böyük qüvvə hesab etmişlər.

Goranboy rayonunun Yolqullar kəndinin yuxarı hissəsindən karvan yolu keçir. Bu yerə Pəri bacılarının "Gəl-Keç" meydanı deyirlər. Pəri bacıları biri-birindən güclü imiş. Gələn karvanları çaparmışlar, qızıllarını, sərvətlərini əllərindən alarmış-

lar. Qızıl axtaran acgözlər illərdən, əsrlərdən bəri lağım atmışlar. Hələ bu gün də onlar Pəri bacılarının sərvətini axtarmaqdan yorulmurlar.

# *AĞACLAR*

# *VƏ GÜLLƏR HAQQINDA*

## *ÇİNAR*

Seyfəlidə bir çinar var. Oraya ocaq deyirlər. Deyilənə görə həmin çinara bir qadın od vurub yandırır.

Çinar yanan kimi qadın yerindəcə daşa dönür. İndi də həmin daş qadın o çinarın yerində durur. Camaat oranı ocaq hesab edir.

## *SARI ÇİNAR*

Seyfəlidə bir çinar ağacı vardır. Adına sarı çinar deyirdilər. Deyilənə görə hər il ora böyük ilan sürüsü gəlir. Bu sürü bəzi adamın gözünə görünür, bəzisinə görünmür. Uşağı olmayan qadınlar o çinardan yüyürək asırlar. Çox keçmir ki, həmin qadının uşağı olur. Həmin çinar pir ocaq sayılır. Bir kişi həmin çinarı kəsir və özünə ev tikdirir. Ev tikilən kimi həmin kişinin gözü tutulur, üstəlik yeriyə də bilmir. Deyilənə görə həmin kişi daş kimi olur və tezcə ölür.

## *QARDAŞ ÇİNARI*

*Kəndimizin kənarında qocaman bir çinar var. Kəndimizin və qonşu kəndlərin camaatı həmin yerə pir kimi səcdəyə gedirlər. Çinarın yanında qara, qəbrə oxşar bir daş var. Qardaş çinarı haqqında bir rəvayət vardır. Ağsaqqallar belə nəql edirlər.*

Çox-çox uzaq keçmişdə bu kənd çox kiçikmiş, yəni cəmi 35-40 evdən ibarət idi. Amma camaat bir-biri ilə mehriban dolanırmış.

Yayı yaylaqda, qışı isə öz kəndlərində keçirirlərmiş. Kənddə bir şeyxdə yaşayırmış. Camaat onun hörmətini saxlayır və ona məsləhət etməmiş bir iş görmürlərmiş. Hamı tərəfindən şeyx adlanan bu ağsaqqal onların xeyir və şərində öz ağıllı məsləhətləri ilə iştirak edərmiş. Lakin bu aqil insanın bir dərdi varmış – o da övlad dərdi imiş. Uzun müddət keçəndən sonra Şeyxin bir oğlu olur. Bütün varlığı ilə sevinib, kədərə-dərdə qalib gələn ata var qüvvəsi ilə camaatın işlərinə köməklik edir. Oğlunun şərəfinə abadlıq işləri gördürür. Kənddən bir qədər kənarda, təpənin köksündə axan çayın kənarında körpə bir çinar ağacı əkir. Oğlunu əzizlədiyi kimi, çinar ağacını da əzizləyib, ona qulluq edir. İllər keçir. Bu illərin birində camaatın dincliyi pozulur, abadlıq işləri yarımçıq qalır. Hər evdən ah-nalə sədaları eşidilir. Kütləvi “qara yara” xəstəliyi aləmi ağuşuna alır. Və qurbanların günahsızlarından biri də Şeyxin oğlu olur. Ata qəlbi dərinliklərinə qədər parçalanır. Lakin dəyanətini itirmir. Oğlunu onun şərəfinə əkdiyi çinarın altında dəfn edir. O, heç nə ilə təskinlik tapmır. Bu ağır itkiyə dözməyə iqtidarı qalmır. Gecə-gündüz çinarın yanından əl çəkmir. Ata qəddi bükülür. Lakin vüqarı sınmır. Yenə də camaatın dərdini unutdurmaq üçün onlara təskinlik verir. Şeyx dərdini dağıt-

maq üçün Məkkəyə ziyarətə gedir. Ziyarətdən özü ilə müqəddəslərdən birinin qəbrindən daş gətirir. Vəsiyyət edir ki, o öləndə onu oğlunun yanında basdırsınlar, daşı da onların üstünə qoysunlar. Belə də edirlər. Əfsanəyə görə daş böyüyüb hər iki qəbirin üstünü tutur. O vaxtdan bu çinar və onun altındakı daş ziyarətə çevrilir.

Sonralar bu daşa xaraba daşı deyirlər. Bu da bir əhvalatla bağlıdır. Kənddə var-dövlətləri ilə hamıdan üstün olan dörd qardaş varmış. Bu qardaşlardan biri həmin daşı arabaya qoyub öz həyətlərinə gətirir. Gecə yatır, sabaha çıxmır. Camaat bir-birinə dəyir. Çox sağlam, gümrah, kürəyində kərən sındıran bu oğlanın ölümünün səbəbini axtarırlar. Çox keçmir ki, ikinci qardaş vəfat edir. Bədbəxt ana bu itkidən sonra özünə gələ bilmir. Ağsaqqallar yığılıb ona məsləhət görürlər ki, qara daşı aparıb yerinə qoysunlar Belə də edirlər.

Əsrlər keçməsinə baxmayaraq, dəfələrlə ildırım vurmuş, təbii fəlakətlərə uğramış bu çinar indi də öz əzəməti ilə ucalır.

## *QOŞA ÇINAR*

Bir kişinin iki oğlu var idi. Kişi padşahın üzünə ağ olduğuna görə bir gün şah onu döydürür. Bu xəbəri eşidən oğlanlar padşahı gizlicə öldürürlər. Padşahın adamları da oğlanları tutur və öldürürlər. Bunların ölümündən sonra qoca kişi arxın üstündə bir cüt çinar ağacı əkir. Mənim oğlanların yüz il yaşayacaqdılarsa da, ağaclar beş yüz il yaşayacaq. Mən onlara baxanda oğlanlarımı yada salıram. Həmin qoşa çinar suyun üstündə hələ də qalır. Həmin ağaclar Bərdə rayonunun Qullar kəndindədir.

## *SÖYÜD AĞACI*

Seyfəli kəndində bir söyüd ağacı vardır. Onun üç budağından durmadan su axır. Ağacın dibində qurban kəsirlər. Hər gecə həmin söyüdün altında bir çıraq yanır.

Gecələr marallar gəlib oradan su içər.

Bir gün Məhəmməd adlı bir kişi söyüdü kəsmək istədi.

*Sənə qurbanam, ay pir,*

*Gəlmişəm kəsəm üç tir.*

Deyilənə görə Məhəmməd söyüdün üç budağından kəsir. Budaq kəsilən kimi oradan su tökülür. Həmin ağac indi də durur. Ora pir adlanır. Ziyarətə çevrilib.

## *ДОГГУЗ ДОН АЬАЖЫ*

Доггуз дон бязяк аьажыдыр. Дейилянляря эюря бу аьаж гызыл сцхурları олан bir йердя битир. Йазда-йайда чичякляйян бу аьажын лопа-лопа аь эцлляри олур. Гызлар яря эедяркян онларын сачыны həmin аь чичяклярля бязяйирлярmiş. Бу адят Испан халгында да вар имиш. Сервантес юзцнцн "Дон-Кихот" ясяриндя Доггуз дон чичяйиндян вя тойда гызларын о чичякляри сачларына дцзмясиндян эениш бящс едир.

## *ЯРЭЦВЯН АЬАЖЫ*

Ярэцвян аьажы надир аьаждыр. Эянжя паркында bu ağacdan цчü, Низами кинотеатрынын габаьында isə бир дяняси галмышдыр. Бу аьаж яфсаняйя эюря чичяклярля бязяняркян яриня дейярмиш ки, мяня бах, мяня эцвян, yəni mян яр эцвянян bir эюзялям. Тойу олан гызлар гырмызы чичяклярля бязянмиш, бу эюзял ağacın йарпаглары иля йанашы эювдясиндяки мунжуглары да сапа дцзцб йахаларындан асaplarмыш. Чичякляр ачыг гырмызы рянэя чалыр. Дейилянляря эюря ярэцвян гызын севэилиси Фцзули районундакы ярэцняш даьыдыр. Онларын мящяббятляри щаггында шеiрляр дя йазылмышдыр.

## *YEDDİ QARDAŞ*

Seyfəlidə yaşayan ermənilərlə müsəlmanların davası düşür. Vuruşma indiki Dağılış dağında gedir. Yeddi müsəlman qardaş bu müharibədə iştirak edir. Onlar məğlub olub, ermənilərə əsir düşürlər. Ermənilər Dağılış dağında onların başını kəsirlər. Qardaşların qanı tökül-

düyü yerdə yeddi çinar ağacı bitir. Elə həmin zamandan bəri ora sitayiş edirlər və ora ocaq sayılır. Yeddi ağac elə bitmişdir ki, elə bil əl ilə əkilmişdir.

## *HƏMİŞƏ YAŞIL*

Bir kişinin dizi qara, gözü qara bir qoçu varmış. Həmin kişi dizi qara, gözü qara qoçu kəsmək istəyirmiş. Bunu duyan qoç qaçır. Kişi ha çalışırsa da qoçu tuta bilmir. Qoç çayın sahilinə tərəf üz tutur. Elə bu vaxt bir dəstə qız bulaqdan gəlirmiş. Kişi qızlara deyir ki, ay qızlar, o qoçu tutun. Qızlar gülüşüb keçir. Kişi sahildə olan bir ağaca deyir ki, o qoçu tut. Ağac qoçun ayağına sırmaşır və qaçmağa qoymur. Kişi gəlib qoçu tutur və deyir: - Qız, cehizin bitməsin, böyürtkən, göyün getməsin.

Doğrudan da bu misal xalq arasında hələ də işlənir. Qızlara nə qədər cehiz alınır, yenə də qurtarmır. Həmin ağac isə ilin bütün fəsillərində yaşıl olur.

## *HAQQ AĞACI*

Deyilənlərə görə qədim zamanlarda bir cavan oğlan bir kişi ilə dost olur. Günlərin bir günündə onlar ova çıxırlar. Gəlib bir ağacın altında yeyib-içirlər. Sonra öz atlarını minib gedirlər. Gedərkən kişi qabağa düşür, oğlan isə dala qalır. Bunu görən oğlanın beyni coşur, daldan çaxmağı çəkib kişini vurur, kişi yerə yıxılıb ölür. Oğlan isə qayıdıb kəndə gedir. Kişinin arvadı ərini xəbər alır. Oğlan bu günkü əhvalatı boynuna almır. Vaxt gəlir arvadın bir oğlu olur. Oğlan böyüyüb boya-başa çatır. Günlərin bir günündə o, ova çıxır. Gəlib həmin ağacın altında dincəlir. Elə bu vaxt bura bir kişi də gəlir. Onlar xeyli söhbətləşirlər. Kişi keçmişindən danışır. Axırda oğlana deyir:

- Mən də sənin kimi uşaq idim. Bir kişi ilə ova çıxmışdım. Öz gücümü sınamaq fikrinə düşdüm. Əlimdə tüfəng var idi. Beynim coşdu. Durub gedəndə onu bu ağacın altındaca daldan vurub öldürdüm. Bu əhvalatı heç kəs bilmədi.

Oğlan tez barmağını dişlədi. Məsələni başa düşdü. Deməli, atasını öldürən bu kişi imiş. Oğlanla kişi durub yola düşərkən oğlan dedi:

- Mənim də beynim coşub, gücümü sınamaq istəyirəm.

Oğlan daldan çaxmağı çəkdi, kişi yerə sərildi. O, nəhayət neçə ildən sonra atasının

qanını həmin ağacın altında aldı. O vaxtdan həmin ağacın adını “Haqq ağacı” adlandırırlar.

## *GÖYCƏ SULTAN*

Keçmiş zamanlarda bir varlı kişinin Göycə adlı gözəl bir qızı olur. Ona hər yerdən elçi gəlir, ancaq qız heç birinə razılıq vermir. Göycə öz kəndlərində Sultan adlı kasıb bir oğlanı sevirmiş. Onlar əhd-peyman edirlər.Göycənin atası bundan xəbər tutub bərk hirslənir və qızı başqasına vermək istəyir. Qız atasına deyir:

- Xeyr, ata, getsəm ancaq Sultana gedəcəyəm.

Ata qəzəblənirr. Qızı heç yana buraxmır. Bundan sonra Göycə özünü həyətlərindəki ağacdan asır. Sultan bu xəbəri eşidən kimi gəlir o da dözə bilməyib özünü öldürür. Həmin vaxtdan o ağaca “Göycəsultan ağacı” deyirlər.

## *QIZILGÜL*

Belə söyləyirlər ki, çox-çox uzaq keçmişdə bir varlı kişi yaşayırmış. Amma bu kişinin heç övladı olmurmuş. O, həmişə dərdli gəzib dolanırmış. Fikirləşirmiş ki, o öləndən sonra onun var-dövləti kimə qalacaq? Ona məsləhət görürlər ki, Arzu dağına qurban aparsın, bəlkə arzusu yerinə yetə. Arzu dağının bir hissəsi həmişə yanırmış. Arzusu olanlar dağın yanar hissəsində qurbanlar kəsər, oraya nəzir qoyarmışlar. Kişi arvadını da götürərək oraya gedir. Bir neçə vaxt keçdikdən sonra onların bir qızı olur. Qız həddindən artıq gözəl olduğuna görə onun adını Qızıl qoyurlar. Qızıl gündən-günə böyüyərək daha da gözəlləşir. Onların qonşuluğunda kasıb bir kişi yaşayırmış, onun da gözünün ağı-qarası bircə oğlu var imiş. Oğlanın adı Bülbül imiş. O da çox gözəl bir igid imiş. Onlar görüşür və bir-birini saf məhəbbətlə sevməyə başlayırlar. Lakin Qızılın atası onu Bülbülə vermir və deyir ki, o kasıbdır, əgər varlansa bu iş baş tuta bilər. Bülbül Qızılla vidalaşaraq yola düşür. Qızıl and içir ki, ölənə qədər əhdinə sadiq qalacaqdır.

Bülbül getdikdən sonra atası ölür. Qızılı varlı bir oğlana nişanlayırlar. O, gecə-gündüz fəryad edir, lakin ona qulaq asmırlar. Toy başlayır, səhər gəlib Qızılı aparacaqlar. O, hamı

yatandan sonra durur və üzünü Yanar dağa tutaraq deyir:

-Ey Yanar dağ, səni and verirəm o yanar odlara, məni bir gülə döndər və bülbülün həyətində bitir. Elə o dəqiqə Qızıl bir gül kolu halında Bülbülgilin həyətində bitir. O, hər bahar gözəl ağ çiçək açır. Qızın ata-anası bu işə davam gətirməyib ölür.

Nəhayət, Bülbül gəlib çıxır. O, Qızılı axtarır, amma tapmır. Adamlar əhvalatı ona danışırlar. Bülbül gül kolunun yanında xəncərlə sinəsini yaralayır, onun qanı gülün ləçəklərini al rəngə boyayır. O, öz arzusu ilə quş olur, Qızılgül kolunun başına dolanır. O gündən başlayaraq Qızılgül qırmızı rəngdə çiçəklər açır. Adamlar onları əbədiləşdirmək üçün onu sevgi çiçəyi adlandırırlar. O vaxtdan başlayaraq Qızılgül sevgi, məhəbbət rəmzi kimi tanınır.

## *QIZILGÜL VƏ TİKAN*

Rəvayətə görə qızılgül tikansız, zərif və xırdaca bir bitki imiş. Elə zərifmiş ki, asta əsən küləklər də onu kökündən qoparırmış. Günlərin bir günü külək yenə də qızılgülü qabağına qatıb aparır. Tikan kolu bunu görüb çoxdan məhəbbət bəslədiyi bu zərif məxluqu qolları arasına alır.

Qızılgül onun qoynuna qısılır və tezliklə şirin yuxuya gedir. Tikan kolu isə bütün gecəni kirpik-kirpiyə vurmur, küləklə əlbəyaxa döyüşə girir. Külək nə qədər hirslənir, coşub-daşırsa, kökləri yerin yeddi qatına işləmiş tikan kolunun əzmini qırıb ona bata bilmir.

Aralarında bu qədər təzad - bir gül, bir tikan olsa da, o gündən, bu günə bu ittifaq heç zaman pozulmamışdır. Elə indinin özündə də kimsə zərif qızılgülə toxunanda iti-iti tikanlara rast olur.

## *QIZBOYU ÇİÇƏYİ*

Qızboyu sarı rəngli gözəl bir çiçəkdir. Bu çiçək haqqında rəvayət eyləyirlər ki, guya Qızboyunu əmisi oğluna nişanlayırlar. Qızboyu isə atasının çobanına könül verir. Ancaq valideynləri buna heç cür razı olmurlar. Çobanın eşqi Qızboyunu divanə eyləyir. O, çox fikirləşir, amma çobana qovuşmağın yolunu tapa bilmir. Əlacsız qalıb özünü öldürmək istəyir. Birdən yadına düşür ki, çoban daim dağda, daşda, çəmənlikdədi. Qızboyu baş götürüb evdən qaçır. Gözəl bir çəmənlikdə oturub Tanrıya yalvarır ki, onu bir ətirli, əlvan çiçək eyləyib çəmənlikdə

bitirsin. Gözəl Qızboyu çiçək olub o vaxtdan çəmənlikdə bitir. Ətrindən sevgilisi olduğunu bilən çoban hər gün bu çiçəyi sevib qoxlayır.

## *XATUN ÇİÇƏYİN TƏRLANI*

Quşçu xanının bir cüt əkiz qızı var idi. Qızlar böyüyüb həddi-buluğa çatmışdılar. Qızın birinin adı Xatun Çiçək, o birinin adı Xatun İpək idi. Xatun Çiçək Alp Ərən adlı bir oğlanı sevirdi. Oğlan da qıza vurulmuşdu.

Qızların hərəsinin bir tərlan quşu var idi. Bir gün Quşçu xanı deyir:

- Qızlara deyin, quşları ötüşməyə buraxsınlar, kimin tərlanı Ağqalaya tez dəyib qayıtsa, əvvəlcə onun toyunu edəcəyəm.

Qızlar tapşırığa əməl edirlər. Lakin bədbəxtlik üz verir, Xatun Çiçəyin tərlanının ayağındakı bağ Ağqalanın daşına ilişir, qız bundan məyus olur. Kimsə uzaqdan bir ox atır, ox daşa ilişmiş bağı qırır və quşu xilas edir. Xatun Çiçəyin tərlanı xilas olan kimi coşur və daha tez geri qayıdır, qız sevinir.

Quşçu xanı deyir:

- Xatun Çiçəyi onun tərlanını xilas edən igidə ərə verəcəyəm.

Xatun Çiçək bundan məyus olur. Axı, o, Alp Əroni sevirdi.

Quşçu xanı deyir:

- Tərlanı xilas edən oğlan meydana çıxsın.

Hamı izdihamla baxır, Xatun Çiçək də həyəcanlı idi.

Adamların arasından Alp Ərən əlində yay-ox meydana çıxanda Xatun Çiçəyin köksündə ürəyi atlandı, üzü güldü. Bu hamının ürəyindən oldu.

## *GİCİTKAN*

Vartaşen rayonu ərazisində gicitkan bitkisi xüsusilə çoxdur. Buna görə də belə bir rəvayət yaranıb ki, bir gün bir çoban sürünü yaylağa çıxarır. Bir azdan yorulduğundan göy çəmənlikdə uzanır. Boyca o biri bitkilərdən hündür olan gicitkan çobanın əllərini yandırır. Çoban ufuldayıb deyir: - Nə gicişdirən bitkidir. Elə o vaxtdan həmin xalq arasında gicitkan adı ilə tanınır.

# *TOPONOMİK RƏVAYƏTLƏR*

### *ТЦРК ГЫЗЫ ВЕЪАН*

Дейиляня эюря, qədim zamanlarda индики Кялбяъярдя Улухан адлы бир хан йашауıрмыш. Ханын böyük ордусу və эцълц пящляванлары варıумыш.

Хан бир эцн сящяр tezdən гапыда эязирмиш. Бир аз аралыда isə эялини Беъан

inək саьырмыш. Birdən уахынлыгдакы кял шулуглуг едир. Буна дюзмяйян Беъан айаьа галхıр və бир эюз гырпымында гызышмыш кяли башы цзяриня галдырараг гайадан атыр. Кял майаллаг ашараг эумбулту иля Тяртяр чайынын йанындакı хараба кяндя дцшцр. Хан юз эюзляри иля эюрдцйц бу щейрятамиз щадисяни эюрмямязлийя вурур. Анъаг тцрк гызы Беъанын щярякятини щеч кимя демир вя буну сирр кими цряйиндя сахлайыр.

Эцнлярин бир эцнц йаделлиляр Улуханын цстцня щцъум едирляр. Ханын 18 няфяр гцдрятли пящляваны вар имиш. О вахтkı adətə görə саваш едянляр юнъя пящляванlar эцляшдирярмишlər. Кимін пящляваны цстцн эялся, щямин тяряф галиб щесаб олунармыш. Нящайят, щяр ики тяряфин сай-сечмя пящляванлары мейдана чыхыр. Онлар гуршаг тутуб, эцляширляр. Йаделли щюкмдарын пящляваны Улухан ханын пящляванларынын 18-ни дя йыхыр. Хан артыг мяьлубиййятин астанасында олдуьуну эюрцр. Онун мяьлубиййяти юзцнцн, аилясинин, мащалынын, халгынын йаделли щюкмдара тяслим олмасы демяк иди. Бирдян ханын йадына эялини тцрк гызы Беъанын эюстярдийи иэидлик дцшцр. Артыг

дырнаг ятя дирянмишди. Башга чыхыш йолу олмадыьыны эюрян хан эялниня пящляван либасы эейиндиряряк сон цмид йери кими мейдана чыхарыр. Пящляванлар хейли эцляширляр. Йаделли пящляван эюрцр ки, артыг ханын пящляваны она эцъ эялир. Еля бу ан йаделли гаршысындакы пящляванын гадын олдуьуну дуйур вя фцрсят тапыб onun дюшцня ял атыб гопарыр. Йаделлинин бу намярдлийини эюрян тцрк гызы Беъан бцтцн дящшятли аьрыларыны унудараг вар эцъц иля рягибини башы цстцня галдырыр вя ону архасы цстя йеря йыхыr. Sonra башгаларына да gюрк олсун дейя башыны кясир.

Беляликля, Улухан йаделли гошуна галиб эялмиш сайылыр. Анъаг бу гялябя иткисиз олмур. Аз кечмямиш хейли ган итирмиш тцрк гызы Беъан ъаныны тапшырыр.

Бу иэидлийи хатирялярдя йашатмаг вя эяляъяк нясилляря чатдырмаг цчцн хан эялини Беъанын кяли гайадан атдыьы вя йаделли пящляванын башыны кясдийи сящняни шящярин гала диварына щякк етдирир. Бу гящряманлыг сящняси инди дя Кялбяъярин гала диварында галмагдадыр. Бунунла кифайятлянмяйян хан Беъанын адыны даща да ябядиляшдирмяк цчцн

йашадыьы мямлякятя Кялбеъан адыны верир. Бу ад тарихин мцяййян дюврляриндя ассимилйасийайа уьрайараг инди Кялбяъяр шяклини алмышдыр.

## *АББАСБЯЙЛИ*

Беля дейирляр ки, шащ оьлу Шащ Аббас нечя дяфя имиш ки, Тифлися щцъум едирмиш, анъаг hər dəfə də мяьлуб олуб эери чякилирмиш. Шащ Аббас бу дяфя дя Тифлися щцъум едир. Гошун шящяря долур вя мцщасиряйя дцшцр. Bunu görən Шащ Аббас арадан чыхыр. Дярвиш палтары эейиняряк пай-пийада Ирана этмяйя башлайыр. Эялщаэял эялиб бир кяндя чаtыр. Бу кяндя «Таьарбяйли» дейирлярмиш. Кяндин эиряъяйиндяки дахмада Сцбщанверди адлы бир гары йашайырмыш.

Шащ Аббас дахманын гапысыны дюйцр. Сцбщанверди гары ешийя чыханда она дейир:

- Аллащ гонаьы истямирсянми, ай гары?

- Нийя истямирям, Аллаща да гурбан, онун гонаьына да, - дейя гары ону ичяри дявят едир.

Шащ Аббас кечиб бир тяряфдя яйляшир.

Бу гарынын нахырчы ишляйян бир оьлу, бир иняйи, бир ити, бир дя бир газаны вармыш. Щямин газанда габагъа йал чалыб итя веряр, sonra da газаны йуйар və иняйи саьыб юзляриня щорра биширярди. Инди гонаьа эюря тялясдийи цчцн итин йалыны йалаьа исти-исти тюкцр ки, щорра биширсин. Ит еля билир йал йеня дя гайнардан дцшцб, сойуйуб, lakin дилини йала vuran кими зинэилдяйиб эери чякилир, гарынын цзцня ганлы-ганлы бахыр.

- Бый, башына даш дцшсцн. Шащ оьлу Шащ Аббас кими тялясийиб юзцнц нийя мяьмун еляйирсян. Йалаьын гырагларыны йалайа-йалайа йесян, ичи дя аьзыны беля биширмяз, - дейя гары итя аъыгланыр.

Шащ Аббас юз щесабыны эютцрцр.

Ирана гайыдыб гошуну топлайыр. Бу дяфя гарынын дедийи кими də едир. Тифлиси мцщасиряйя алыр, чарясиз галан эцръцляр тяслим олурлар.

Тяслим олмаьы özünə сыьышдырмайан эцръц щюкмдары Тамара йанына йедди адам чаьырtdırır. Онлара ямр едир ки, филан йердя bir гябир газын və бура эялин. Вурада бир табут олаъаг, ону апарыб щямин гября гойаsınız. Сонра йедди фярраша тапшырыр ки, эеъя, филан вахты сарайа йедди адам дахил олаъаг, онлары юлдцрərsiniz. Гардашларына да дейир ки, бу эеъя гаравулда дуран йедди няфяри юлдцрярсиниз.

Тамара бунлары həll edəndən sonra гызылдан гайрылмыш табутун ичиня эирир вя юзцнц юлдцрцр. Онун бцтцн тапшырыглары йериня йетирилир. Сящяр ачыланда Тамараны ня гардашлары тапыр, ня дя Шащ Аббасын адамлары. Онун гейбя чыхмасы да о вахтдан намялум галыр.

Шащ Аббас Тифлиси алыр вя Эянъяйя гайыдыр. Орадан Qазаьа чапар эюндярир вя она тапшырыр:

- Эедярсян Газах мащалына, орда Таьарбяйли кянди вар. О кянддя Сцбщанверди адлы бир гары йашайыр. Ону оьлу Аббасла birgə мяним йаныма эятирярсян.

Чапар эялиб гарыны тапыр. Онлары Шащ Аббасын çаğырышы иля апардыьыны

сюйляйир. Гары горхур, юз-юзцня дейир ки, эюрясян, биз ня эцнащын сащибийик?

Onlar sарайа эялирляр. Гапыдан ичяри эирян кими гары диз чюкцр. Шащ Аббас айаьа галхыб ону галдырыр вя дейир:

- Гары, мяни таныйырсан?

- Йох, - дейя гары диллянир.

Шащ Аббас вахтilə qarının итя дедийи сюзляри она хатырладыр:

- Мян щямин гонаьам, Шащ Аббасам.

Гары титряйир. Горхур ki, о сюзя эюря, юзц щеч, юзц онсуз да эцнцнц эюрцб, дювраныны сцрцб, шащ онун оьлунун бойнуну кяндиря кечиря.

Шащ Аббас дейир:

- Гары, о сюздян мян чох шей эютцрдцм. Бу гялябям дя о сюзя эюря олду. Таьарбяйли кяндинин адыны сянин оьлунун ады иля Аббасбяйли кянди гойурам, oğlunu da щямин кяндя бяй тяйин едирям.

Дейирляр ки, Таьарбяйли кянди щямин вахтдан Аббасбяйли кянди адланыр.

## *GƏNCƏ- GENCƏ*

Deyilənə görə, bu şəhərin yeri geniş düzənlik imiş. Bir gün çoban qoyun otarırmış. Bir şah gəlir. Şah deyir ki, bəs mən burada şəhər salmaq istəyirəm. Çoban isə deyir: - Şah sağ olsun sal, ancaq gencə sal, yəni geniş olsun. Deyilənə görə, Gəncə sözü o vaxtdan qalmışdır.

## *GƏDƏBƏY*

Keçmişdə dağlıq rayonların birində mis mədəni var imiş. Bir gün bu mədənə bir neçə rus gəlir. Bu yerin adını soruşurlar. Rus dilində danışa bilməyən fəhlələr onun verdiyi sualı başa düşmürlər və əsəbiləşərək  belə deyirlər. – Get, a bəy! Ruslar bunu yerin adı kimi başa düşürlər və "Gedabek" şəklində tələffüz edirlər. O vaxtdan bu rayon Gədəbəy adlanır.

## *FİLFİLLİ KƏNDİ*

Filfilli kəndi Azərbaycanın Vartaşen rayonunun ən ucqar kəndlərindən biridir. O, Böyük Qafqaz sıra dağının lap ətəyində yerləşir. Bu dağ Azərbaycanla Dağıstanı iki hissəyə ayırır. Dağın şimal hissəsi Dağıstan, cənub hissəsi isə Azərbaycandır. Vaxtilə Dərbənd yolunda nəqliyyat olmadığına görə Fin yolu

deyilən bir yol vardı. O yol hal-hazırda da durur. Dağıstandan Azərbaycana keçmək istəyənlər həmin yoldan istifadə edirdilər. Lakin yol çox sıldırım və ensizdi. Rəşid Babanın dediyinə görə 1 çərək 25 sm-dir.

Rəşid baba sağlam bir çobandır və dediyinə görə hal-hazırda həmin kənddə yaşayır. O, söyləyir bu kəndin əmələ gəlməsi ta qədim zamanlara aiddir. Deyilənə görə vaxtı ilə bir dəstə finli buraya səyahətə gəlib. Bu yerlərin havası və suyu çox sağlam olduğuna görə burada məskən salıb, yaşayıblar. Onlardan birinin adı Şahbələd olub. O, bu adamlardan fərqli olaraq boyca çox uzun, enli kürək, həm də canlı idi. Şahbələd bu dəstənin başçısı sayırdı. Fin yolundan gəlib keçən adamlardan bac-xərac alardı və onlara bələdçilik edib, yol göstərərdi. Məhz buna görə də onun adı Şahbələd idi. Həm də o, kənddə şahlıq edərdi, camaat onun göstərişilə hərəkət edərdilər.

Burada yaşayan bir qrup adamın finli olmasını sübut edən amillərdən biri də odur ki, deyilənlərə görə dünyada finlilərdən uzun insan yaşamayıb. Bu yaxınlarda Saleh Qazıyevin geoloji qazıntılarından bu kənddə insan qəbri aşkarlanıb və bu qəbrdən 3 m uzunluğunda sklet tapılıb. Bu barədə Saleh Qazıyevin "Azərbay-

canın qədim abidələri" adlı kitabında yazılıb. Saleh Qazıyev özü Vartaşen rayonunun Xaçmaz kəndində anadan olub. Uzun müddət Bakı şəhərində yaşayıb. O, qazıntılar üzrə alimdir. Onun söhbətinə görə bu kənddə vaxtı ilə finlilər məskən saldıqlarına görə kəndin adı da onlarla bağlıdır. Əsrlər keçdikcə kəndin adı təkmilləşib və hal-hazırda Filfillilər kəndi adlanıb. Bu əhalinin milliyyəti ləzgidir.

## *SEYFƏLİ*

Deyilənə görə bizim ağamız hesab olunan İmam Əlinin iki qılıncı var imiş. İndiki Seyfəlidə isə bütpərəstlər yaşayırmış. Əlinin qılıncının birinin adı Zülfüqar, o birinin adı isə Seyfi imiş. Əli bu yerdən keçdikdə həmin Seyfi qılıncı ilə bütpərəstləri müsəlman edir.

O vaxtdan bu yerlərə Seyfəli adı verilir.

## *ЧИНАР ТАЛА*

Рявайятя эюря, кечмиш заманларда Шяки адлы ъаван vә пящляван ъцссяли бир оьлан варды. Бир эцн о, ова чыхыр. Ов заманы ъцйцрцн изиня дцшян Шяки Зяйлик (Дашкясян району) йахынлыьында Сона адлы бир ермяни гызына раст олур. Гызын эюзяллийи onu мяфтун едир. Гыз да Шякийя вурулур. Онлар ящд-пейман баьлайырлар. Шяки щямишя ова эетмяк бящаняси иля Сона иля эюрцшцр. Бир эцн Сона дейир ки, мяни ямим оьлу Ашота вермяк истяйирляр, gәl sәn dә елчи эюндяр.

Шяки билир ки, гызы она вермяйяъякляр. Анъаг гызын сюзцнü yerә salmayıb елчиляри эюндярир. Гызын атасы Сонаны Ашота веряъяйини деуir vә елчиляр кор-пешиман эери гайыдыр. О эцндян Ашот гызы эюздян гоймур. Ермяни гызыны истядийи цчцн гощум-яграба Шякини мязаммятляйир. Ня чохдуг елдя ел гызы, бирини ал, унут тярса гызыны, - дейирляр. Анъаг Сонанын ешги Шякини динъ бурахмыр. Сона да щямишя Шякини эюзляйир,

гайанын башында дуруб йоллары сейр едярмиш.

Бир эцн Шяки ов бящаняси иля Зяйлийя тяряф йол алыр. О, Сонаны тапыр vә ону гачырдыр. Ашотун йолдашлары дуйуг дӥшӥб Шякинин архасынъа эедирляр. Шямкир чайыны кечдикдян сонра онлара чатырлар. Шякини юлдцрцб гызы гайтарырлар. Чобанлар Шякини щямин йердя дяфн едирляр. Sonralar Шякинин гябри цstündә бир чинар битир. Dейилянляря эюря щямин чинар узаныб Зяйлик тяряфдяки йалын башына тяряф мейиллянир. Буну эюрян Сонанын ряфигяляри бу байатыны охуйуб, Сонаны вяфасыз адландырырлар:

Язизинням чинар тала,
Аз галыб чинар йола.
Щеч бу инсафдандымы,-
Оьлан юля, гыз гала.

Рявайятя эюря, Сона о гядяр аьлайыр ки, онун эюзляринин йашындан бир булаг ямяля эялир. Нямин булаq Чинар булаьы адланыр.

Эцнлярин бир эцнцндя Сона щямин байатынын тясири алтында юзцнц гайадан атыр. Чобанлар Сонаны Шякинин йанында дяфн едирляр. Онун да гябринин цстцндя бир

чинар битир. Щямин йерə инди «Чинар тала» deyirlər.

## *BABA SƏMİD*

Mömin müsəlman olan şeyx Baba həm də kənd yoxsullarının dostu idi. O, həmişə kənd camaatının aşağı təbəqəsi ilə yaxınlıq edir və min cür hiylə işlədib camaatı çapıb-talayan varlıları pisləyirdi. Onun bu hərəkətlərinə görə nəinki yaşadığı kənddə, hətta qonşu kəndlərdə belə yoxsullar onu özlərinə dost bilir və ona hörmət edirdilər.

Kənd varlıları isə şeyx Babanı öldürmək istəyirlər. Ancaq camaatın qəzəbindən qorxduqları üçün ona heç bir şey edə bilmirlər.

Bir gün Baba Kür çayının aşağısında yerləşən uzaq kəndlərdən birinə qonaq getməli olur. O, səhər çörək yeyib yola çıxır. Bu xəbəri eşidən Babanın düşmənlərindən bir neçəsi silahla onun dalınca düşürlər. Baba yolda bərk susayır və su içmək üçün Kür çayının sahilinə gəlir. Bu zaman onun dalınca gələn silahlı adamlar sahildəki kolların arasından çıxıb onu öldürürlər. Onlar Babanın cənazəsini qayıqla o biri sahilə keçirib gözdən uzaq bir yerdə basdırmaq qərarına

gəlirlər. Lakin Babanın cənazəsini qayığa mindirib aparmaq istəyən zaman bərk külək əsir və şimşək çaxır. Babanın qatillərini ildırım vurub öldürür, qayığa isə heç bir şey olmayır. Çox keçmədən külək sakitləşir və qayıq çayın axınının əksinə olaraq heç kəsə rast gəlmədən bir-neçə gün yol gedir. Bu zaman Çələbi adlı bir nəfər balıq tutmaq üçün Kür çayı sahilinə çıxıbmış. O, yuxarı gedən sahibsiz qayığı görür. Tez özünü suya atıb qayığı tutur və qayıqda Babanın cənazəsini görüncə heyrətdən donub qalır. Tez cənazəni götürüb evə gətirir. Babanın dostları olan yoxsul camaat onu dəfn edirlər və qəbri üstündə bina tikdirib, buranı ziyarətgaha çevirirlər. Camaat bura ziyarətə gələnlərə Babanın bu faciləi ölümündən ürək ağrısı ilə danışıb, "Baba daha samit qaldı", - deyirlər. Sonralar bu ifadə camaat arasında dəyişilib Baba Səmid kimi işlənməyə başlayır.

## *ŞAH ABBAS MƏSCİDİ*

Şah Abbas başqa bir şahın qızını almaq istəyir. Lakin qız özgəsinə nişanlı olur. Bunu bilən Şah Abbas ondan əl çəkməyəcəyini və hər necə olsa da onu alacağını söyləyir. Qızın atası

Şah Abbası yaxşı tanıyırdı. Bilirdi ki, Şah Abbas dediyini eləyəcəkdir. O, çox fikirləşdikdən sonra, nəhayət Şah Abbasın qarşısına belə bir şərt qoyur ki, gərək elə bir saray tikdirəsən ki, onun palçığını yumurta ağından tutsunlar. İkincisi mənim qızım sarayda olarkən günorta vaxtını bilmək üçün heç yerə çıxmadan günəşi görməlidir. Üçüncüsü sarayın qülləsinin biri günçıxana, digəri isə günbatana tərəf olmalıdır. Əgər sən bu üç şərti yerinə yetirsən mən qızımı sənə verərəm.

Şah Abbas ən yaxşı bənnaları və ustaları yanına çağırır və onlara bu üç şərti yerinə yetirməklə bir saray tikmələrini əmr edir.

Qızın atası sarayı tikdirmək üçün vaxt verir. Nəhayət vaxt tamam olur. Ancaq sarayın qurtarması üçün cəmi bir neçə günlük iş qalır. Sarayın vaxtında qurtarmaması şahı və qızını sevindirir. Şah nişanlı qızına 7 gün 7 gecə toy elətdirir. Axırıncı, yəni 7-ci gün Şah Abbasın sarayı hazır olur. O, qızı aparmaq üçün onlara gəlir. Şah əvvəlcə qızını Şah Abbasa vermək istəmir ki, sən sarayı vaxtında hazır etməmisən. Lakin o, Şah Abbasın qəzəbləndiyini görür və ondan qorxur. Əlacsız qalıb qızı ilə birlikdə saraya gəlir. Görür ki, doğrudan da Şah Abbas onun dediklərini yerinə yetirmişdir. Sarayın

qülləsinin biri günçıxana digəri günbatanadır. Palçığı isə yumurta ağından tutulub. Qalır üçüncü şərt, yəni sarayın içində heç nə soruşmadan günorta vaxtını bilmək. Artıq axşam olduğu üçün bunu görmək mümkün deyildi. Şah Abbas onlara deyir ki, axşam yataq sabah bu şərtin də yerinə yetirildiyini görərsiniz.

Şah Abbasın sarayı elə tikilmişdir ki, hər günortaçağı sarayın içəri tərəfində bir kərpicin üzərinə günün şüası düşürdü.

Axşam hamı yatdıqdan sonra qız oyanır. O, yerindən qalxır və yavaş-yavaş saraydan çıxıb qaçır. Səhər hamı oyanandan sonra qızı çox axtarırlar tapmırlar. Şah Abbas bərk qəzəblənir və qızın atasını öldürür. O vaxtdan həmin saray Şah Abbasın adı ilə bağlıdır.

## *HƏZRƏT BABA*

Deyilənlərə görə, keçmiş zamanlarda Şah dağının ətəyində yaşayan əhali, əsasən, qoyunçuluqla məşğul olurdu. Dağ kəndlərindən biri olan Cafda Zaman adında bir kişi

yaşayırmış. Zaman kişinin Həzrət adında bir oğlu və iki qızı varmış. Həzrət həddi-buluğa çatanda Zaman kişi oğlunu evləndirmək fikrinə düşür. Arvadı Züleyxanı oğlunun sevdiyi qız üçün elçi göndərir. Qız razılıq verir və toy mərasimi başlanır. Oğlan toy günü anasına tapşırır ki, düyünü dəmləyərkən düyü tapdalanmasın, yoxsa baş götürüb gedərəm. Necə olursa düyü tapdalanır və bunu görən Həzrət baş götürüb Şah dağına gedir. Həzrətin anası və bacıları onun dalınca gedirlər. Həzrət bacılarını qovur və bu zaman qızlar daşa dönürlər. Bu yerdə Həzrətin anası fəryad qoparır. Tufan qopur, ana və oğlu da ölür. Onların ikisinin də qəbri bir yerdədir. Şah dağının ətəyindəki həmin o yer "Həzrət baba" adlanır.

## *İŞIQ HƏSƏN OCAĞI*

Bu ocaq Ermənistanın Aştarak rayonunun Təkyə kəndindədir. Deyilənə görə bu ocaq iki çayın arasında imiş. Onun ocaq olduğunu

əvvəllər kənd camaatı bilmirmiş. Qocaların dediyinə görə iki nəfər əxlaqsız qadın orada nalayiq hərəkət etmişdi. Həmin hadisədən sonra camaat görür ki, ocaq çayın bir tərəfində yerləşib. Çayların hər ikisindən kənarda qalıb. Camaat buna məəttəl qalır. O vaxtdan hər kəs ona ilahi bir qüvvə kimi baxıb, bütün nəzir-niyazlarını ora gətirmişlər.

## *NARLI PİR*

Lap qədim vaxtlarda kasıb bir oğlan var imiş. O, bir bəyin qızını istəyirmiş, qız da onu sevirmiş. Ancaq oğlan kasıb olduğu üçün qızı ona vermirlərmiş.

Oğlanla qız gizlincə görüşürdü. Bir gün onlar görüşdən qayıdarkən oğlanın atının nalı qopub düşür. O gündən başlayaraq hər gecə oğlan nal düşdüyü yerə gəlir, həmişə də o, gələndə nal gün kimi işıq saçmağa başlayır. Qız da bilir ki, oğlan görüş yerindədir.

Bir dəfə yenə də oğlan görüşə gələndə, bəyin adamları xəbər tutur. Qız oğlana çatmaq üçün o qədər yürüyür ki, təngnəfəs olur.

Sonralar qızın qaçıb tənginəfəs olduğu yerdə nar ağacı bitir. O gündən bura “Narlı pir” adı ilə tanınır.

## *ORTAPƏYƏ VƏ GÜNEYPƏYƏ*

Ağdərə rayonunda iki kənd var. Bunlardan birinin adı Baş Küneypəyə, o birinin adı isə orta Güneypəyədir. Ədil adlı bir qoca kişi bu kəndlərin haqqında belə deyir:

- Çox keçmiş zamanlarda bu kəndlərin yeri meşə imiş. Camaat mal-qara ilə məşğul olaraq, yayda yaylağa, qışda isə bu yerlərə köçürmüş. Onlar burada mallar üçün pəyə tikirlər. Ortadan tikilən pəyəyə “Orta pəyə”, Güneyin başında tikilən pəyəyə isə “Baş güneypəyə” adı verirlər. Zaman keçir, illər bir-birini əvəz edir. Bu pəyələrin ətrafında insanlar məskən salır. Hər pəyənin yanında böyük bir kənd əmələ gəlir. O zamandan indiyə qədər həmin kəndlər qalır.

## *BAŞI KƏSİK KƏNGƏRLİ KƏNDİNDƏKİ KÜNBƏZLƏR*

Bir gün qoca nənəmlə Ağdama getməli oldum. Kəngərlidən keçərkən, orada olan başı kəsik kümbəzlər diqqətimi özünə cəlb etdi. Bu künbəzlərin tarixini nənəmdən soruşdum. Nənəm künbəzlərin nə üçün başı kəsik olmasını söyləməyə başladı:

Deyirlər ki, Ağdamda Vəli adında bir usta var idi. O, Qarabağda gözəl sənətkarlardan biri sayılırdı. Bu ustanın Məhəmməd adında bir şagirdi də varmış. Məhəmməd atadan-anadan yetim qalmışdır. O, çox ağıllı və bacarıqlı oğlan idi. Şagirdinin zehinli və diqqətli olmasını görən usta, ondan sənətkarlığın bəzi sahələrini gizlədir. Bu usta o qədər məhşur idi ki, Qarabağın hər yerindən onun dalınca gəlib künbəz tikmək üçün aparırdılar.

Ustanın bacarıqsız və gicbəsəri bir oğlu da vardı. Məhəmməd usta ilə Güllücə kəndinə künbəz tikməyə getdiyi zaman, ustanın oğlu, onun sevgilisi Hüseyn xanın qızı Həcərə vurulur. Həcər öz dövrünün qızlarından seçilirdi. O, çox gözəl, nəcib, nəhayət ağıllı bir qız idi. Qarabağın hər yerindən Həcərə elçilər gəlsə də onun heç kimə meyli  yox idi. Qız ancaq Məhəmmədi sevirdi. Onlar həmişə Kəngərlinin qəbirstanlığında köhnə künbəzdə görüşürdülər.

Bir dəfə Hüseyn xan dəyirmandan gələrkən, uçuq bir künbəzdən səs eşidir və gedib görür ki, qızı bir oğlanla söhbət edir. Hüseyn xan evə gəlir, taxtın üstündə uzanır və fikirləşməyə başlayır. Ərini bu vəziyyətdə görən arvadı bilir ki, kişiyə nə isə olub. Yaxınlaşıb soruşur və Hüseyn xan gördüklərini arvadına söyləyir. Onu da əlavə edir ki, mən o yetimə qız vermərəm. Arvad isə cavabında deyir ki, Həcər bizim bircə övladımızdır, qoy kimi istəyir özü də razılıq versin. Nə isə bunlar burada söhbətləşsin, biz görək usta Vəlinin oğlu necə oldu? O, evə gedib anasına deyir ki, bəs Hüseyn xanın qızı Həcəri gərək mənə alasınız. Anası məsləhət görür ki, qoy atan Güleycə kəndindən qayıtsın, məsələni ona açıb deyək görək nə deyir.

İndi Sizə kimdən deyim, Usta Vəli ilə şagirdi Məhəmməddən. Usta görür ki, iş vaxtı şagirdi altdan daş verdikcə öz-özünə zümzümədə edir:

***Sevmə, sevməyəni mehranda Şah olsan da.***
***Sev-sevəni şah qapısında qul olsa da.***

Usta nə qədər soruşur ki, ay oğul, niyə belə qəmli-qəmli oxuyursan. Şagird cavab vermir. Usta ilə Məhəmməd xeyli keçəndən sonra

öz kəndlərinə qayıdırlar. Kişi evinə, şagirdi isə künbəzə, sevgilisinin görüşünə gedir.

Usta Vəlinin arvadı ərinə bildirir ki, bəs oğlun Həcəri sevir, deyir ki, əgər o qızı mənə almasanız özümü öldürəcəyəm. Kişi razılıq verir ki, yaxşı elçi gedib alaram. Elə bu vaxt kəndin bəylərindən biri vəfat edir. Ustanı onun üstünə künbəz tikməyə dəvət edirlər. Usta şagirdi ilə bərabər başlayır künbəz tikməyə. Elə bu vaxtda öyrənir ki, şagirdi Hüseyn xanın qızını sevir. Bundan sonra ustanın ürəyində bu oğlana qarşı həsəd hissi baş qaldırır. Çünki, onun oğlu fərsiz, yetim Məhəmməd isə qoçaq və bacarıqlı idi.

Bir gün usta görür ki, daş istəyəndə şagird ləng tərpənir, həmişəki kimi ürəklə işləmir. Soruşur ki, ay oğul, sənə nə olub? Məhəmməd deyir ki, heç bir şey olmayıb. Ondan bir şey öyrənə bilməyən usta qət edir ki, şagirdini güdsün.

Həmişəki kimi yenə onlar işlərini qurtarıb evlərinə gedirlər. Usta Məhəmmədi gözdən qoymur. Görür ki, şagird kəndin üst tərəfindəki qəbirstanlığa gedir. Bir azdan usta daş yondalamağın səsini eşidir. Səs gələn tərəfə getməyə başlayır. Gəlib görür ki, burada bir künbəz qaldırılıb ki, özünün tikdiyi künbəz onun

yanında heç bir şeydir. Paxıllıqdan az qalır ki, ürəyi partlasın.

Səhər tezdən usta ilə Məhəmməd işə gedirlər. Hər ikisi qollarını çırmayıb işə başlayırlar. Məhəmməd yorğun idi. Ona görə də, ustaya daş çatdıra bilmirdi. Ustanın isə qaş-qabağından zəhirmar tökülür, ürəyindən qara fikirlər keçirdi. Fikirlər içərisində olan usta şagirdinin atdığı daşı tuta bilmir. Bu Məhəmmədin faciəsi ilə bitir. Usta şagirdinin ölümünə dözə bilməyir və ürəyi partlayıb ölür. Məhəmmədin tikdiyi yarımçıq künbəzdə onun özü dəfn edilir.

Kəngərli camaatı bundan sonra adını bu yarımçıq künbəzlərin adı ilə "Başı kəsik kəngərli" adlandırdılar.

## *SOLTANBUT*

Tərtərdən Ağcabədiyə gedən yolun sağ tərəfində, düzənlik yerdə böyük bir təpə ucalır. Həmin təpə ilk baxışda təbii görünür. Lakin ona yaxınlaşdıqda, formasını nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, bu təpənin yaranmasında insanların rolu olmuşdur. Bunu

onun ətəyindəki kənddə yaşayan yaşlı adamlar da söyləyirlər.

Onların dediyinə görə bura əvvəllər düzənlik imiş. Soltan Mahmud Qəznəvi burada məskən salır və bu yerlərin abadlaşması üçün əlindən gələni edir. Sultan öldükdən sonra onu həmin təpə olan yerdə basdırırlar. Soltan Mahmud vəsiyyət edibmiş ki, mən öləndən sonra qəbrimin üstünə hərə bir at yükü torpaq töksün.

Onun vəsiyyətini yerinə yetirirlər. Həmin tökülmüş torpaq yığılaraq belə böyük bir təpəni tarixi yadigarı əmələ gətirir.

Həmin vaxtdan sonra buranı Soltan Mahmud təpəsi adlandırırdılar. Zaman keçdikcə bu söz dəyişikliyə məruz qalmış və nəhayət Soltanbut şəklinə düşmüşdür.

## *EŞQAVDAL*

Kişi həm özü yorulubmuş, həm də atı, qabaqdan da gecə gəlirmiş. Günəş dağların dalına çəkilhaçəkildə atının başını binəyə sarı döndərir, sərdəndəki çobanlarla salamlaşır, özünü istinad verib tanıdır. Çobanlar onun atını hörükləyir, qonaq dəyəsinin qabağına palaz sərirlər, döşəkçə, mütəkkə gətirirlər, kişini oturdub yemək-içmək hazırlatmağa başlayırlar.

Bu vaxt mal-qoyun da örüşdən qayıdır. Qonaq baxır ki, yanındakı dəyədən bir qarı çıxdı, camışı mıxa bağladı, kəlçəni açıb altına buraxdı, bir az əmizdirib onu da ayrı mıxa bəndlədi. Sonra dəyədən yekə bir toy qazanı sürüdü, bir əlində də bir sərnic gətirdi. Camışın böyründə çömbəldi, eydirmə oxuya-oxuya sağdı, sərnici dörd dəfə silələyib qazana boşaltdı.

Qonaq fikirləşir ki, bir sürü inək yiyəsi olmaqdansa tək bircə belə camış saxlamaq yaxşıdır, axşam-sabahı dörd-beş nehrəlik qatıq, bir qarın yağ.

Qonaq qarıdan soruşur:

- Nənə, bu camışın dişi balası varmı, mənə bir damazlıq verəsən

- Qarı deyir:
- Yoxdur, həmişə erkək doğur.
- Özünü satarsanmı?

- Qiymətini versən, niyə satmıram. Mənim bundan savayı ikisi də var. Yetiriblər, bu gün-sabah onlar da doğacaq. Məndə hardadı o qol-qıça bunların südünü-ağartısını yığıb-yığışdıram.

- Qonaq qarının dilindən çıxan qiyməti verib camışı aparanda düşünür ki, ucuz alıb.

Lakin aradan bir həftə keçəndən sonra camışı qaytarır.

Qarı soruşur:

- Bala, nəyi xoşuna gəlmədi?

Qonaq deyir:

- Nənə, bircə sərnic də süd vermədi.

Qarı deyir:

- Elə olmalıydı... mən sənə camış satmışdım, Canbazı da satmamışdım ki...

## *ÜÇÜNCÜ PILLƏKƏN*

Qıza nişan qoyulandan xeyli sonra cehiz-mehiz söhbəti, kəsəmət danışığı başlanmışdı. Bu da böyüklər arasında ağır-yüngülsüz, umu-küsüsüz qurtarmışdı. Hər iki evdə toy tədarükü görülürdü: erkəklər, cöngələr kəsilib doğranır, qazanlara doldurulur, düyülər artlanır, dovğalıq, süfrəlik pencərlər, göy-göyərtilər təmizlənib dəstələnir, bir yanda çay dəstgahı qurulur, bir yanda yuxa bişirilirdi. Qızlar, gəlinlər qızı bəzəyir, əllərinə xına yaxır, "Atlandırma" da hazırlayırdılar. Axı, o sabah ər evinə köçəcəkdi.

Anası həm sevinir, həm də kədərlənir, ağlayırdı. Hamı yatandan sonra ana qızının yanına getdi, ona son öyüd-nəsihətini verdi. Bu, "üç pilləkən" idi, ana bunların hər birini qızına ayrı-ayrılıqda başa saldı, tapşırdı ki, bunlar onun ərli ömür-gününün ilk bünövrə daşı, bünövrə artırmasıdır, onları düz qursa, dürüst qalxsa sonrakı həyat yolunda heç vaxt "neyniyim, necə eləyim" deməyəcəkdir. Qız da anasına söz verdi ki, onun sırğa eləyib qulaqlarından asdıqlarını ər evinə ayaq basdığı dəqiqədən üç gün keçənədək yerinə yetirəcəkdir.

Qız hələ gərdəkdən çıxmamış, yengənin içəri qoyduğu aftafa-ləyəni ərinə göstərib dedi:

- Gəl su tök əllərimi yuyum.

Oğlan dəsmalı bir qolunun üstünə aldı, aftafanı götürdü, su tökdü, qız əllərini dönə-dönə yudu, quruladı, ürəyində dedi:

Üç pilləkənin birini çıxdım, qaldı ikisi. Onlardan da çıxsam, ərim açanda əlimdə, yumanda ovcumda olacaq.

İkinci gün xörək bişirdi, dadına-tamına baxdı, bir az da duz səpdi, qazanın ağzını örtüb onu ocağın qırağına qoydu, özü də gedib yerinə uzandı, uf-uf ufuldadı, sərələndi, guya çox işləyib bərk yorulmuşdu. Axşam işdən qayıdan oğlana dedi:

- Qablara xörək çək, təknədən çörək gətir, onacan mən də bir az dincəlim.

Oğlan çörək doğradı, qablara xörək çəkdi, ədviyyələri də süfrəyə düzdü. Qızın saçlarını tumarlaya-tumarlaya onu qaldırdı, qucağına alıb stulda oturtdu və yeməyə başladılar. Qız ürəyində yenə sevinə-sevinə dedi: Birindən də keçdim, qaldı biri, ondan da adlasam, bu olacaq mənim quzum...

Üçüncü günün axşamı, oğlan işdən gələn kimi yatağa uzanan qız zoqqudaya-zoqquldaya dedi:

- Səhərdən bəri paltar yuyuram, yaxaladım, sərdim, macalım olmadı xörək bişirəm. Gör Allah verəndən nə var, tap ye. Sonra da su qızdır, tök vannaya, gətir bura, ayaq üstə dura bilmirəm, ayaqlarımı içinə salacağam.

Oğlan heç nə deməyib bayıra çıxdı, əlində düyünlü bir nar çubuğu ilə içəri girdi.

Qız işi başa düşüb onun əl-ayağına sarmaşdı, yalvarmağa başladı, oğlan məhəl qoymadı, qızı dağ-dağ elədi, döydükcə döydü, onun çığırtısı, bağırtısı da ürəyini yumşaltmadı.

Qız səhər anasına sifariş göndərdi ki, başını orda ülütsün, burda qırxdırsın.

Ana təntik halda özünü balasının üstünə saldı, baxdı ki, qızının canında sağ yer yoxdur, qaratuluqdur.

Ana soruşdu:

- Niyə bu kökə düşmüsən, bala?

Qızı dedi:

- Pilləkəndən yıxıldım, ana.

- Qızım, canında tutar qalmayıb, pilləkandan yıxılan bu hala düşər?..

Qız ağlaya-ağlaya dedi:

- Ana, evimizinkindən yox, o sən öyrətdiyin pilləkandan yıxılmışam.

## *OX ƏYİLƏNDƏ*

Quşu gözündən, cüyürü dizindən vuran məşhur bir ovçu varmış, evə heç vaxt əli boş qayıtmazmış. Bir gün o, yenə də ova çıxır, səhərdən axşama kimi dağlar aşır, dərələr keçir, lakin qabağından nə bir quş pırıldayıb uçur, nə də bir ov süzür. Şər qarışanda kor-peşman evinə dönür. Baxır ki, kəndin yaxınlığındakı taxıllığa bir dovşan səkir. Oxun birini sivirir, istəyir yaya taxsın, nişan alıb atsın, görür ox əyilib. Bir daraq oxun hamısına baxır, görür, onlardan tək biri də düz qalmayıb, hamısı əyilib. Oxları daraqlara düzüb evə gəlir, ağırdan-yüngüldən götürüb çox uzaqlara gedir. Neçə gün, neçə gecə yol gedəndən sonra bir bağa girir, bağbanı tapır, ona deyir ki, məni özünə yoldaş götür, bir vaxtacan bu qürbətdə qalacam, amma məndən nə üçün cəlayi- vətən olduğumu soruşma.

Bağban da ondan heç nə xəbər almır, hiss edir ki, bu kişi yaralıdır, onun yarasını tərpətdikcə dərdi daha çox tüğyan eləyəcək.

Bağban hər şeyə göz qoyan, hər şeydən baş tapan adam olur. O görür ki, bu qərib çox işləkdir, qoçaqdır, səliqəli-səhmanlı adamdır.

Həm də demir ki, burada bu gün-sabahlığam, ağaca-daşa yiyədən də artıq can yandırır. Bağban bunu da hiss eləyir ki, bu kişi haqqa-muzda yaxın durmayacaq. Onun xəcalətində qalmamaq-dan ötrü yazda onun bəxtinə alma ağaclarının ən yaxşısını ayırır, özünə də deyir ki, bu, səninkidir, xeyri də sənin olacaq, ziyanı da.

Bağbanın bağışladığı alma ağacı bağın gözü sayılırmış, hər il, ən azı, bir araba bar-bəhər verirmiş.

Bu ağac bircə həftənin içində quruyur.

Bağban elə bilir onun köklərini qurd kəsib, ağacın canında altdan-altdan çürükləmə gedib. Qazıb baxır, görür əmici telləri də salamatdır. Ağacın canını neçə yerdən yarır, yarmaclayır, aralarında bir çürüklüyə də rast gəlmir.

İkinci yazda o, qəribə bir armud ağacı bağışlayır. Bağda bundan yekəsi, bundan gövdəlisi, bundan çox meyvə verəni yoxmuş. Ağac bu il həmişəkindən çox yarpaqlayır, çiçəklər maya tutur. Elə ki, muncuq meyvələr yarpaqların arasında  asım-asım, salxım-salxım olur görürlər ki, bu ağac da sozalır. Səhər durub baxırlar ki, başında bircə yarpaq da qalmayıb, meyvələri büzüşüb, qığa dönüb.

Bağban üçüncü yaz ovçuya daha bir ağac göstərib, deyir ki, atalar üçdən deyib, görək bunun axırı necə olur.

Bu ağac bağı bağbanın gözündən salıb, bağbanın əməyini zay eləyən bir ağac imiş: Bağban hər il onun dibini belləyirmiş, kökündə-gövdəsində yeminə-dəminə ortaq olan ala-ulanın hamısını kökündən çıxarırmış. Bağı suvaranda suyun ən sərinini, ən şirinini bu ağacın dibinə axıdırmış, göllındirirmiş, lakin bu karsız ağac onu yarıtmırmış. Bağban bu ağacı onsuz da çıxarıb atmaq istəyirmiş, indi də ürəyində deyir ki, quru sa qoy fərsizi qurusun.

Lakin bu ağac elə çiçəkləyir, elə meyvə tutur ki, yarpağı görünmür. Yetişhayetişdə ovçu bağbanla halallaşır, deyir, usta, sağ-salamat qal, mən gedərgiyəm, bəxtimin bağlanmağı buracanmış.

Ovçu başına gələni bağbana danışıb ayrılır, evinə gəlir, koğaya dönmüş oxları bir-bir çəkib baxır, görür hamısı düzəlib.

## *AĞ GƏLİN - URŞAN GƏLİN*

Bir dünya gözəli var idi. Elin, mahalın hamısının gözü onda idi. Lakin bu qız oğlanların

görkəmcə gözəlini yox, bir qədər çirkinini seçib ərə gedir. Qızı qəlbən sevən, yarlı-yaraşıqlı oğlan bir bulağın həndəvərində hey dolanır, tez-tez qızı görmək istəyir, heç olmasa ürək sözünü deyib təsəlli tapmaq istəyir.

Yenə bir gün bu gözəl qız sevdiyi çirkin oğlanla şirin söhbət edə-edə gəlir. Oğlan birbaşa heç nə deyə bilmir. Ucadan yanıqlı bir bayatı çəkir:

Ağ gəlin-urşan gəlin,
Kətana qurşan gəlin.
Yarın çirkin, sən gözəl,
Yarından boşan, gəlin.

Qız ucadan deyir:

Ağ mənəm-urşan mənəm,
Kətana qurşanmanam.
Nə çox tənə vurursan,
Əsiləm boşanmanam.

Qız ucadan deyir:

- Camal məndə, camal sevgilimdə. Sığallı mərmər daşlarda, ləl olmur, cəvahir olmur. Ləl-cəvahirat çopur qayaların qəlbindədir. Vurmaq tutmaq da bəzəkli kişiyə yaraşmır.

Bu eyhamları başa düşən qızın nişanlısı qeyzə gəlir və deyir:

Güllər həşəm-həşəmdir,
Yerə döşəm-döşəmdir.
Arazbar tərlanıyam
Sona almaq peşəmdir.

Qızla oğlan qol-qola girib, böyük sevinclə yad oğlanın gözü qarşısında uzaqlara yol alırlar.

Qızla oğlan yolları, dərələri bir aşsalar da oğlanın dalbadal təkrar bayatıları eşidilir:

Bu dağda maral gəzər,
Ayağın daşlar əzər.
Dağ bizim, maral bizim,
Ovçu burda nə gəzər.

Oğlanı elə bil birdən-birə oyatdılar. Sevgilisinin qənirsiz gözəlliyini elə bil təzədən duydu:

Eləmi el atlılar
Gəldi-keçdi elatlılar.
Yatmışdım qəflət yuxusunda,
Oyatdılar elatlılar.

## *VİRAN QAL, A REY*

İsfahan hökmdarı ilə Rey məmləkətinin başçısı arasında ədavət vardı. Bu qanlılıq onlara ata-babadan qalmışdı. Nə qədər ki, dizlərində taqət, qollarında qüvvət, gözlərində qartal itiliyi vardı,vuruşmuşdular. O, bunun, bu da onun qoşun-ləşkərini qılıncdan keçirmişdi. Neçə para kəndi, obanı, şəhəri xaraba qoymuşdular. Neçə dəfə qılıncları qından sivirib səf-səf, üz-üzə dayanmış qoşunların arasına çıxmışdılar, bir-birinə ox atmış, gürz endirmiş, qılınclarının çaqqıltısından qulaqlar tutulmuş, gəmrişən-didişən atlarının da döşləşməsi, pəncələşməsi bir tamaşa olmuşdu. Nəhayətdə isə hər ikisi yerə hoppanmış, qurşaqlaşmışdılar, amma nə bu onun, nə də o bunun dizlərini yerə gətirə bilmişdi. Sonra meydanı, cəng-cidalı qoşunlara vermiş-dilər.

İndi ikisi də qocalıb əldən düşmüşdü, onlarda döşləşmə hünəri qalmamışdı. Rey hökmdarı fikirləşir ki, İsfahan şahının da hay-hayı gedib, o da bunun kimi günlərini sayır, o da bunun təki keçmiş qırğınlara heyfsilənir, ata-

anasız böyüyən yetimlərin peşimançılığını çəkir, istəmir bir də qan tökülsün, ellərdən-obalardan ah-nalə, ağlaşma-şivən gəlsin. Rey hökmdarına həm də elə gəlirdi ki, İsfahan şahı öz varisini düşmənçiliyə qızışdırmaz, onun beynini ədavətlə doldurmaz. Sevinirdi ki, sonuncu döyüşdən bəri aradan çox keçib, dinclik, əmin-amanlıq pozulmayıb, yəqin qan-qada bir də ayaq tutub yeriməyəcək.

Lakin İsfahan şahı başqa tədbirə əl atmışdı, o düşünmüşdü ki, Rey hökmdarının oğlu ilə onun varisi yaşıddır, hələ körpədirlər, böyüyəndə onlar da öz ata-babaları kimi düşmənçiliyə qalxacaq, qisası qiyamətə qoymamağa çalışacaqlar. Belə qılınc-qalxan, yay-ox davasının qırğından savayı nə xeyri var ki. Bir para söyüş-qarğış yiyəsi olurlar. Axırda qoşun da cilov at kimi hökmdarın üzünə dayanır, az qalır öz çörək verənini qılınclasın. Ən yaxşı dava qırğınsız müharibədir, hiylə-kələklə bac almaqdır, bicliklə qalib gəlməkdir.

İsfahan şahı bu niyyətlə Rey hökmdarının oğlunu oğurlatdırır və onu öz məmləkətinin ən uzaq diyarındakı qaraçı dəstəsinə qoşdurur, qaraçı köçünün başçısını hüzuruna çağırtdırıb ona çoxlu qızıl verir, özünə də tapşırır ki, o uşağa dilənçilik öyrətsin, onun məmləkətində dolandır-

sın, qıraq yerə çıxartmasın, əgər şərti pozsa onları uşaqlı-böyüklü qılıncdan keçirəcəyəm.

İsfahan şahı qaraçı köçünün başçısına bel bağlamır, onun əhdi-andına inanmır, özü də onların üstünə göz qoyur.

Aradan illər keçəndən sonra İsfahan şahı öz məmləkətini gəzmək adı ilə atlanır, başının dəstəsi ilə bu eldən o elə, o şəhərdən bu şəhərə keçir. Bir obaya çatanda görür ki, qəbiristanlığın yanında qaraçı dəyələri qurulub, onların at-ulaqları çivinlənə-çivinlənə özlərini başdaşlarının kölgəsinə veriblər, sürtünürlər, nə çöldə-bayırda, nə də dəyələrin içində ağlıkəsən bircə böyük də yoxdur.

Şah atını obanın içinə sürür, baxır ki, o biri qaraçıların üzünə pis baxılan kimi dönüb gedirlər, amma Rey hökmdarının oğluna itin sözünü deyirlər, döyürlər, təpikləyirlər, o yenə də yalvarır, pay almayınca qırsaqqız olub yapışdığından əl çəkmir.

İsfahan şahı Rey hökmdarına yüz günlük dava-qırğından sonra qalib gəlmiş kimi şadyanalıqla gülümsünür. Düşünür ki, düşməninin varisi yekə oğlandır, kişi həddinə çatıb, evlənəsi, bir ailəyə-külfətə başçılıq eləyəsi, atasının taxtında oturası vaxtıdır, amma dilənçidir, bu mə-

rəzə mübtəla olub, bunu heç zaman tərgidə bilməyəcək.

Onu bir dəstə atlı ilə öz atasının məmləkətinə göndərir, özünə də deyir ki, sən itmişdin, atan səni çoxdan axtarır, ağlamaqdan yazığın gözləri az qala kor olub. Get özünü tanıt, qoy binəvanın ürəyi yerinə gəlsin...

Öz adamlarına isə başqa göstəriş verir:

- Rey hökmdarına ərz eləyin ki, biz düşmən də olsaq namərd deyilik. İsfahan şahı sizin yeganə varisinizin yoxa çıxdığını eşitmişdi. Ürəyinizə başqa fikir gəlməsin deyə oğlunuzu o da axtarırdı. Gec də olsa tapdırıb biznən göndərdi ki, onu sizə sağ-salamat təhvil verək və əgər sizin İsfahan şahından bir qaralanmağınız olubsa bu əndişədən daşınasınız.

Rey hökmdarı yüzlərlə qurban kəsdirdi, bütün məmləkətə paylatdırdı, car çəkdirdi ki, hökmdarın varidatından kim nə qədər istəyirsə, gəlib götürsün, kef çəksin.

Hökmdar sarayda şadyanalıq məclisi qurdurdu, oğlunu qırmızı geyindirib taxta çıxartdı, öz küll-ixtiyarını ona verdi. Yemək yeməyə, içmək-içməyə qarışdı, oynayanlar- süzənlər yorulmaq bilmədilər, şabaşlar xəzəllər kimi yağdırıldı.

Hökmdar bir də baxdı ki, oğlu taxtda yoxdur, dedi, yəqin, bu eyş-işrət onu yorub, bezikdirib, harasa gəzməyə, havasını dəyişməyə çıxıb, qayıdıb gələr.

Aradan neçə saat keçdi, varis qayıtmadı, hökmdar təşvişə düşdü, elə bildi oğlunu yenə oğurlayıblar. Tez atlandı, şəhərə çıxdı. Bazar meydanından keçəndə gördü ki, oğlu quruca yerdə bardaş qurub oturub, qabağına bir kirli əski sərib, ötüb-keçənə əl açıb yalvarır:

- Allah yolunda... Allah köməyiniz olsun... Allah sizi hər qada-bəladan qurtarsın...

Rey hökmdarı qıyya çəkir:

- Dağıl, a Rey, viran qal, a Rey, sənin hökmdarın dilənçilik eləyir.

## *UŞAĞIN BÖYÜK AĞLI*

İbn Sina dəmirçixananın qabağından keçirmiş. Bir də görür ki, bir uşaq yüyürə-yüyürə gəlib özünü dəmirçixanaya saldı və tövşüyə-tövşüyə dedi:

- Usta, anam deyir, ocağımız sönüb, köz versin.

Usta yastıladığı dəmiri kürəyə qoydu, şagirdi odu körükləməyə başlayanda o da döşlüyü ilə üzünün tərini silib uşağın əlinə baxdı:

- Get, bir qab gətir. Ovcunda aparacaqsan?

Uşaq ayaqlarını yerə döydü:

- Aparacam, sən od verməkdə ol.

Usta bu anlamaz uşağın üzünə baxıb başını buladı:

- Sənin əlin dəmirdi?

Uşaq:

- Yox, -dedi,- yox, sən közünü ver, neynirsən necə aparacağam?

Usta baxdı ki, bu tərs uşağı sözlə başa sala bilmir, maşa ilə kürədən iri bir köz götürdü, yönünü bəri çevirəndə gördü ki, uşaq ovucuna yerdən torpaq yığıb, əlini də ona sarı uzadıb.

Usta mat qaldı.

İbn Sinanı da heyrət götürdü, uşağın böyük ağlına heyran qaldı.

Belə deyirlər ki, İbn Sina o gündən həmin uşağın Bəhmənyarın tərbiyəsini öz üzərinə götürdü və onu bir alim kimi yetişdirməyə çalışdı.

## *BU XASIYYƏT KI SƏNDƏDIR....*

Qocalıb əldən düşmüş bir kişi bazarda özünə bir at aldı ki, əkinə-səpinə, yaylağa-qışlağa gedib-gələndə ayağını yerdən götürsün, xurcununu tərkinə bağlasın, lazım olanda dəyirmana dən aparsın, meşədən odun yükləyib gətirsin.

Kəndə çatanda gördü ki, at altında zıqqıldayır, ağzını yolun qıraq-bucağına atır, otları qarpalayır. Bildi ki, at acdır, onun həyət-bacasında hardaydı qarın doyuran elə bir biçənək ki, atı xəsillik ora hörükləyəydi?...

Kişi atdan düşdü, atı biçənəyə hörüklədi, özü də dizlərini döyən otlardan beş-altı qucaqlıq yolmacladı, söyüd çubuqları kəsdi, eşdi, çubuqların arasına doldurub tay tutdu ki, at səhərəcən yesin, ac qalmasın.

Tayları atın belinə qaldırıb ortadan çatdı, bəndləyib qurtarhaqurtarda at qulaqlarını qırpıb kişinin qılçasını vurub sındırdı.

Kişi taytıya-taytıya yeriyib atın başını açıb buraxdı, özünə də bir-iki acılı qamçı çəkib dedi:

- Get, Allahın heyvanı, get. Mənim qılçam iki-üç aya sağalacaq, amma bu xasiyyət ki, səndədi, səni heç kim öz qapısında saxlamayacaq.

## *DİLİMİ ŞİRİN ÖYRƏDİRƏM*

Şah öz vəziri ilə bir kəndin yanından keçəndə gördü ki, bir uşaq bir buzovun boynunu qucaqlayıb üz-gözündən öpə-öpə "can, can"- deyir.

Şaha belə gəldi ki, ya buzovun anası ölüb, uşağı da ozana döndərən onun yetimliyidir, ya da uşaq analıq əlinə baxır, analığı da buzovu ona tapşırıb, buzov qapıya tox dönməsə analıq da onu ac qoyacaqdır.

Şah özünü bu şübhələrdən çıxarmaq üçün atının başını çəkib saxladı, uşaqdan soruşdu:

- Bala, nə üçün Allahın heyvanına "can, can" deyirsən?

Uşaq da onun gözləmədiyi cavabı verdi:

- Əmican, dilimi şirin öyrədirəm.

Uşağın sözü şahın xoşuna gəldi və ona bir kisə qızıl verdi.

Bunu xeyli aralıdan görən qoca kənkan öz yedəklədiyi eşşəyini çəkə-çəkə uşağa yaxınlaşdı, ondan xəbər aldı:

- Sən nə dedin ki, onlar sənə bir kisə qızıl verdilər?

Uşaq əhvalatı olduğu kimicə danışdı.

Kankan fikirləşdi ki, əlli ildir yerin altında külüng çalıram, cəmi qazancım bu uşağın bir quruca sözə görə aldığı bir kisə qızılın dəyəri qədər olmayıb. Gözlərəm onları, hara getsələr burdan qayıdacaqlar, allahın heyvanına mən ondan da yaxşı sarmaşaram, mən ondan da çox yalvararam.

Qoca uşağa dedi:

- Bala, dananı apar o yanda otar, qayıdanda səni burda görsələr, elə bilərlər onlardan yenə bir şey umursan, acıqları tutar, verdiklərini də əlindən alarlar.

Qocanın sözü uşağın ağlına batdı, danasını yolun qırağından dərəyə endirdi.

Qoca uşağı qorxudub qaçırtdı ki, atlılar onun da şirnikib uşaq yerişi yeridiyini bilməsinlər.

O, atlıların gəldiklərini görən kimi eşşəyinin boynunu qucaqladı, onu duz kimi yalamağa, yalvarmağa başladı:

- Can, can... Başına dönüm sənin... Sənə bax bu canım qurban...

Dəvəni xəlbirlə sulamaqmı olar? Şah o saat başa düşdü ki, qoca bayaqkı əhvalatı eşidib, elə bilir hər yelin əsməyi qoz tökəcək.

Şah ondan soruşdu:

- Qoca, eşşəyə niyə yalvarırsan?

Qoca dedi:

- Oğul, dilimi şirin öyrədirəm.

Şah qəzəbləndiyini bildirməyib dedi:

- Qoca, götürdüklərimi paylaya-paylaya gedib gəlmişəm, üstümdə bircə quruşluq da qalmayıb. Saraya gəl, nə qədər istəyirsən apar.

Qoca sevindi ki, şahın öz sərvətini şülən eləyən gündür, qızılla-pulla qoyun-qoltuğunu doldurmaq nədir, lap eşşəyini də yükləyəcək.

Qoca saray həyatinə girəndə gördü ki, şah qırmızı geyinib, taxta çıxıb, əli baltalı, zopalı fərraşlar da hazır dayanıblar, onun əmrinə müntəzirdirlər, şah hökm edən kimi qəbzələrindən qan damacaqdır.

Qoca duruxdu, qorxub gerilədi.

Şah onu irəli çağırdı, fərraşlara dedi:

- Bu qocanın dili həmişə acı olub. Buna yüz zopa vurun. Qoy yadında saxlasın ki, hər şey öz vaxtında qiymətlidir.

## *ÇİLLƏ*

Böyük çillə ilə kiçik çillə möhkəm dost idi. Bir gün onlar söhbət edirmiş. Kiçik çillə deyir ki, ey dost, bu insanlar bizdən yaman qorxurlar. Nə edək ki, lap qorxsunlar. Böyük çillə cavabında-hə doğrudan da nə edək-deyə fikirləşirlər. Kiçik çillə deyir: Mən tapdım! Ey dost sən çöldəkiləri evə yığ, mən də evdəkiləri basacağam ocağa.

O vaxtdan böyük çillə bir az soyuqlu, kiçik çillə isə lap soyuq keçir.

## *BACI MƏHƏBBƏTİ*

Uca dağlar qoynunda bir kənd vardı. Bu kənddə mehriban bir ailə yaşayırdı. Evin kişisinin adı İlyas, qadının adı isə Gülzar idi. Hələ evləndiklərinin ilk illəri onların Elşən adlı bir oğlu olur. Gülzarın qardaşı Bəhram bacısını çox istəyirmiş. Gülzardan başqa heç bir kəsi olmayan Bəhrəm bığ yeri təzəcə tərləmiş bir cavan idi.

Dünyanın işi elə gətirir ki, İlyas kişi, oğlu Elşən və qaynı Bəhrəm bir adamın ölümünə görə qana düşürlər. Onların hər üçünü də tuturlar. Yazıq və kimsəsiz qalmış Gülzarı qardaş dərdi, bala dərdi və yoldaş dərdi əyir. Nəhayət, elə olur ki, uzun hadisədən sonra məhkəmə qurulur.

Gülzarın kimsəsiz qaldığını görən ədalət məhkəməsi Gülzara deyir ki, bu üç nəfəri sizə bağışlayıram. Özünüz bilin, ya ərini, ya balanı, ya da qardaşını götürməlisən.

Camaat da elə toplaşmışdı ki, iynə atsan yerə düşməzdi. İlyas, Elşən və Bəhrəm ayaq üstə dayanıb tamaşa edirmişlər. İlyas fikirləşir ki, o mənim baş yoldaşım, ömrüm-günümdür. Hökmən məni xilas edər.

Elşən elə fikirləşir ki, deyirlər bala baldan şirindir. Anam hökmən məni xilas edər.

Qardaşı Bəhrəm isə fikirləşir ki, atalar deyiblər ki, ayrı qardaş, yad qonşu. Çox da ki, Gülzar bacımdır. O, oğlunu və ailəsini qoyub məni xilas eləməz.

Məhkəmənin sözünü eşidən camaat isə hərəsi öz bildiyi kimi fikirləşirlər. Kimisi ərin, kimisi oğulun, kimisi isə qardaşın xilas ediləcəyini intizarla gözləyirlər.

Gülzar bir qədər fikirləşir, sonra isə gözlərinin yaşını sel kimi axıdaraq üzünü camaata və məhkəməyə tutub deyir:

- Ay camaat, ər gələr eldən, oğul gələr beldən, qardaş ələ düşməz!

O, bu sözləri deyəndən sonra qardaşının boynuna sarılıb öpür və qolundan tutub deyir:

- Mənə qardaş lazımdır.

Camaat və məhkəmə, elliklə hamı ona əhsən deyirlər. Bacının bu məhəbbətini görən xalq ata və oğulun bağışlanmasını da tələb edirlər. Ədalət məhkəməsi də bu işə məəttəl qalır.

Beləliklə Gülzarın ərini və oğlunu da ona bağışlayırlar.

## *ŞƏMKIRDƏ GƏMI*

1951-ci ildə Daşkəsənin Qabaqtəpə kənd sakini 120 yaşlı Pənah kişi mənə dedi ki, babam çox qoca yaşlarında vəfat etdi. Dünyagörmüş kişi idi.

Babam bir dəfə Tbilisi şəhərinə gedir. Orada üst kirpiyi dizinə dəyən, kirpiyini sancağa keçirib saçına bənd eyləyən babamdan soruşur:

- Sən haradansan? Çanaqçını, Sarıdamı, Qalakəndi, Qız qalasını tanıyırsanmı? Bizim köhnə yurdumuz Qız qalasının o tayında-Çanaqçı kəndində olub. İndi də Qalakəndlə Qız qalası, Qız qalası ilə Qoşa Çinarlar arasında gəmi işləyirmi? Qız qalasına gedən körpülər dururmu?

Bəlkə də o dövrdə bu yerlərdə gəmi yox, lötkələr işləyirmiş. Qarı ona gəmi deyirmiş. El arasında bədəncə dolu qadına da gəmi kimi arvaddı- deyirlər. Bəlkə də həqiqətən Şəmkir çayı o qədər gur imiş ki, orada gəmi işləyirmiş.

## *ŞAH VƏ BƏNNA*

Şah bir gün vəziri ilə gedirdi. Baxdı ki, bir bənna hörgü hörə-hörə daşı göyə atıb-tutur. Elə bil kosa oynayır. Barının bu başından o başına rəqs edə-edə gedib-gəlir. Şahı maraq götürdü. O, soruşdu:

-Ey bənna, səndə bu şuxluq haradandır?

Bənna dedi:

- Mən bu ilhamı arvadımdan alıram. Plov bişirib yolumu gözləyir. Aftafa-ləyən götürüb əlimə su tökür, məhraba ilə əllərimi qurulayır.

Şah vəzirə dedi:

-Mən şaham, belə xoşbəxtliyim yoxdur. Gərək bənnanın arvadını mənə alasan.

Vəzir bir küpəgirən qarı tapdı. Bir ovuc qızıl verib, gəlinin yanına göndərdi. Qarı bənnanın arvadına dedi:

- Sən şaha layiq bir qadınsan. Sən bənnanın palçığını təmizləməməlisən.

Qadın tərəddüd etdi. Nə plov bişirdi, nə də bənnanın yolunu gözlədi.

Axşam bənna gələndə elə bil sovulmuş bir dəyirmana gəldi. Nə plov var idi, nə aftava-ləyən, nə də arvadda xoş bir sifət.

Bənna başa düşdü ki, ortada nə isə anlaşılmaz bir məsələ var. O, bayıra çıxarkən bir bardağı su ilə doldurub qapının kəndarında əlindən yerə buraxdı. Bardaq (cürdək) parça-parça oldu. Bənna oturub ağlamağa başladı. Arvad dedi:

- Ay kişi, 10-15 qəpiklik bardaqdan ötrü nə üçün ağlayırsan, get bazardan birini də al.

Bənna dedi:

- Arvad, nə bilirsən o bardağın qulpu tez sınacaq, ya gec, bardaq su buraxacaq, ya yox, suyu şirin olacaq, ya acı?

Bənnanın arvadı barmağını dişlədi. Nə olsun ki, şahdı. Bəlkə, bədəni iy verir, nəfəsinə yaxın durmaq olmur. Şahın 40 arvadı var. 41-ci gün şahın yadına düşəm, ya düşməyəm. Qurban olum öz bənnama. Nəfəsi gülab ətri verir, can deyib, can eşidirik, iki göz iki gözə baxır.

Qadın qarının hiyləsini, şahın sifarişini bənnaya çatdırdı. Yenə süfrəyə zəfəranlı plov

gəldi. Qadın öz bənnasına şuxluq gətirdi. Şahla vəzir həmin binanın yanından keçirdi, şah baxdı ki, bənna yenə də barının başında oynayır. Şah soruşdu:

- Bir neçə gün bundan əvvəl əhvalın pozulmuşdu, yenə də quş kimi qol-qanad açmısan.

- Barmağım şahın gözünə, vəzirini işə qoşub, qarıya pul verib, qadınımın əməlini azdırmışdılar. 10-15 qəpiklik bir bardaqla həqiqəti arvada başa saldım. Arvad dedi:

- Barmağım şahın gözünə, qurban olum öz bənnama. Nəfəsində gül ətri var.

## *YAY OXU YOXSA ƏLƏK*

Bir kişi səfərə çıxır. Onun arvadı hamilə imiş. O arvadına tapşırır ki, oğlum olsa qapıdan yay oxu asarsan, yox əgər qızım olsa qapıdan ələk asarsan. Bir neçə aydan sonra kişinin qonşusu gəlib həmin şəhərə çıxır. Soruşur ki, qonşu nə var, nə yox? Qonşu deyir:

- Evinizdən bir xəbərim olmadı, lakin qapınıza yay ox sancmışlar.

Kişi sevinir, deməli oğlum olub.

Həqiqətən nağıllarımızda belə işarələrə sıx-sıx rast gəlmək olur.

## Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik Xəlil oğlu) qısa tərcümeyi-hal

**1.** Paşayev Sədnik Xəlil oğlu.

**2.** Pirsultanlı.

**3.** Şair.

**4.** Filologiya elmləri doktoru, professor.

**5.** 1988-ci ilin dekabr ayının 30-da "Əmək veteranı", 1992-ci ilin may ayının 4-də "Əməkdar Mədəniyyət işçisi", 2007-ci ilin yanvar ayında "Qabaqcıl Təhsil işçisi", Türkiyə Cumhuriyyəti Kültür Bakanlığının "Teşekkür belgesi"-ni almışdır.

**6.** 20 may 1929-cu il tarixdə Azərbaycan Respublikasının Daşkəsən rayonunun Qazaxyolçular kəndində anadan olub.

**7.** 1946-cı ildə “Daşkəsən” qəzetində “Zəfər bayramı” adlı ilk şeiri çap olunub.

**8.** Natamam orta təhsilini Qazaxyolçular kəndində, orta təhsilini Dəstəfur internat məktəbində alıb. 1950-ci ildə H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) birinci kursuna qəbul olunub, 1954-cü ildə Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib.

**9.** 2004-cü ildən AYB-nin üzvüdür.

**10.** 1955-ci ildən 1970-ci ilə qədər “Yeni Daşkəsən” (Daşkəsən), “Mübariz” (Goranboy) və “Yenilik” (Kəlbəcər) rayon qəzetlərində redaktor, “Kirovabad kommunisti” qəzetinin məsul katibi işləyib. 1970-ci ilin oktyabr

ayında H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna müsabiqə yolu ilə müəllim qəbul olunub, baş müəllim, dosent vəzifələrində işləyib. Hal-hazırda Gəncə Dövlət Universitetinin professorudur.

**11.** 1993-cü ildə Ankarada keçirilən "İpək yolu uluslararası xalq ədəbiyyatı simpoziumu"nda və Nevşehirdə keçirilən "Hacı Veli Bektaşi" törənində məruzəçi kimi çıxış edib.

1955-ci ilin iyul ayından "Bilik" cəmiyyətinin, 1960-ci ilin iyun ayından Jurnalistlər Birliyinin, 1989-cu ilin aprel ayından Aşıqlar Birliyinin, 1998-ci ilin oktyabr ayından Azərbaycan Vətən Müharibəsi Veteranlar Birliyinin (fəxri), 2003-cü ilin iyun ayından Yeni Azərbaycan Partiyasının, 2004-cü ilin aprel ayından Yazıçılar Birliyinin üzvüdür.

**12.** Almaniya Avropa Türk-İslam Birliyinin dəvəti ilə “Yunis İmrəyə sevgi ili” kutlamalarında məruzəçi kimi çıxış edib, Türkiyədə elmi konfraslarda və simpoziumlarda iştirak edib, İranda yaradıcılıq səfərində olub.

**13.** 2007-ci ildə “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 2009-cu ildə “Tərəqqi” medalı ilə təltif olunub.

**14.** www.sednikpasapirsultanlı.net

**15. Kitablarının siyahısı**

1. Лалə. Ашыг Бəсти. Эəнслик, Бакı, 1969, 55 səh. 10.000 nüsxə
2. Йашайан əфсанəлəр, Эəнслик, Bakı, 1973, 78 səh. 4.000 nüsxə
3. Xəstə Гасым. Эəнслик, Bakı, 1975, səh 64, 2.200 nüsxə
4. Йурдумузун əфсанəлəри. Бакı, 1976, 45 səh. 30.000 nüsxə

5. Низами вə фолклор. Билик, Бакı, 1976, 65 səh. 2.500 nüsxə
6. Йанардаь əфсанəлəри. Эəнслик, Bakı, 1978, 160 səh. 20.000 nüsxə
7. Азəрбайсан халq йараdысылыьынын inkişafı Билик, Бакı, 1981, 40 səh. 1000 nüsxə
8. Низами və xalq əfsanələri. Эəнслик, Бакı, 1983, 128 səh. 4.000 nüsxə.
9. Байатылар (топлайанлар: В.Вəлийев, С.Пашайев). Йазыçы, Бакı, 1985, 200 səh. 40.000 nüsxə.
10. Azərbaycan əfsanələrinin öyrənilməsi. Билик, Бакı, 1985, 70 səh, 500 nüsxə.
11. Азəрбайсан xalq əфсанəлəри, Йазычы, Бакı, 1985, 285 səh, 50.000 nüsxə.
12. Азəрбайсан mifoloji мəтнлəри, Елм, Бакı, 1988, (топлайанлар Сəдник Пашайев,

Маqбет Әщмәдов, Ариф Рәщимов, Ариф Acalov), 180 səh, 25.000 nüsxə.

13. Азәрбайсан fолклору вә ашыq йарадысылыьы (дәрс vəsaiti), Азәрбайсан Дөвләт Университеti Нәшрийуаты, Бакı, 1989, 88 səh, 500 nüsxə.
14. Azərbaycan xalq dastanlarının tədrisinə dair (metodik göstəriş), Bakı, 1989, 48 səh, 500 nüsxə.
15. ХЫХ əsr Азәрбайсан ашыq йараdысылыьы (дәрс vəsaiti), Азәрбайсан ДПИ-нин нәшрийуаты, Бакı, 1990, 98 səh, 500 nüsxə.
16. Öz səsim (şeirlər), İdeya nəşriyyatı, Gəncə, 1990, 72 səh, 500 nüsxə.
17. Азәрбайсан xalq сюйләмәләри, Йазыçы, Бакı, 1992, 211 səh, 10.000 nüsxə.

18. Пирсултан булаьы (шеирләр), Елм, Бакı, 1994, 110 səh, 1000 nüsxə.

19. Инсичичәуим (шеирләр), Эәнсә, 1996, 100 səh, 500 nüsxə

20. Караьан Усубун lətifələri, Gəncə, 1997, тәкрар nəşr. 2000, 2001, 37 səh, 1000 nüsxə.

21. Xalqın söz mirvariləri, Азәрнәшр, 1999, 110 səh, 500 nüsxə.

22. Илащи бир сәс (шеирләр), Эәнсә, 1999, 110 səh, 500 nüsxə.

23. Унну Аьсанын lətifələri, Еколоgiya nəş-riyyatı, Эәнсә, 1999, 60 səh, 500 nüsxə.

24. Ağdabanlı şair Qurban, Эәнслик, Бакı, 2000, 177 səh, 500 nüsxə.

25. Дабровол Qасымын lətifələri, «Əsgəroğlu», Gəncə, 2001, 62 səh, 200 nüsxə.

26. Йәщйа бәй Дилгәмә el-oba məhəbbəti, Бакı, Аэащ 2001, 105 səh, 600 nüsxə.

27. Ашыq Бәсти “Bənövşələr” “Әсэәроьлу”, Gəncə, 2001, 80 səh, 300 nüsxə
28.Heca vəznli şeir və mənzum atalar sözləri, Эәнсә, Аэащ, 2001, 110 səh, 200 nüsxə.
29. Heca vəznli tapmacaların inkişafı, Agah nəşriyyatı, Gəncə, 2001, 110 səh, 300 nüsxə.
30. Азәрбайсан епосунуп әфсанә qaynaqları, Азәрнәшр, Бакı, 2002, 102 səh, 500 nüsxə.
31.Qaraxanlı Künə Dəmirin lətifələri, Gəncə, «Pirsultan», 2002, 51 səh, 200 nüsxə.
32. Qамышлы шаир Рцстәм, «Laçın qaya, çal yadıma düşəndə», Gəncə, «Pirsultan», 2002, 80 səh, 300 nüsxə
33. Yuxular олмасайды, «Pirsultan», 2002, 60 səh, 150 nüsxə.
34. Озан-Ашыq сәнәтинин nəzəri мәсәләләри, Бакı, Озан, 2002, 208 səh, 250 nüsxə.

35. Озан-Ашыq йарадысылыьына dair арашdıр-малар, Ы силd, Эəнсə, «Pirsultan», 2002, 203 səh, 150 nüsxə.

36. Озан-Ашыq йарадысылыьына dair арашdырмалар, ЫЫ силd, Эəнсə, «Pirsultan», 2002, 230 səh, 100 nüsxə.

37. Бир ичим нəьмə (шеирлəр), Эəнсə, «Pirsultan», 2003, 70 səh, 100 nüsxə.

38. Щеса вəзнли байаты вə qошма möcüzələri, Gəncə, «Pirsultan», 2003, 80 səh, 100 nüsxə.

39. Эəнсəбасар lətifələri, Эəнсə, «Agah», 2005, 201 səh, 300 nüsxə.

40. Бир чичəк дə Вəтəндir, Эəнсə, 2005, 127 səh, 200 nüsxə.

41. Əsatirlər, əfsanələr, rəvayətlər (S.P.Pirsultanlı və digər müəlliflər), "Şərq-Qərb", 2005, 304 səh, 2500 nüsxə.

42. Мир Сəфəр Баьыров йаddашларда, «Pirsul-tan», Gəncə, 2005, 80 səh, 100 nüsxə.

43. Елдəн-обадан eşitdiklərim, Gəncə, «Agah», 2005, 170 səh, 200 nüsxə.

44. Yıldızdağdan əsən külək, Gəncə, 2006, 100 səh, 200 nüsxə.

45. Azərbaycan folkloruna dair tədqiqlər, Gəncə, 2006, 402 səh, 200 nüsxə.

46. Publisistika və folklor, Gəncə, 2007, 330 səh, 200 nüsxə.

47. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi, Elm, 2007, 310 səh, 500 nüsxə.

48. Pirsultan Pinarı (Şeirlər), «Pirsultan», Gəncə, 2007, 666 səh, 100 nüsxə.

49. Azerbaycan efsane ve rivayetlerinin Edebi Yapıtlarımızda Karşılaştırmalı Açıklaması Bakü 2008, Bilim yayınevi, 310 sayfa, 500 adet

50. Saz nəfəsli şeirlərim, «Pirsultan», Gəncə, 2008, 121 səh, 200 nüsxə.

51. Aşıq Şəmşirin poetik aləminə səyahət, "Təknur", Bakı, 2008, 295 səh, 500 nüsxə.
52. Azərbaycan türklərinin xalq əfsanələri, Azərnəşr, Bakı, 2009, 427 səh, 200 nüsxə.
53. "Novruz-Qəndab" və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi, Azərnəşr, Bakı, 2009 112 səh, 200 nüsxə.
54. "Aşıq Tifil Əsəd və Aşıq Ağbulaqlı Aqil", "Pirsultan", Gəncə, 2009 114 səh, 100 nüsxə.
55. "Qızıl beşik və Ana maral", "Pirsultan", Gəncə, 2010, 126 səh, 100 nüsxə.
56. "Lilpar bulağı", "Pirsultan", Gəncə, 2010, 120 səh, 100 nüsxə.
57. Altın Beşik ve Anne Geğik. Gence 2010, Pirsultan yayınevi, 130 sayfa, 100 adet
58. Azərbaycan aşıq yaradıcılığına dair araşdırmalar, "Azərnəşr", Bakı, 2010, 260 səh, 200 nüsxə.

59. Azərbaycan folklorunda gülüş”, Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

60. “Azərbaycan yazarlar aləmində əfsanə inciləri”. Bakı, 2010, 360 səh. 200 nüsxə

61 “Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi”, Bakı. “Azərnəşr”, 2010, 156 səh, 200 nüsxə

62. Azerbaycan Türklerinin Halk Efsaneleri, Bakü, 2010, Azerneşr yayınevi, 427 sayfa, 200 adet

63. “Xəstə Qasımın ədəbi irsinin tədqiqi”, Bakı, “Azərnəşr”, 2011, 250 səh. 200 nüsxə

64. “XXI əsrdə Azərbaycan folklorundan incələmələr”. Gəncə Dövlət Universiteti nəşriyyatı, 2010, 130 səh. 200 nüsxə

65. “Molla Nəsrəddin varislərinin lətifələri”, Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011, 120 səh. 200 nüsxə

66. Lilpar Çeşmesi (Türk dilinde) Gence 2011,

Pirsultan yayınevi, 157 sayfa, 100 adet

67. “Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi” Azərnəşr, 2011, 142 səh. 100 nüsxə

68. “Azərbaycan türklərinin xalq rəvayətləri”. Azərnəşr. 2011. 630 səh. 100 nüsxə.

## *Sədnik Paşa Pirsultanlıya həsr olunmuş kitablar*

1. Ələsgər Əlioğlu. “Sədnik Paşanın yaradıcılılıq yolu”. “Səda”, Bakı, 1996. 52 səh. 100 nüsxə
2. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. I hissə “Pirsultan”, Gəncə, 2003, 410 səh. 300 nüsxə
3. Seyfəddin Rzasoy. “Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı”. “Nurlan”, Bakı, 2008. 212 səh. 500 nüsxə
4. Qasım Qırxqızlı. “Sədnik Paşa Pirsultanlının bədii yaradıcılığı”. “Pirsultan”, Gəncə, 2010, 130 səh, 100 nüsxə
5. Şakir Albalıyev. “Sədnik Paşa Pirsultanlı poeziyasına bir baxış”. “Pirsultan”, Gəncə, 2011, 80 səh, 100 nüsxə

6. Köçəri Cəfərli. "Sədnik Paşa Pirsultanlının təqdimatında: Melodik musiqi çeşməsi və Aşıq Şəmşir". Bakı, "Azərnəşr", 2011, 126 səh, 200 nüsxə
7. Elm və sənət adamları Sədnik Paşa Pirsultanlı haqqında. II hissə Gəncə Dövlət Universiteti nəşriyyatı, 2011, 234 səh. 100 nüsxə

## *MÜNDƏRİCAT*

Əsatir, əfsanə və rəvayətlər haqqında düşüncələrim 3

***Dünyanın yaranması və müqəddəslər haqqında rəvayətlər***

İnsan və dünya 16
İnsanın yaranması 17
Musa və ozan 19
Allah və Musa 19
Musa və Firon 21
Qızıl balıq 22
Fironun aqibəti 23
Allahını tanıyanı od yandırmaz 24
Nuhun gəmisi 26
Davud peyğəmbər 29

Ahunu balasına yetirən 33
Məhəmməd peyğəmbərin hekayəti 34
Veyis baba 36
Cənab Əli 37
Comərdi Qəssab və Həzrəti-Əli 38
Cənab Əli və Salsal 42
Düldül ayağı 44
Düldülün izi 44
Haça qaya 45
Salsal qalası 45
Aldədənin şümşad əsası 48
Nəğməli qarğılar 51
Aldədə və Bəxtiyar dağı 54
Dədə Günəş 56

## *Daşlar haqqında rəvayətlər*

Əli pəncəsi 59
Əli daşı 59
Kotançı daşı 60
Daş qız 60
Oğlan-qız daşı 61
Oğlan-qız daşı 61
Ayı və insan 63

## *Qayalar haqqında rəvayətlər*

Sona uçan qaya 65
Yazılı qaya 67
Kəndir qayaları 71

| | |
|---|---|
| Qara inək zağası | 73 |
| Molla  qayası | 73 |
| Molla qayası | 75 |
| Buz mağara | 76 |
| Qız qayası | 77 |
| Qızıl qaya | 78 |
| Didvan | 78 |
| Maral qayası | 79 |
| Koroğlu qayası | 84 |
| Qanlı qaya | 84 |
| Əyriboyun qayası | 85 |
| Haça qaya | 86 |
| Gəlin qayıdan qaya | 86 |
| Zeynəb qayası | 88 |
| Laçın qayası | 89 |
| Gəlin qaya | 89 |
| Gəlin qayası | 90 |
| Gəlin qayası | 91 |
| Yaslı qaya | 92 |
| Sirli qaya | 93 |
| Gəlin ölən | 93 |


## *Yaylaqlar haqqında rəvayətlər*


| | |
|---|---|
| Ağcaqız yaylağı | 95 |
| Qoçdaş yaylağı | 96 |
| Çalpanaq yaylağı | 97 |
| Palçıqlı yaylağı | 97 |
| Çınqıllı yal | 98 |
| Əyri dərə | 100 |
| Məmmədölən yaylağı | 100 |

## *Dağlar haqqında rəvayətlər*


| | |
|---|---|
| Pirsultan dağı | 104 |
| Ocaq dağı | 105 |
| Keyti və Mehdi dağları | 106 |
| Beşikli dağ | 107 |
| Qızlar qalası dağı | 108 |
| Başıkəsik təpəsi | 110 |
| Çilə dağı | 110 |
| Təpəsi dəlik dağ | 115 |
| İnək dağı | 116 |
| Dəli dağ | 117 |
| Yanardağ | 118 |
| Şah dağı | 118 |
| Qarı köpək təpəsi | 120 |
| İki təpə | 121 |
| Ağbaba | 122 |


## *Qalalar haqqında rəvayətlər*


| | |
|---|---|
| Torpaq qala | 126 |
| Xuram qalası | 126 |
| Koroğlu qalası | 128 |
| Pəri qalası | 128 |
| Ərkivan qalası | 132 |
| Ləzgi qalası | 137 |
| Gülüstan qalası | 139 |
| Gülüstan qalası | 140 |
| Qız qala (I) | 141 |
| Qız qalası (II) | 143 |
| Qız qalası (III) | 144 |

Qız qalası (IV) 144
Qız qalası (V) 146
Qız qalası (VI) 149
Qız qalası (VII) 150
Qız qala (VIII) 151
Qız qalası (IX) 151

## *Bulaqlar haqqında rəvayətlər*

Pəri bulağı 154
Nigar bulağı 157
Damcı bulaq 160
Tavad bulağı 160
Maral bulağı 161
Pəri bulağı 162
Mərcan bulağı 168
Pəri çeşməsi 174
Qız bənövşə 175
Şahbulaq 176
Damcılı bulaq 177
Kərəm bulağı 178
Kərəm bulağı 179
Qoca ovçu 180
Ələsgər su içən bulaq 182

## *Göllər haqqında rəvayətlər*

Tale gölü 185
Qırxqız gölü və Şahbulaq 186
Qannıca göl 187
Ceyranbatan və Sumqayıt 188
Qanlı göl 189

Qanlı göl 193
Çoban və Maral gölü 195
Göygöl,  Kəpəz, Ağsu 196

## *Çaylar haqqında rəvayətlər*

Araz 200
Sarım çayı 203
Fatma axan çay 207
Tərtər çayı 208
Qabartı çayı 209
Qanlı çay 210
Qoşqar –qoşaqar 213
O Kür, mən kür 214
Mingəçevir və Kür 214
O gündən lal olur 216
Sonalar çayı və Qızılkəmər 217
Nağaratpəsi və Qızılcücəli toyuq 218

## *Körpülər haqqında rəvayətlər*

Laləzar körpüsü 222
Hacı Qasım körpüsü 222
Qarı körpüsü 223

## *Quşlar haqqında rəvayətlər*

Xanın tutuquşu 225
Quş deyil, bəladır 226
Qaranquşla insanın dostluğu 227
Qara qarğa 229

| | |
|---|---|
| Amin quşu | 229 |
| Hop-hop quşu | 230 |
| Turac | 231 |
| Şanapipik | 232 |
| Qarğa və bülbül | 232 |
| Kəklik quşu | 235 |
| Hibob quşu | 235 |
| Bayquş | 236 |
| Çalıquşu | 237 |
| Dit-didi | 238 |
| Qu quşu | 238 |

## *Heyvanlar haqqında və qeyri-bəşəri mövzular rəvayətlər*

| | |
|---|---|
| Ovçu Pirim və Xan Kəlbi | 241 |
| Ovçu Pirimin sərgüzəştləri | 243 |
| Qızı sənə verəcəyəm | 248 |
| Maral səxavəti | 250 |
| Yaralı maral | 251 |
| Maralın buynuzu | 254 |
| İlan rəvayəti | 255 |
| İlan və elçi daşı | 259 |
| İlanı Çobanı köməyə çağırırmış | 260 |
| İlan gəlin | 261 |
| Qızıl ilan və gözəl qız | 263 |
| Qız və ilan | 265 |
| Xilaskar ilan | 267 |
| Qurd Zöhrə | 268 |
| Cin haqqında | 269 |
| Hal haqqında | 270 |

Cinlər padşahı 271
Al arvadları və ya Albastı 274
Amazonkalar və ya pəri qızlar 276

## *Ağaclar və güllər haqqında rəvayətlər*

Çinar 282
Sarı çinar 282
Qardaş çinarı 283
Qoşa çinar 285
Söyüd ağacı 286
Doqquz don ağacı 286
Ərgüvən ağacı 287
Yeddi qardaş ağacı 288
Həmişə yaşıl 288
Haqq ağacı 289
Göyçəsultan 290
Qızılgül 291
Qızılgül və tikan 293
Qızboyu çiçəyi 293
Xatun çiçəyin tərlanı 294
Gicitkən 295

## *Toponomik rəvayətlər*

Türk qızı Becan 298
Abbasbəyli 300
Gəncə-gencə 303
Gədəbəy 303
Oxçu oğlu
Filfilli kəndi 304

Seyfəli 306
Çinar tala 306
Baba Səmid 308
Şah Abbas məscidi 310
Həzrət baba 312
İşıq Həsən ocağı 313
Narlı Pir 313
Ortapəyə və Güneypəyə 314
Başıkəsik Gəngərli kəndindəki künbəzlər 315
Sultanbut 318
Eşqavdal 319
Qızdırma piri 320
Pirili və qırılı 321
Aşıqlı 322
Hüsü nənə 322
Şıx baba 323
Pir haqqında 324
Ocaq hələ də tüstüləyir 325
Əhməd baba ocağı 326
Sığnaq 326
Cavanmərd Qəssab 327
Seyid qızı qəbri 328

## *Nadir şah və digərləri ilə bağlı rəvayətlər*

Nadir şahın peşmançılığı 330
Sevinirlər ki... 331
Tək-tək bədir də doğar 332
Yeddi qardaş çinarı 334
Muğan qızı 335

Çoban Vəli 342
Nadir şah haqqında 344
Şəmkir qalası 346
Torpaq qala 348
Boyat qalası 349
Sultan Yavuz və Xətai 352
Allahın yazısı 353
Savalan şəhəri niyə batdı 355
Ana rəhmi 356
Xan sarayı 358

## *Aşıq ədəbiyyatı rəvayətləri*

Apardı sellər Saranı 362
Əsli-Kərəm 365
Xarın öısün ay bülbül 370
Oxuyan sünbüllər 371
Yəhya bəy Dilqəm haqqında 373
Sulduzlu Bayram 377
Qaraca Çobanın çətən evi 380
Uğuzun təəccübü 381

## *Nağılvari rəvayətlər*

Kəllənin rəvayəti 385
Güləndam 387
Dağ Yunisin xəzinəsi 388
Çahargah 389
Kündənin birini kəs tabağa tulla 393

Güləndə güllər açar 395
Şehli güllər içində 401
Uç qoç və bir sandıq 403
Deynən, daha bülbül ölüb 406

## *Astronomik rəvayətlər*

Günəşlə Ay (I) 409
Günəşlə Ay (II) 410
Ay üzünün ləkəsi 411
Dağ və bulud 412

## *Müxtəlif mövzulu rəvayətlər*

Zal oğlu sağ olsaydı 415
Can, can, a Kərəm 416
Həsri basma dolan gəl 418
Dağda maral xoş mələr 419
Ovçunun peşimançılığı 421
Teymur və cüyür 422
Harun dövləti 424
Hatəm səxavəti 426
Tərlan özgə malıdır 433
Yuxu və həqiqət 434
Sehirli qız 436
Xıdır Zində, Xıdır Nəbi və Xıdır İlyas 438
Xıdır Nəbi 438
Nəbini çağırdılar 439
Yaralı məhəbbət 441
Dağ ağlayır, dağ gülür 446
Məhəbbətin gücü 446

| | |
|---|---|
| Qanlı da ağlar | 447 |
| Sarban | 450 |
| Evdə də Lala qoymur | 452 |
| Ana | 453 |
| Səmimiyyət olan yerdə | 455 |
| Vay arxam | 457 |
| Ordan qaç, qurtar | 459 |
| Qonşu məsləhəti | 462 |
| Bu gün də ziyan elədik. | 464 |
| Barını çəkdir sonra | 467 |
| Dilim duzuna dəymişdi | 470 |
| Məni  itirməyin | 472 |
| Bu niyə ağladı | 474 |
| Gözlərimə qara su gəlib | 476 |
| Mən bərməkli deyiləm | 479 |
| Bu gün atımı istəyən | 481 |
| Qum dənəsi | 482 |
| Sən də mənim balamsan | 484 |
| Gəlin amanatı, ər-oğul amanatı | 486 |
| Özün kimi olsunlar | 487 |
| Bu başı yardırmamışam | 489 |
| Bakının qışı, yazı necə olur | 491 |
| Bu xına o, xınadan deyil | 493 |
| Sınaq | 494 |
| Bacarana, ağlı olana | 498 |
| Naxırçı arvadı Fatma | 500 |
| Dərdi varsa dərmanıda var | 50 |
| Biri də onlardan getdi | 505 |
| Ay lal Züleyxa xala | 506 |
| Badımcana qulluq etmirəm | 507 |
| Şeyx və gəlin | 508 |
| Lənətə gələsən tələsik iş | 510 |
| Nərgizlər | 511 |

| | |
|---|---|
| Bir qaynana üç gəlin | 512 |
| İsgəndərin ağlamağı | 517 |
| Bu gün əsl pəhlavan yıxmısan | 517 |
| Rüstəm və Zöhrab | 520 |
| Səməd Ağanın faytonu | 524 |
| Səməd Ağanın kişiliyi | 525 |
| Alovdan qorxurdum | 526 |
| İlan vuran ölməmişdi | 528 |
| At altında oynayır | 529 |
| Bir atanın iki qızı | 530 |
| Qarışqa və buğda | 531 |
| Qaçaq Nəbi toya gəlir | 532 |
| Özgələrə yar osun | 533 |
| Bulaq qanımızı aldı | 533 |
| Dilənçiyə onluq qızıl verir | 534 |
| Qaçaq Kərəm və Məşədi Yəhya | 535 |
| Donun yerinə göstərmişəm | 536 |
| Gözlərini itirir | 537 |
| Oğrular tapıldı | 537 |
| Ə oğru, sən dayan | 540 |
| Halallığını da aldı | 543 |
| Toyumdan üç gün qabaq | 545 |
| Şah ova çıxır | 547 |
| Nəbinin Ərzə qayası | 550 |
| Sən Həcərsən | 552 |
| Sən də oxa rast gələcəksən | 555 |
| Qız qeyrəti | 557 |
| Torpaq Morulundur | 559 |
| Qılınc ustası | 560 |
| İkisi də mənimdir | 560 |
| Özünüzə yezid tapın | 561 |
| Sümsü məsələsi | 562 |
| Xan və qaşıq düzəldən | 563 |

| | |
|---|---|
| Çoban və quru kəllə | 566 |
| Çoban və qoyun sürüsü | 566 |
| Bəsdi və Məmməd | 568 |
| Şahsevənlər | 569 |
| Gülgəz sulara qərq oldu | 572 |
| Məhəbbətin yaşıl pəhrələri | 574 |
| Nərgiz | 577 |
| Qarı qəbri | 578 |
| Canbazı da satmamışam ki | 579 |
| Üçüncü pilləkən | 581 |
| Ox əyiləndə | 584 |
| Ağ gəlin, urşan gəlin | 586 |
| Viran qal, a Rey | 589 |
| Uşağın böyük ağlı | 593 |
| Bu xasiyyət ki, səndədir | 595 |
| Dilimi şirin öyrədərəm | 595 |
| Çillə | 596 |
| Bacı məhəbbəti | 598 |
| Şəmkirdə gəmi | 599 |
| Şah və bənna | 601 |
| Yay oxu yoxsa ələk | 602 |
| Sədnik Paşa Pirsultanlının qısa tərcümeyi-hal | 605 |

*Toplayanı və tərtib edəni:*

***Sədnik Paşa Pirsultanlı,***

*professor, filologiya elmləri doktoru*

# *Azərbaycan türklərinin xalq rəvayətləri*

***Operator və dizayner:***

## *Turanə   Cəfərzadə*

Yığılmağa verilmişdir:  15.10.2011
Çapa imzalanmışdır: 05.12.2011
Qiyməti  müqavilə yolu ilə
Tiraj: 100



## *REDAKTOR   HAQQINDA*

Əjdərzadə Samirə Məhəmməd qızı 1975-ci sentyabrın 29-da Bakı şəhərində anadan olmuşdur.

1982-ci ildə Bakının Sabunçu rayonundakı 80 saylı orta məktəbin I sinfinə getmiş, 1992-ci ildə Yasamal rayonunda yerləşən 20 saylı liseyin tarix-ədəbiyyat fənni üzrə XI sinfini bitirmişdir. 1992-ci ildə Azərbaycan Dövlət Dillər Universitetinin ingilis-fransız dili fakultəsinə daxil olmuş, 1997-ci ildə isə həmin fakültəni bitirmişdir. 1998-ci ildən 2006-cı ilədək təyinatla İmişli rayonundakı Q.Babaşov adına 1 saylı orta məktəbdə ingilis dili müəllimi işləmiş, 2006-cı ildən Bakının Sabunçu rayonunda yerləşən 309 saylı orta məktəbdə direktor müavini vəzifəsində çalışır. Ailəlidir. Bir qızı var.

ABŞ-Connektikut ştatına və Nyu-York şəhərində, eləcə də Türkiyənin Şimali Kipr adasında yerləşən Yeni Doğu və Akdeniz Universitetlərində təcrübə kursları keçmiş, həm Connektikut Universitetinin rektorluğu, həm də Yeni Doğu və Akdeniz Universitetlərinin rektorluğu tərəfindən xüsusi diplomla-sertifikatlarla vətənə dönmüşdür. YAP-ın üz-

vüdür. “Xan qızı Natəvan” mükafatı və “İnam” şərəf diplomu ilə təltif olunmuşdur. Respublika Qadınlar Cəmiyyətində xarici əlaqələr üzrə şöbə müdiridir.

“Azərbaycan və türklərinin xalq rəvayətləri və onun tədqiqi məsələləri” mövzusunda elmi əsər üzərində işləyir.



***Sədnik Paşa Pirsultanlı***